İqlim dəyişikliyinin ailənin sosial-iqtisadi vəziyyətinə (qadın və uşaqlara) təsiri üzrə

# ANALİTİK HESABAT

BAKI- 2025

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi ilə “Sustainera Solutions” tərəfindən 2025-ci ildə hazırlanmışdır.

sustainera
solutions

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi

**İqlim dəyişikliyinin ailənin sosial-iqtisadi vəziyyətinə (qadın və uşaqlara) təsiri üzrə**

# ANALİTİK HESABAT


**Redaksiya Heyəti:**
Elgün Səfərov
Aidə Seyidli
Zəminə Səfərova
Pərvanə Əsgərzadə
Leyla Şərifzadə
Xəyalə Abbaslı-Əsgərli

**Ekspertlər:**
Ceyhun Hacıyev
Fidan Qasımova
Murad Hüseynov


"**İqlim dəyişikliyinin ailənin sosial-iqtisadi vəziyyətinə (qadın və uşaqlara) təsiri**" adlı hesabatda toplanan və təhlil olunan məlumatlara görə məsuliyyəti Sustainera Consulting Services MMC daşıyır.

# Mündəricat


LÜĞƏT 1

GİRİŞ 2

Məqsəd 3

METODOLOJİ YANAŞMA 6

Kəmiyyət araşdırması 6

Keyfiyyət araşdırması 8

KƏMİYYƏT TƏHLİLİ VƏ NƏTİCƏLƏRİN TƏQDİMATI 10

Demoqrafik təhlil 10

İqlim dəyişikliyi və onun təsirlərinin təhlili 18

İqlim dəyişikliyi və gender-spesifik təsirlər 27

Cavab mexanizmləri və davamlılıq 36

Sorğudan əldə edilən əsas nəticələr 38

KEYFİYYƏT TƏHLİLİ VƏ NƏTİCƏLƏRİN TƏQDİMATI 41

İqlim dəyişikliyinin təsirləri və həssaslığın qiymətləndirilməsi 41

Gender, iqlim dəyişikliyi və risklərin qiymətləndirilməsi 43

İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri - gender aspektlərini nəzərə alan yanaşma 44

İqlim dəyişikliyi ilə əlaqədar qlobal ən yaxşı təcrübələrə dayanan qərar qəbuletmə və mitiqasiya/uyğunlaşma strategiyasının formalaşdırılması 45

Gender Bərabərliyi: milli təşəbbüslər və beynəlxalq öhdəliklər 51

Gender Bərabərliyi: qanunvericilik və hüquqi çərçivə 52

Gender aspektlərinin nəzərə alınmadığı sənədlər 53

İqlim dəyişikliyinin genderə təsirləri: sosial, iqtisadi və sağlamlıq perspektivləri 53

İqlim dəyişikliyi ilə mübarizə: genderə təsirlərinin azaldılmasında sosial normalar və gözləntilərin rolu 56

Qlobal iqlim dəyişikliyi ilə mübarizədə gender amili 57

Müsahibədən əldə edilən vacib məqamlar 59

TÖVSİYƏLƏR 60
İqtisadi dayanıqlılıq və məşğulluq üzrə əsas tövsiyələr 61
Kənd təsərrüfatı və resurslara çıxış 62
Sosial dayanıqlılıq və sağlamlıq xidmətləri 63
İqlim dəyişikliyinə qarşı dayanıqlılıq və hazırlıq 63
Gender bərabərliyi və iştirakçılıq 64

TÖVSİYƏLƏR ÜZRƏ MÜXTƏLİF ÖLKƏLƏRİN NÜMUNƏLƏRİ 65

İCMAL 70

QOŞMA 72
Qoşma 1. Kəmiyyət araşdırmasının anket sorğusu 72
Qoşma 2. Keyfiyyət araşdırmasının müsahibə bələdçisi 82

MƏNBƏLƏR 83

# Lüğət

| | |
|---|---|
| **Bioloji Müxtəliflik** | Canlı növlərinin zənginliyi, iqlim dəyişikliyi ilə azalma təhlükəsi ilə üzləşir. |
| **Cavab Mexanizmləri** | İqlim dəyişikliyinə uyğunlaşma və təsirlərin azaldılması üçün həyata keçirilən tədbirlər. |
| **Dayanıqlı İnkişaf** | Resurslardan gələcək nəsillərin ehtiyaclarına təhlükə yaratmadan istifadə etməyi nəzərdə tutur. |
| **Ekosistem Deqradasiyası** | Ekosistemlərin bioloji və fiziki resurslarının azalması prosesi. Bu, təbii fəlakətlər və insan fəaliyyəti ilə güclənə bilər. |
| **Ekosistem Xidmətləri** | İnsanlara təbiətdən təqdim olunan faydalar, məsələn, təmiz hava və su. |
| **Enerji Keçidi** | Karbon emissiyalarını azaltmaq və dayanıqlı enerji mənbələri yaratmaq məqsədi ilə qalıq yanacaqlardan bərpa olunan enerji mənbələrinə keçid. |
| **Gender Bərabərliyi** | Qadın və kişilərin hüquq bərabərliyi və bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar və onların cəmiyyətdə bərabər sosial vəziyyəti. |
| **Gender Perspektivi** | Siyasət və proqramlarda qadın və kişilərin müxtəlif ehtiyaclarının nəzərə alınması. |
| **Gender transformativliyi** | Gender bərabərsizliyini azaltmaq və gender stereotiplərini dəyişdirmək məqsədini güdən yanaşma. |
| **İqlim Dəyişikliyi** | Uzunmüddətli dövrdə temperatur, yağıntı və hava şəraitində baş verən dəyişikliklər. İnsan fəaliyyəti və təbii proseslərdən qaynaqlanır. |
| **İqlim Maliyyələşdirilməsi** | İqlim dəyişikliyinə uyğunlaşma və təsirlərin azaldılması üçün maliyyə resurslarının səfərbər edilməsi. |
| **İstixana Qazları** | Atmosferdə istiliyi saxlayan qazlar (karbon qazı, metan, azot oksidi), iqlim dəyişikliyinin əsas səbəblərindən biridir. |
| **Karbon Bazarları** | İstixana qazı emissiyalarını azaltmaq üçün karbon kreditlərinin alınıb-satıldığı iqtisadi mexanizmlər. |
| **Karbon İzləri** | Fərd, şirkət və ya ölkənin atmosferə buraxdığı karbon qazı miqdarıdır. Karbon izlərinin azaldılması iqlim dəyişikliyi ilə mübarizədə mühümdür. |
| **Miqrasiya** | İnsanların yaşayış yerlərini dəyişməsi prosesi. |
| **Sosial Dayanıqlılıq** | İcmaların sosial dəyişikliklərə və fəlakətlərə uyğunlaşma qabiliyyəti. İqlim dəyişikliyi zamanı icma stabilliyini təmin edir. |

# Giriş

İqlim dəyişikliyi dövrümüzün qlobal səviyyədə ən ciddi problemlərindən biridir. Son illərdə insan hüquqları ilə ətraf mühit arasındakı sıx əlaqənin getdikcə daha geniş miqyasda tanınması, bu problemin yalnız ekoloji deyil, həm də insan hüquqları, təhlükəsizlik və iqtisadi inkişaf baxımından mühüm çağırış olduğuna diqqət çəkir. İqlim dəyişikliyi öz ekoloji nəticələrindən əlavə, mövcud sosial-iqtisadi bərabərsizlikləri daha da gücləndirərək əhalinin həssas qrupuna qeyri mütənasib təsir göstərir. Bir çox hallarda ailə daxilində məhz qadınlar və uşaqlar iqlim dəyişikliyinin təsirlərinin ən ağır yükünü daşıyırlar. İqlim dəyişikliyinin potensial mənfi nəticələri, məsələn, miqrasiya risklərinin artması, ərzaq təhlükəsizliyi, səhiyyə və təhsil xidmətlərinə məhdud çıxış qadınların və uşaqların həyat keyfiyyətinə böyük zərər verə bilər. Qeyri-sabit hava şəraiti, dəniz səviyyəsinin qalxması, quraqlıq və daşqınlar kimi iqlimlə bağlı problemlərə həssas olan Azərbaycanda bu tipli məsələlərin həlli çox vacibdir. Ölkəmizdə yüksək səviyyədə keçirilən **BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının (COP) 29-cu sessiyası** iqlim dəyişikliyi və insan hüquqlarının kəsişməsinə diqqəti cəlb etmək, eləcə də qadınların və uşaqların rifahını qoruyan siyasətləri təbliğ etmək üçün unikal bir platforma yaratmışdır. Bakıda keçirilən **COP29** bir sıra mühüm nəticələrlə yadda qaldı[1]:

1. **Yeni İqlim Maliyyələşdirmə Məqsədi:** İnkişaf etmiş ölkələr 2035-ci ilə qədər inkişaf etməkdə olan ölkələr üçün illik 300 milyard ABŞ dolları məbləğində iqlim maliyyəsi təmin etməyi öhdələrinə götürdülər. Bundan əlavə, bütün mənbələrdən ümumilikdə 1,3 trilyon dolların səfərbər edilməsi hədəfləndi.
2. **Karbon Bazarları üzrə Qlobal Razılaşma:** Paris Sazişinin 6-cı maddəsi çərçivəsində karbon kreditlərinin beynəlxalq ticarətini tənzimləyən mexanizmlər təsdiqləndi. Bu razılaşma inkişaf etməkdə olan ölkələrə əhəmiyyətli maliyyə vəsaitlərinin cəlb edilməsinə şərait yaradacaq.
3. **İtki və Zərər Fondu:** Ən həssas ölkələrə iqlim dəyişikliyinin təsirləri ilə mübarizədə dəstək olmaq məqsədilə yaradılan İtki və Zərər Fondunun tam fəaliyyətə başlaması təmin edildi və ümumi maliyyə dəstəyi 731,15 milyon ABŞ dollarına çatdırıldı.
4. **Milli Töhfələrin Gücləndirilməsi:** Ölkələr qlobal istiləşməni 1,5°C ilə məhdudlaşdırmaq üçün milli səviyyədə müəyyən edilmiş töhfələrini (NDC) yeniləməyə və daha iddialı hədəflər müəyyən etməyə çağırıldılar.

*Link 1*

5. **Uyğunlaşma və Dayanıqlılıq:** İqlim dəyişikliyinə uyğunlaşma tədbirlərinin genişləndirilməsi və bu sahədə maliyyələşmənin artırılması vurğulandı. Bütün ölkələrdən 2025-ci ilə qədər Milli Adaptasiya Planlarını hazırlayıb təqdim etmələri tələb olundu.
6. **Gender və İqlim Dəyişiklikləri üzrə Uzadılmış Proqram:** Lima Gender və İqlim Dəyişiklikləri üzrə İş Proqramının daha 10 illik müddətə uzadılması ilə qadınların iqlim fəaliyyətlərində iştirakını gücləndirmək üçün ardıcıl səylər təmin edildi.
7. **Yeni Gender Fəaliyyət Planı:** COP30-da qəbul ediləcək yeni Gender Fəaliyyət Planının hazırlanması ilə gender bərabərliyinin iqlim dəyişikliklərinə uyğunlaşma və dayanıqlılıq siyasətlərində daha da inteqrasiya edilməsi hədəfləndi.
8. **Gender və İqlim Maliyyəsi:** COP29 çərçivəsində Yaşıl İqlim Fondu İdarə Heyətinə UNFCCC Gender Fəaliyyət Planına uyğun olaraq gender aspektli fəaliyyətlərin həyata keçirilməsinə fəal töhfə vermək çağırışı edildi.
9. **Genderə Uyğunlaşdırılmış Fondlar:** Uyğunlaşma Fondu Şurası tərəfindən fond vəsaitlərinin genderə uyğunluğunun artırılması və Qlobal Ətraf Mühit Fondunun bütün icraçı agentliklərinin layihələrində gender bərabərliyi siyasətinə tam əməl etməsi təşviq edildi.

## Məqsəd

İqlim dəyişikliyi təkcə ətraf mühitə zərər vuran amil kimi deyil, eyni zamanda sosial və iqtisadi strukturlara ciddi təsir göstərən geniş  problem kimi qəbul edilməlidir. Hazırda qlobal iqlim böhranı gücləndikcə, iqlim dəyişikliyinin qadınların və uşaqların hüquqlarına və rifahına dərin təsirinin dərk edilməsi prioritetə çevrilib.

İqlim dəyişikliyi ancaq qalıq yanacaqların yandırılması və həddindən artıq sənayeləşmə kimi antropogen səbəblərdən deyil, həm də silahlı münaqişələr və müharibələrin yaratdığı ekoloji fəsadlarla daha da dərinləşir. Silahlı konfliktlər ətraf mühitə ciddi zərər yetirərək təbii resursların məhv edilməsinə, biomüxtəlifliyin azalmasına və ətraf mühitin çirklənməsinə səbəb olur. Müharibələr zamanı ətraf mühitin məqsədli şəkildə məhv edilməsi ekoloji terrorizm anlayışını gündəmə gətirir ki, bu da artıq mövcud olan ekoloji problemləri daha da ağırlaşdırır. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində erməni silahlı qüvvələrinin törətdiyi ekoloji vandalizm bu təsirin bariz nümunəsidir. Ermənistanın 30 ilə yaxın davam edən işğalı zamanı Qarabağ və Şərqi Zəngəzur ərazilərində 246 min hektar meşə sahəsi məqsədli şəkildə məhv edilmiş, təbii su mənbələri kimyəvi, bioloji və radioaktiv tullantılarla çirkləndirilmiş, nadir biomüxtəliflik nümunələri isə ya tamamilə yox edilmiş, ya da ciddi şəkildə zərər görmüşdür.

Ümumilikdə, 43 min hektar xüsusi mühafizə olunan təbiət ərazisində, o cümlədən Bəsitçay və Qaragöl dövlət qoruqlarında "Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilmiş 24 fauna və 69 flora növü mövcud idi ki, onların böyük bir hissəsi artıq tamamilə itirilib. Həmçinin, törədilən məqsədli yanğınlar nəticəsində yalnız 2006-2009-cu illər arasında 63 min hektardan çox torpaq sahəsi yararsız hala salınmışdır. Bu hallar təkcə yerli ekosistemi deyil, həm də bölgənin və qlobal səviyyədə planetin bioloji müxtəlifliyinə mənfi təsir göstərmişdir.

Belə ekoloji fəsadlar yalnız təbii resurslara deyil, insan həyatına və sosial strukturlara da mənfi təsir göstərir. Ətraf mühitin məhv olması və resurs çatışmazlığı gender əsaslı fərqlilikləri daha da dərinləşdirərək ailədaxili və cəmiyyət səviyyəsində sosial-iqtisadi dinamikalara təsir edir. Bu kontekstdə iqlim dəyişikliyinin gender bərabərliyinə təsiri qısamüddətli nəticələrlə məhdudlaşmır və mövcud gender bərabərsizliyini gücləndirir. Qadınlar, xüsusilə də kənd yerlərində yaşayanlar, təbii fəlakətlər, iqtisadi qeyri-sabitlik, işsizlik və iqlim dəyişikliyinin yaratdığı digər çətinliklər qarşısında daha çox sosial yük altında qalır. Bu təsirlər ailələr daxilində daha çox hiss olunur - qadınların iqtisadi fəaliyyəti məhdudlaşdıqca, ailənin ümumi gəlir səviyyəsi azalır, bu isə ailədaxili sosial və iqtisadi dinamikanı zəiflədir. Nəticədə, ailənin rifah səviyyəsi azalır, uşaqların təhsil, qidalanma və sağlamlıq imkanları məhdudlaşır və bu, uzunmüddətli sosial-iqtisadi problemlərin yaranmasına gətirib çıxarır.

Kənd yerlərində yaşayan qadınlar üçün iqlim dəyişikliyinin təsiri daha güclü hiss olunur, çünki onlar dolanışıqları üçün ailə təsərrüfatında əsas rol oynayan fərdlər kimi təbii resurslardan daha çox asılıdırlar. Məsələn, suyun və kənd təsərrüfatı məhsuldarlığının azalması ev təsərrüfatları üçün ərzaq istehsalına cavabdeh olan qadınların ailələrinin ehtiyaclarını ödəməsini çətinləşdirir. Qadınların üzərinə düşən əlavə məsuliyyət, ailələrin sosial strukturunda gender əsaslı disbalansa səbəb ola bilər, çünki qadınlar iqtisadi qeyri-sabitlikdən daha çox əziyyət çəkir və ailədaxili qərarvermə proseslərində daha az iştirak edə bilirlər.

**Əlavə məsuliyyətlər** dedikdə, qadınların ailə içində ev işləri, uşaq baxımı və yaşlılara qayğı kimi öhdəlikləri nəzərdə tutulur. Bu işlər əsasən əvəzi ödənilməyən işlərdir və qadınların təhsilə, karyera inkişafına və iqtisadi fəaliyyətə daha az vaxt ayırmalarına səbəb olur. Nəticədə qadınlar əmək bazarına kişilərə nisbətən daha gec və ya daha məhdud şəkildə daxil ola bilirlər.

**Gender disbalansı** sadəcə qadınların daha çox məsuliyyət daşıması deyil, həm də onların ailədaxili qərarvermə proseslərində daha az söz sahibi olmalarına gətirib çıxarır. Ailə üzvlərinin həyatları ilə bağlı vacib qərarlar qəbul edərkən qadınlar, məhdud sosial və iqtisadi imkanları səbəbindən kişilərə nisbətən daha az iştirak edə bilirlər.

Qadınlar əmək bazarında daha az və ya qeyri-sabit iş şəraitində olduqları üçün iqtisadi qeyri-sabitlikdən daha çox təsirlənirlər. Məsələn, gəlir itkisi, iş yerlərinin azalması və ya həyat şəraitindəki dəyişikliklər **qadınların sosial və iqtisadi dayanıqlığını** kişilərə nisbətən daha çox sarsıdır. Bu qeyri-sabitlik qadınların gələcəklə bağlı planlar qurmasına və ailə daxilində daha təsirli bir rol oynamasına mane olur.

**Qadınların iqtisadi asılılığı və məhdud imkanları**, onların ailədaxili qərarvermə proseslərində daha az iştirakına səbəb ola bilər. Məsələn, maliyyə qərarları, uşaq təhsili və ya yaşlılara qayğı ilə bağlı qərarlarda qadınlar kişilərə nisbətən daha az rol oynaya bilərlər. Bu isə ailə daxilində gender rolları arasındakı bərabərsizliyi daha da gücləndirir və qadınların qərarvermə prosesində səslərini azaldır.

İqlim dəyişikliyinin gender təsirləri nəticəsində qadınların iqtisadi fəaliyyətlərinə, sosial mövqelərinə və şəxsi təhlükəsizliklərinə mənfi təsirlər qaçılmazdır. Ailələrin ümumi sosial-iqtisadi statusuna təsir göstərən bu faktorlar həm də gender bərabərsizliyini dərinləşdirir, çünki ailədaxili resurs bölgüsü və qərarvermə mexanizmləri gender əsaslı fərqlilikləri daha da gücləndirir.

Beləliklə, iqlim dəyişikliyinə qarşı mübarizədə genderə həssas yanaşmaların tətbiqi, qadın və uşaqların hüquqlarının qorunması və ailələrin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması baxımından vacibdir. Mövcud siyasət və proqramlarda gender spesifik ehtiyacları nəzərə almaq, qadınların və digər həssas qrupların dayanıqlığına və uyğunlaşma strategiyasına təsir edən sosial, iqtisadi və ekoloji amillərin nəzərə alınması olduqca önəmlidir. Ölkəmizdə də bu istiqamətdə araşdırmaların aparılması və iqlim dəyişikliyinə uyğunlaşma prosesində genderə həssas və inklüziv tədbirlərinin həyata keçirilməsi əhəmiyyətli hesab olunur.

Bu tədqiqat sahəsində iqlim dəyişikliyinin genderə mənfi təsirləri, xüsusilə qadınların həyatına, o cümlədən onların sosial və iqtisadi imkanlarına gender-spesifik təsirləri araşdırılmalı və bu təsirlərin necə azaldıla biləcəyi təhlil edilməlidir.

# Metodoloji yanaşma

Araşdırmanın yuxarıda qeyd olunan məqsədinə çatmaq üçün, həm kəmiyyət, həm də keyfiyyət araşdırması metodlarından istifadə olunmuşdur. Kəmiyyət araşdırması Azərbaycanın 6 bölgəsi və ümumilikdə 1000 respondent üzrə, keyfiyyət araşdırması isə müxtəlif qurumlarda və təşkilatlarda çalışan, eləcə də gender üzrə ümumilikdə **7 ekspertlə** müsahibələr əsasında aparılmışdır. Araşdırmanın geniş metodoloji yanaşması, və əldə olunan nəticələr növbəti bölmələrdə ətraflı şəkildə təqdim edilmişdir.

Kəmiyyət araşdırması üzrə, respondentlərin 59%-i qadın, 41%-i isə kişi olmuşdur. Bakı, Bərdə, Lənkəran və Sumqayıt şəhərlərində qadın və kişi respondentlərin nisbəti digər regionlara nəzərən daha yüksək səviyyədə qeydə alınmışdır (20-36% aralığında).
Keyfiyyət araşdırması üzrə də, qadın ekspertlər çoxluq təşkil etmişdir. Onların sadəcə 2-si kişi, digər 5-i isə qadın ekspertlər olmuşdur.

## Kəmiyyət araşdırması

Kəmiyyət araşdırması aparılan zaman, əldə olunacaq nəticələrlə bağlı əsas gözləntilər aşağıdakı kimi müəyyən edilmişdir:

**Kəmiyyət araşdırması üzrə əsas gözləntilər**

1. İqlim dəyişikliyinin ailələrə (rayon və şəhər müqayisəsi) sosial və iqtisadi cəhətdən necə təsir etdiyi barədə məlumatlar
2. Ailələrin uyğunlaşma strategiyaları və mübarizə mexanizmləri haqqında məlumatlar
3. İqlim dəyişikliyi ilə bağlı stress-faktorlar və gender əsaslı zorakılığın artması arasında əlaqənin öyrənilməsi
4. İqlimlə bağlı miqrasiyanın ailə strukturlarına, xüsusən də qadınlar üzərində artan yükə təsirinin ölçülməsi
5. Qadınların və uşaqların təhsil və iqtisadi imkanlarının iqtisadi təzyiqlər və artan məişət məsuliyyətləri səbəbindən nə qədər məhdudlaşdığının araşdırılması
6. Maraqlı tərəflər üçün xüsusilə bölgələrdəki ailələrə iqlim dəyişikliyinə davamlılığı formalaşdırmağa dəstək olmaq məqsədilə tövsiyələrin hazırlanması

Kəmiyyət araşdırması anket sorğusu əsasında keçirilmişdir. Sorğu ümumilikdə 40 sual əsasında hazırlanmış və 4 hissədə təqdim olunmuşdur:

- **Birinci bölmə:** İştirakçıların demoqrafik məlumatları
- **İkinci bölmə:** İqlim dəyişikliyi və onun təsirləri
- **Üçüncü bölmə:** İqlim dəyişikliyi və gender-spesifik təsirlər
- **Dördüncü bölmə:** Cavab mexanizmləri və davamlılıq

Anket sorğusu Azərbaycanın 6 regionunda – Sumqayıt, Neftçala, Lənkəran, Gəncə, Bərdə, və Bakıda yaşayan 1000 nəfər arasında keçirilmişdir. Sorğulara respondentlərin cəlb olunması zamanı **"snowball sampling" metodundan** istifadə edilmişdir. Bu metodun əsas xarakteristikası ondan ibarətdir ki, tədqiqatçı nümunələri (respondentləri) seçmək üçün sorğunu artıq yerinə yetirmiş respondentlərdən digər tanışlarını cəlb etmələrini istəyir. Bölgələrdəki icmaların təbiətini, qohumluq və qonşuluq xüsusiyyətlərini nəzərə alaraq, bu metodun tətbiq olunması məqsədəuyğun hesab edilmişdir.

Sorğular zamanı **CAPI (Computer-Assisted Personal Interviewing)** proqram təminatından fiziki şəkildə istifadə olunmuşdur. CAPI metodunun əsas üstünlükləri ondan ibarətdir ki, məlumatların daha sürətli toplanmasına, toplanan datanın keyfiyyətinə operativ nəzarət etməyə, mürəkkəb keçidli sualların məntiqi ardıcıllığının təmin edilməsinə, GPS vasitəsilə sorğu keçirilən məntəqələrin izlənməsinə, və toplanan datanın emal prosesinin asanlaşdırılmasına imkan yaradır. Bu, həm də İnternetin olmadığı və ya zəif olduğu bölgələrdə sorğuların kəsintisiz keçirilməsi baxımından əlverişlidir. Kəmiyyət sorğuları 29 iyul 2024-cü il tarixində başlamış və 13 avqust 2024-cü il tarixində bitmişdir.

Kəmiyyət sorğusunun qeyd olunan 6 regionda keçirilməsinin əsas səbəbləri aşağıdakı kimi verilmişdir:



1. **Bakı:** Azərbaycanın paytaxtı və ən böyük şəhəri kimi Bakı Xəzər dənizi sahilində yerləşdiyindən onu dəniz səviyyəsinin qalxması və sahil eroziyasına qarşı həssas edir.
2. **Sumqayıt:** Xəzər dənizi sahili boyunca Bakının şimalında yerləşən şəhərin sənaye obyektlərinə yaxınlığı havanın və suyun çirklənməsinə, həmçinin sakinlər üçün iqlim dəyişikliyinin təsirlərini gücləndirir.
3. **Bərdə:** Qarabağ iqtisadi rayonunda yerləşən şəhər quraqlıq, istilik dalğaları və su qıtlığı kimi problemlərlə üzləşə bilər ki, bu çoxillik optik peyk təsvirləri əsasında qiymətləndirilmişdir. Bundan əlavə, uzun müddət davam edən quru dövrlər meşə yanğınları riskini kəskin artırır.
4. **Neftçala:** Azərbaycanın cənub-şərqində yerləşən Neftçala su qıtlığı probleminə meyllidir. Xüsusilə, Neftçala bölgəsinin alçaq coğrafiyası burada daşqınların və Xəzər dənizi suyunun Kürə qarışması kimi ekoloji hadisələrin müşahidə olunmasına gətirib çıxarır.
5. **Lənkəran:** Lənkəranın iqlimi nisbətən yüksək yağıntı və yaşıl bitki örtüyü ilə xarakterizə olunur. Bununla belə, bu, onu iqlim dəyişikliyinin təsirlərinə qarşı sığortalamır. Bölgə kənd təsərrüfatı fəaliyyətlərini və infrastrukturu poza biləcək güclü yağış və daşqın kimi ekstremal hava hadisələrinə qarşı həssasdır.
6. **Gəncə:** Ölkə üzrə aparılmış quraqlıq səviyyəsinin çoxillik optik peyk təsvirləri əsasında qiymətləndirilməsi nəticələrinə görə 2023-cü ildə çox şiddətli quraq ərazilər sırasında Gəncə şəhəri də yer almışdır.

## Keyfiyyət araşdırması

Keyfiyyət araşdırmasının məqsədi kəmiyyət sorğularından əldə olunan nəticələr əsasında iqlim dəyişikliyi ilə mübarizə yolları, gender-spesifik amillərin nəzərə alınmasının əsas üstünlükləri və bu amillər nəzərə alınmadığı zaman qarşıya çıxa biləcək çətinliklər və mənfi təsirlərin müəyyən edilməsi, eləcə də qlobal müstəvidə ən yaxşı nümunələrin Azərbaycanda tətbiqinin mümkünlüyünün öyrənilməsi olmuşdur.

Bu mərhələdə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə məsləhətləşmələr (eyni zamanda seçim meyarları) əsasında sahə üzrə ekspertlər müəyyən edilmişdir. Ümumilikdə **7 ekspertlə** üz-üzə və virtual müsahibələr keçirilmişdir. Beynəlxalq və yerli təşkilatları, eləcə də akademiya və digər qurumları təmsil edən ekspertlər müsahibələrə cəlb olunmuşdur.

Keyfiyyət araşdırmasına cəlb olunan ekspertlərin təmsil olunduqları sahələr və (ya) vəzifələr bunlardır:

- Ətraf mühit sahəsində ixtisaslaşmış gender eksperti
- Kənd təsərrüfatı sahəsində ixtisaslaşmış gender eksperti
- Dayanıqlı inkişaf, gender bərabərliyi, qadınların rolunun artırılması üzrə ekspert
- "Gender Hub Azerbaijan" – Beynəlxalq gənclər siyasəti üzrə ekspert və təlimçi, gender üzrə məsləhətçi
- Türkiyə Cümhuriyyəti Gümüşhane Universitetinin dosenti
- Dövlət Su Ehtiyatları Agentliyi üzrə nümayəndə
- Gender məsələləri üzrə ixtisaslaşmış inkişaf mütəxəssisi

Ekspertlərlə dərinləşdirilmiş müsahibələr 10 sualdan ibarət olan sorğu vasitəsilə keçirilmişdir. Bu sorğu həm açıq, həm də qapalı suallardan ibarətdir və aşağıdakı istiqamətlər üzrə ekspertlərdən məlumatların alınmasına yönəlmişdir:

- İqlim dəyişikliyinin təsirlərinin cəmiyyətin müxtəlif seqmentlərinə fərqli təsirləri
- Gender və iqlim dəyişikliyi, qadınların xüsusi ehtiyacları və potensial mənfi və müsbət təsirlər
- İqlim fəaliyyətinin genderə uyğun təşkili və bu istiqamətdə təklif olunan həllər və ya yanaşmalar
- İqlim dəyişikliyi ilə bağlı qərar qəbuletmə və qadınların rolu, eyni zamanda mübarizə strategiyası
- Qeyd olunan sahələrdə ən yaxşı təcrübələr

Ekspert müsahibələri 9 sentyabr 2024-cü il tarixində başlanmış və 4 oktyabr 2024-cü il tarixində bitmişdir.

# Kəmiyyət təhlili və nəticələrin təqdimatı

Hesabatın bu bölməsində yuxarıda qeyd edilmiş kəmiyyət araşdırmasının nəticələri verilmişdir. Sorğunun cavabları ətraflı şəkildə təhlil edilmiş, hər bir hissənin göstəriciləri ayrı-ayrılıqda təqdim edilmişdir. Təhlilin daha aydın və anlaşılan olması həmçinin məlumatların vizual təqdimatını dəstəkləmək üçün qrafiklər əlavə edilmişdir.

## Demoqrafik təhlil

Bu hissədə iştirakçılara ümumi demoqrafik, həmçinin ev təsərrüfatlarında ailə dinamikaları barədə suallar ünvanlanmışdır. Ümumilikdə, sorğu iştirakçılarının 59%-i qadın, 41%-i isə kişidir. Bölgələrə ayrılıqda baxdıqda, hər bir bölgədə qadınların sayı üstünlük təşkil edir. Respondentlər arasında cins nisbətində ən çox fərq Bakı şəhərində görülmüşdür (68% qadın, 32% kişi).

**Cinsiyyət bölgüsü**




**Bölgələrə görə cinsiyyət bölgüsü**




Respondentlərin 45.40%-i şəhərdə, 18.10%-i kənd, 16.20%-i qəsəbədə yaşadıqlarını bildirmiş, həmçinin 51.15% -i həyət evlərində, 48.65%-i isə binada yaşadıqlarını qeyd etmişdir. Təhlilin növbəti mərhələlərində şəhər, rayon, rayon mərkəzləri və qəsəbələrdə yaşayan respondentlər şəhər (urban), kəndlərdə yaşayan respondentlər isə kənd (rural) bölgələrində (kənd tipli yaşayış məntəqələrində) yaşayan əhali kimi qruplaşdırılmışdır.

### Yaşayış məntəqəsinin növü




### Yaşayış yerinin növü




Yaş bölgüsünə nəzər yetirdikdə, ümumilikdə 25-34 yaş qrupunda qadınlar, 18-24 yaş qrupunda isə kişilər üstünlük təşkil edir. Hər bir bölgəyə ayrılıqda baxıldığı zaman, Bakı və Sumqayıt şəhərlərində 18-24 yaş aralığında kişi və qadınlar, Bərdədə 18-24 yaş aralığında kişilər və 25-34 yaş aralığında qadınların sayı üstündür. Gəncədə 45-54 yaşlarda həm kişilər, həm də qadınlar, Lənkəranda 25-34 yaş qrupunda həm kişilər, həm də qadınlar, Neftçalada isə 35-44 yaş qrupunda kişilər, və 25-34 yaşlarda qadınlar çoxluq təşkil edir.

### Qadın və kişilərin yaşa görə bölgüsü



Respondentlərin 35.3%-də ailələr 4 və daha çox üzvdən ibarətdir. 26%-də 4 nəfər, 24.7%-də isə ailədə 3 nəfər var. Respondentlərin 48%-i evli, 39.5%-i isə subaydır. Subay kişilər 65.11%, subay qadınlar 21.92% təşkil edir. Evli qadınlar 67.12%, evli kişilər isə 21.87% dir.







Respondentlərin 49%-i ali təhsilli (28.1% qadın, 20.9% kişi), 13.21%-i peşə təhsilli (6.41%-qadın, 6.81% kişi), 11.21%-i tam orta təhsillidir (7.01% qadın, 4.2% kişi). 13.31% respondent təhsilli olmadığını bildirmişdir. Məşğuliyyət növünə görə, 22.65% respondent özəl sektorda, 17.54% dövlət sektorunda çalışdığını, 19% isə işsiz olduğunu və iş axtardığını bildirmişdir. İştirakçılar arasında dövlət sektorunda işləyən qadınların sayı üstünlük təşkil edir (14.53%). Həmçinin 11.32% iştirakçı evdar qadın olduğunu qeyd etmişdir.






Əsas məşğuliyyətləri ilə yanaşı, iştirakçıların 48%-i əlavə təsərrüfatlarının olduğunu da qeyd etmişdir. Onlardan 32%-i bağçılıqla (25.42% qadın, 6.67% kişi), 30.4% mənfəət üçün məhsul satışı ilə (23.75% qadın, 6.67% kişi), 24.38%-i isə heyvandarlıq ilə (21.67% qadın, 2.71% kişi) məşğul olurlar. Burada qadınların sayının üstünlük təşkil etdiyi nəzərə çarpır.







İştirakçıların 49.9%-i ailələrinin dolanışıq səviyyəsini orta dərəcədə qiymətləndirir. Bu məsələ ilə bağlı münasibət bildirənlərin 41.70%-ni qadınlar təşkil edir. 28.1% dolanışıq səviyyələrini orta səviyyədən aşağı, 11.5% isə orta səviyyədən yuxarı qiymətləndirir.



Təqdim olunan məlumatlar, demoqrafik göstəricilər və ailə dinamikaları baxımından əhəmiyyətli nəticələr ortaya qoyur. Bu nəticələr əsasında Komitənin sosial siyasətlərini və proqramlarını inkişaf etdirmək üçün bir sıra strateji istiqamətlər müəyyən edilə bilər:

**•Qadınların iştirakı və sosial fəallıq**
Nəticələr qadınların sorğuda daha aktiv iştirak etdiyini və müxtəlif fəaliyyət sahələrində üstünlük təşkil etdiyini göstərir. Bu fakt qadınların sosial proqramlara marağını və daha geniş əhatəli gender bərabərliyi təşəbbüslərinin zəruriliyini vurğulayır.

**•Şəhər və kənd əraziləri arasındakı fərqliliklər**
Yaşayış yerləri üzrə fərqliliklər bölgələrdə sosial-iqtisadi inkişaf səviyyəsinin qeyri-bərabər olduğunu göstərir. Şəhər sakinləri arasında təhsil səviyyəsinin və məşğulluq imkanlarının daha yüksək olduğu görünür, lakin kənd əhalisi əsasən əlavə təsərrüfat fəaliyyətləri ilə məşğul olur.

**•Gənclər üzərində fokus**
Məlumatlar göstərir ki, gənc yaş qrupları (18-34 yaş) müxtəlif bölgələrdə fərqli sosial davranış nümunələri nümayiş etdirir. Bu, gənclərin ehtiyaclarının regional xüsusiyyətlərə görə dəyişə biləcəyini göstərir.

**•Əlavə təsərrüfat fəaliyyətlərinin potensialı**
Qadınların bağçılıq, məhsul satışı və heyvandarlıq kimi əlavə təsərrüfat fəaliyyətlərində üstünlük təşkil etməsi ailə gəlirlərinin əhəmiyyətli bir hissəsini təmin edir. Bu sahələrdə qadınların dominant rolu ailə büdcəsinə onların töhfəsini artırmağın yollarını araşdırmağı vacib edir.

**•Dolanışıq səviyyəsinin təkmilləşdirilməsi**
Dolanışıq səviyyəsini "orta səviyyədən aşağı" qiymətləndirən respondentlərin əhəmiyyətli faizi sosial bərabərliyin təmin olunmasında mövcud boşluqları göstərir. Əsasən kənd ərazilərində yaşayış standartlarını yaxşılaşdırmağa yönəlmiş xüsusi sosial müdafiə tədbirləri və yeni iqtisadi imkanlar yaradılması gündəmdə olmalıdır.

**•Təhsilin rolu**
Təhsil səviyyəsi, xüsusilə qadınlar arasında daha yüksək olsa da, təhsilsiz respondentlərin mövcudluğu təhsilə çıxışda hələ də bəzi maneələrin olduğunu göstərir. Təhsilsiz əhali üçün savadlılıq proqramları və ali təhsili təşviq etmək məqsədilə xüsusi təşəbbüslər hazırlanmalıdır.

“Ev təsərrüfatınızın başçısı kimdir?” sualına qadınların 15.4% i qadın, 43.94%-i isə kişi cavabını vermişdir.  Kişilərin isə 3.2%-i qadın, 37.44%-i kişi cavabını vermişdir. Ümumilikdə isə, respondentlərin 81%-i ev təsərrüfatının başçısının kişi olduğunu bildirmişdir. Ev və ya torpaq sahəsinin rəsmi sahibi kimi bütün respondentlərin 80.9%-i kişi cavabını vermişdir. Burada da kişi və qadınların cavabları oxşar bölgüdədir.







Bu göstəricilər cəmiyyətin patriarxal strukturunu əks etdirir. Bu struktur, qadınların iqtisadi resurslara və qərar qəbuletmə proseslərinə çıxışını məhdudlaşdırır. Bu baxımdan nəzərə alınması vacib olan amillər aşağıdakılar ola bilər:

- Qadınların mülkiyyət hüquqlarını gücləndirmək üçün hüquqi və ictimai maarifləndirmə kampaniyaları həyata keçirilməsi.

- Torpaq və mülkiyyət hüquqlarının qadınlar arasında bərabər paylanmasını təşviq edən proqramların hazırlanması.

“Kənd təsərrüfatı təyinatlı torpaqlar üzərində mülkiyyət və təminat hüququ olan ümumi kənd təsərrüfatı torpaqlarının sahibi kimdir?” sualına 72% respondent kişi, 16% qadın, 12% isə mülkiyyətlərinin olmadığı cavabını vermişdir. “Kişi” cavabını verən respondentlərin 38.8% qadın, 32.70% i isə kişidir. “Qadın” cavabı verənlərin isə 13.2% i qadın, 2.9% i kişidir. Ailənin əsasən kənd təsərrüfatı ilə bağlı olan resurslarının mülkiyyətçisi sualına respondentlərin 63%-i kişi, 15%-i qadın, 22%-i isə mülkiyyətin olmadığı cavabını qeyd etmişdir. Kişi cavabını verən respondentlərin 34.31% qadın, 28.87% i isə kişidir. Qadın cavab verənlərin isə 12.17%-i qadın, 3.12%-i kişidir.

Kənd təsərrüfatı ilə məşğul olan qadınların əməyinin iqtisadi baxımdan yetərincə tanınmaması və onların mülkiyyət hüquqlarının məhdud olması ailədaxili gender rollarının qeyri-bərabərliyini daha da dərinləşdirir.

Oxşar tendensiyalar qonşu ölkələr Gürcüstan və Ermənistanda da qeydə alınmışdır. Ermənistanda qadınların torpaq mülkiyyətinə məhdud çıxışı aşağıdakılarla izah olunur:

•**Reyestr praktikaları:** Torpaqların cinsindən asılı olmayaraq vətəndaşlara verilməsi nəzərdə tutulsa da, faktiki bölgü və qeydiyyat prosesi adətən "ailə/təsərrüfat başçıları" kimi müəyyən edilən şəxslər tərəfindən həyata keçirilir.

•**Patrilokal nikahlar:** Kənd yerlərində geniş yayılan patrilokal nikahlar gəlinlərin ərlərinin ailəsi ilə yaşadığı evliliklərdir. Bu ənənəvi nikah forması çərçivəsində qadınlar nə öz ailələrində, nə də ögey ailələrində torpaq mülkiyyəti hüquqlarına iddia etməyə meyilli deyillər, çünki bu, qarşıdurma kimi qiymətləndirilə bilər.

•**Vərəsəlik təcrübələri:** Torpaqların kişilərə, xüsusən də oğullara miras olaraq verilməsinə üstünlük verilir. Bu, patrilokal nikahlar kontekstində oğulların adətən ailə təsərrüfatlarını idarə etməsi gözləntiləri ilə əlaqələndirilir. Kənd icmaları, torpaq mütəxəssisləri və dövlət qulluqçuları arasında qadınların torpaq üzərində hüquqları barədə məhdud bilik mövcuddur.

•**Qadınların mülkiyyət hüquqlarının məhdudiyyətləri:** Qadınların torpaq üzərində mülkiyyət hüquqlarının məhdud istifadə edilməsi onların torpaqla bağlı qərar qəbul etmə, suvarma və təkmilləşdirmə xidmətlərinə, habelə kredit və sahibkarlıq üçün girov kimi resurslara çıxışını məhdudlaşdırır.[2]

Eləcə də Gürcüstanda yuxarıda sadalananlara əlavə olaraq, torpaq mülkiyyətinə reyestr məhdudiyyəti qadınların dövlət subsidiyalarına, regionlarda kredit və Qrant proqramlarına çıxışlarını, girov üçün torpaq sahələri olmadığına görə çətinləşdirir.[3]

**Kənd təsərrüfatı təyinatlı torpaqlar üzərində mülkiyyət və təminat hüququ olan ümumi kənd təsərrüfatı torpaqlarının sahibi**




**Ailənin əsasən kənd təsərrüfatı ilə bağlı olan resurslarının mülkiyyətçisi**




*Link 2*
*Link 3*

55.94% respondent binada su olmayan ev təsərrüfatları üçün su mənbəyinə qədər olan məsafənin 100 metrdən az olduğunu bildirmişdir. 26.76% respondent bu məsafənin 100-500 metr olduğunu qeyd etmişdir.

Su mənbələrinə məsafənin qısa olması bu işin daha çox kişilər tərəfindən görülməsini izah edə bilər. Lakin qadınların bu prosesdə hələ də böyük bir rol oynadığı nəzərə çarpır. FAO-nun Gürcüstan[4] və Ermənistanla[5] bağlı hesabatlarında, bu ölkələrdə əsasən kənd bölgələrində infrastrukturun qeyri-adekvat olması səbəbindən qadınlar və onların su gətirmə yükü ilə bağlı bir sıra məsələlər vurğulanır. Mərkəzləşdirilmiş su təchizatının olmadığı kənd yerlərində suyun daşınması ilk növbədə qadınların üzərinə düşür. Suya etibarlı çıxışın olmaması qadınları suyun gətirilməsi üçün xeyli vaxt sərf etməyə məcbur edir ki, bu da onların digər iqtisadi, təhsil və ya istirahət fəaliyyətləri ilə məşğul olmaq imkanlarını məhdudlaşdırır. Bu, onların "zaman yoxsulluğuna" gətirib çıxarır. Su gətirmək çox vaxt uzun məsafələrə ağır yüklərin daşınmasını, fiziki sağlamlıq risklərini və bəzi hallarda təhlükəsizlik problemlərini ehtiva edir. Zəif kənd infrastrukturu, o cümlədən suya məhdud çıxış qadınların iş yükünü birbaşa artırır.

**Ev təsərrüfatlarına su daşımağa məsul şəxs**




**Binada su olmayan ev təsərrüfatları üçün su mənbətinə qədər orta məsafə**




*Link 4*
*Link 5*

# İqlim dəyişikliyi və onun təsirlərinin təhlili

Bu bölmə əsasən iqlim dəyişikliyi barədə respondentlərin anlayışlarını, fikirlərini, narahatlıqlarını, iqlim dəyişikliyinin onların həyatlarına olan təsirlərini ölçmək məqsədilə hazırlanmışdır.

Respondentlərin 29.9%-i (25% kişi, 4.9% qadın) iqlim dəyişikliyi dedikdə ətraf mühit dəyişikliklərini (buzlaqların əriməsi, dəniz səviyyəsinin qalxması, səhralaşma, meşələrin qırılması və s.) başa düşür. 20.80%-i (17.20% qadın, 3.6% kişi) ekstremal hava hadisələri (qasırğalar, daşqınlar, quraqlıqlar, istilik dalğaları və s.),  16.20% (14.20% qadın, 2% kişi) uyğunlaşma və dayanıqlılıq (dayanıqlı kənd təsərrüfatı, bərpa olunan enerji, icma dəstək sistemləri, hökumət siyasəti və s.), 15.50% isə (13.4% qadın, 2.3% kişi) insan sağlamlığına təsirlər (artan xəstəliklər pis hava keyfiyyəti qida və su qıtlığı, psixi sağlamlıq stressi və s.) fikirləşir.

Qeyd olunan nəticələr iqlim dəyişikliyi ilə bağlı məlumatlılıq səviyyəsinin əsasən ümumi ətraf mühit təsirləri ilə məhdudlaşdığını, dayanıqlılıq və insan sağlamlığı kimi kompleks mövzulara dair məlumatlılığın isə artırılmalı olduğunu göstərir.

**Respondentlərin fikrincə "İqlim dəyişikliyi" nədir?**



Respondentlərin 73.6%-i bölgələrində hava şəraitində və ya iqlimlə əlaqəli hadisələr, və ya hansısa dəyişikliklər müşahidə etdiklərini vurğulamışdır. Onlardan 61.23%-i daha isti günlər, 18.58%-i qeyri-sabit yağışlar müşahidə etdiklərini qeyd etmişdir. 17.4% respondent bu cür müşahidələr edib etmədiklərinə əmin olmadıqlarını, 9% isə heç bir dəyişiklik müşahidə etmədiklərini qeyd etmişdir.

Müşahidə olunan dəyişikliklər, xüsusilə daha isti günlərin artması və yağışların qeyri-sabitliyi, bölgələrdə iqlim dəyişikliyinin təsirlərinin artıq nəzərə çarpan olduğunu göstərir. Əmin olmayan iştirakçılar arasında məlumatlılıq boşluğu və ya müşahidə meyarlarının aydın olmaması mümkündür.

**Son illərdə bölgənizdə hava şəraiti ilə və ya iqlimlə əlaqəli hadisələr, və ya hansısa dəyişikliklər müşahidə etmisinizmi?**




**Əgər "bəli" qeyd etmisinizsə, onda:**




34.2 % respondent müşahidə etdikləri iqlim dəyişiklikləri ilə bağlı çox narahat olduqlarını bildirir. Onlardan 26.6%-i kişilərdir. Qadın respondentlərin 19%-i orta dərəcədə narahat olduqlarını, 17.6%-i az dərəcədə, 15.10%-i isə qəti narahat olmadıqlarını bildirmişdir.

Qadınların və kişilərin narahatlıq səviyyəsindəki fərqlər, onların iqlim dəyişikliyinin fərdi təsirlərini necə qəbul etdikləri ilə bağlı ola bilər. Bu, həm də iqlim dəyişikliyinin fərqli qruplara olan təsirinin daha dərindən öyrənilməsini tələb edir.




Bu dəyişikliklərin yaratdığı təsirlərin yaşayış və dolanışıq vasitələrinə olan təsirləri ilə bağlı iştirakçılar əsasən iş yerlərinin itirilməsi (34.53%), kənd təsərrüfatı məhsuldarlığının azalması (24.92%), yaşayış xərclərinin artması (22.22%) və kənd yaşayış məntəqələrindən şəhərə miqrasiyanı (17.62%) nümunə göstərmişdir. Təhlil zamanı müəyyən edilmişdir ki, iqlim dəyişikliyinin dolanışıq vasitələrinə mənfi təsiri daha çox iş yerlərinin itirilməsi məsələsi kişi respondentlərin cavablarında özünü büruzə verir.

Respondentlərin əksəriyyəti iş yerlərinin itirilməsini iqlim dəyişikliyinin dolanışıq vasitələrinə mənfi təsiri kimi vurğulamışdır. Bu, iqlim dəyişikliyinə uyğunlaşmaq və ya dəyişən iqlim şəraiti ilə mübarizə aparmaq üçün iş sektorunda azalmaların baş verdiyini, insanların işlərini itirdiyini göstərir. Kişi respondentlərin bu məsələyə daha çox diqqət yetirməsi, ailədə əsas gəlir təmin edən şəxslərin adətən kişilər olması ilə əlaqələndirilə bilər, çünki iş itirmək onların ailə büdcəsinə və dolanışığına birbaşa təsir edir. Kənd təsərrüfatı sektoru iqlim dəyişikliklərinə xüsusilə həssasdır, çünki məhsuldarlıq hava şəraiti və su təchizatı ilə sıx bağlıdır. Mülayim hava şəraitinin pozulması, yağıntıların azalması və ya qeyri-mövsümi ekstremal hava hadisələri məhsuldarlığı aşağı salır, nəticədə kənd təsərrüfatı ilə məşğul olan ailələrin gəlirləri azalır və onların dolanışıq səviyyəsi pisləşir.

Kəndlərdə məhsuldarlığın azalması və dolanışıq imkanlarının azalması səbəbilə insanlar daha yaxşı iş imkanları üçün şəhərlərə köç etməyə başlayırlar. Bu miqrasiya kənd ərazilərində boşluqlar yaradır və şəhərlərdəki əhali sıxlığını artırır ki, bu da öz növbəsində şəhər resurslarına və sosial xidmətlərə olan tələbi yüksəldir.

**İqlimə əlaqəli təsirlərin yaşayış, xüsusən dolanışıq vasitələrinə təsiri**




İqlim dəyişikliyinin nəticəsində infrastruktura, xüsusən su, sanitariya və səhiyyə kimi infrastruktura birbaşa təsirləri kimi respondentlərin 33.8%-i (27.9% kişi, 5.9% qadın) içməli suya çıxışın məhdudlaşması infrastrukturun (yolların, müəssisələrin) zədələnməsini göstərmişlər. Bu cavabı verən qadınların ümumilikdə 79.66%-i şəhər ərazilərində, 20.34%-i isə kənd ərazilərində yaşayır. Yaş aralığı əsasən 25-34 (23.7%), 18-24 (18.64%) və 45-54-dir (16.95%).

31.4% respondent (27.7% qadın, 3.7% kişi) keyfiyyətli səhiyyə xidmətlərinə çıxışın məhdudlaşmasını qeyd edib. Burada cavab verən qadın respondentlərin 85.20%-i şəhərdə, 14.80%-i isə kənd ərazilərində yaşayır. Bu cavabı verən qadınlar 18-24 (18%), 25-34 (38.3%) və 35-44 (21.3%) yaşlarındadır.

Nəzər yetirdikdə qadınların seçimi daha çox səhiyyə xidmətlərini əhatə etmişdir (8.6% səhiyyə müəssisələrinin fiziki infrastrukturun dağılması və təchizat zəncirlərinin kəsilməsi, 17.7% elektrik kəsilməsi səhiyyə xidmətinin göstərilməsində fasilələr yaratmışdır). *"Elektrik kəsilməsi səhiyyə xidmətinin göstərilməsində fasilələr yaratmışdır"* cavabını seçən qadınların ümumilikdə 85.88%-i şəhərdə, 14.12%-i kənd/qəsəbələrdə yaşayır. Respondentlər əsasən 25-34 (37.29%) və 35-44 (20.9%) yaş aralığındadır.

Səhiyyə müəssisələrinin fiziki infrastrukturun dağılması və təchizat zəncirlərinin kəsilməsi cavabını qeyd edən qadın respondentlərin 52.33%-i şəhərlərdə, 47.67%-i kəndlərdə yaşayır. Bu cavabı verən qadın respondentlər əsasən 18-24 (46.51%) yaş aralığındadır.

İçməli suya çıxışla bağlı məhdudiyyətlər şəhər və kənd ərazilərində fərqli təsirlərə malikdir. Şəhər ərazilərində daha yüksək cavab faizləri su infrastrukturunun şəhərlərdə iqlim dəyişikliyi ilə daha tez zədələnə biləcəyini və ya əhalinin su təminatı ilə bağlı artan narahatlıqlarını göstərə bilər. Odur ki, su infrastrukturlarının dayanıqlılığını artırmaq və iqlim dəyişikliyinə uyğunlaşmanı təmin etmək üçün texniki təkmilləşdirmələr aparılmalıdır. Bundan əlavə, su ehtiyatlarının qorunması və şəhər ərazilərində bərabər paylanmasını təmin edən idarəetmə strategiyaları hazırlanmalıdır.

Səhiyyə xidmətlərində fasilələr və infrastrukturun zədələnməsi qadınların xüsusilə həssas qrupa aid olduğunu göstərir. Şəhər ərazilərindəki yüksək göstəricilər daha sıx məskunlaşmış ərazilərdə səhiyyə xidmətlərinin dayanıqlılığının artırılmasının vacibliyini vurğulayır.

**İqlim dəyişikliyinin nəticəsində infrastruktura, xüsusən su, sanitariya və səhiyyə kimi infrastuktura hansı təsirləri ilə birbaşa qarşılaşmısınız?**




Respondentlərin yarısı (51.75%) iqlim dəyişikliyinin təsirləri nəticəsində köçə məruz qaldıqlarını bildirmişlər. 34, 86% qadın şəxsi təcrübələrinə əsaslanaraq (34.86% qadın, 5.5% kişi) qadınların köçə daha çox həssas qrup olduğunu qeyd etmişdir. 22.02% yaşlıların, 14.68% uşaqların köçə daha çox həssas qrup olduğunu fikirləşir. 9.17% iştirakçı (6.42% qadın, 2.75% kişi) kişilərin köçə daha çox həssas qrup olduğu qənaətindədir.

**İqlim dəyişikliyi təsirləri nəticəsində yaşadığınız yerdən köçə məruz qalmısınızmı ?**




**Əgər "bəli" qeyd etmisinizsə, onda Sizin təcrübənizdə əhlinin hansı qrupları köçə daha çox həssasdırlar?**



Respondentlərdən 34.31% (21.17% qadın, 13.14% kişi) qadınlar və uşaqların miqrasiya zamanı sığınacaqlarda olan məhdud imkanlarla üz-üzə qaldıqlarını bildirmişlər. Onlardan, cavab verən qadınların 75.86%-i şəhər, 24.14%-i kəndlərdə yaşayır. Burada qadınların əsas yaş bölgüsü 18-24 (34.48%) və 25-34 (34.48%) yaşlarındadır.

Respondentlərin 31.39%-i (21.9% qadın, 9.49% kişi) təhsil, məşğulluq, mənzil və səhiyyə xidmətlərindən məhrum olduqlarını bildirmişdir. Bu cavabı verən qadınların 80%-i şəhər, 20%-i isə kənd/qəsəbələrdə yaşayır. Burada qadınların əsas yaş bölgüsü 18-24 (33.33%) və 25-34 (33.33%) yaşlarındadır.

30.66% iştirakçı (18.98% qadın, 11.68% kişi) əsas ehtiyaclara və resurslara məhdud çıxışlarının olduğunu bildirmişlər. Bu cavabı verən qadın respondentlərin 76.92%-i şəhər, 23.08% kənd tipli bölgələrdəndir. Bundan əlavə bu cavabı verən qadınların əksəriyyəti (38.46%) 25-34 yaş aralığındadır.

Eyni məkanda kişilərlə birlikdə yaşamaqdan yaranan narahatlıq və yalnız qadınlar üçün sanitar qovşağın və hamamın olmaması kimi problemlərin respondentlər (qadınlar) üçün digərləri qədər əhəmiyyətli olmadığı nəzərə çarpır.

Qeyd olunan məhdud imkanlar qadınlar və uşaqların təhlükəsizlik, məxfilik və rahatlıq ehtiyaclarını təmin etməkdə çatışmazlıqları əks etdirir. Şəhər bölgələrində daha yüksək faiz, ehtimal ki, bu ərazilərdə məcburi köçə məruz qalanların və sığınacaqlardan istifadə edənlərin sayının çox olması ilə əlaqəlidir. Əsas ehtiyaclara çıxışın məhdudluğu, xüsusilə miqrasiya prosesində, qadınların və ailələrin həyat keyfiyyətinə birbaşa təsir edir. Təhsil və məşğulluq imkanlarının məhdudluğu, xüsusilə gənc qadınlar üçün sosial inteqrasiyanın və iqtisadi müstəqilliyin təmin edilməsində ciddi maneədir. Qadınların kişilərlər eyni məkanda yaşamaq və yalnız qadınları üçün sanitar qovşağın olmaması kimi problemin nisbətən az vurğulanması, respondentlərin digər çətinlikləri (məsələn, xidmətlərə çıxış və sığınacaqlardakı imkanlar) daha prioritet hesab etməsindən qaynaqlana bilər.

**Qadınlar və uşaqlar miqrasiya zamanı hansı təsirlərlə üz-üzə qalmışdılar**



Sorğu iştirakçılarının 48.7%-i (29.9% qadın, 18.8% kişi) iqlim dəyişikliyi və ekstremal hava şəraitinin təsərrüfatlara (məhsul hasilatı, su təminatı, heyvanların sağlamlığı) birbaşa təsiri kimi azalmış məhsuldarlığı göstərmişdir. 35.4% (20.3% qadın, 15.1% kişi) isə gəlir azalması müşahidə etdiklərini bildirmişdir. 26.2% (15.5% qadın, 10.7% kişi) daha çox suyun mövcud olduğunu, 15.4% (9.6% qadın 5.8% kişi) isə torpaq eroziyası, torpaq münbitliyinin azalmasını qeyd etmişdir.

**İqlim dəyişikliyi və ekstrimal hava şəraiti təsərrüfatınıza birbaşa (məhsul hasilatı, su təminatı, heyvanların sağlamlığı) təsir edib? Edibsə necə?**




İqlim dəyişikliklərinin məişət və istehsal işləri üçün istifadə olunan suyun mövcudluğu və əlçatanlığına təsir edərək şirin su mənbələrinə təsirlərindən hansılarının onları birbaşa əhatə etməsi ilə bağlı olaraq respondentlərin 46%i (13.54% qadın, 32.5% kişi) suvarma mənbəyində suyun mövcudluğunun azalmasını bildirmişdir. Cavab verən qadınların 55.88%-i şəhər, 44.12%-i kəndlərdə yaşadıqlarını bildirmişdir. Həmçinin bu cavabı verən 41.18% qadın respondent 18-24, 15.44% qadın isə 25-34 yaş qrupuna aiddir.

33.9% respondent (28.18% qadın, 5.12% kişi) içməli suya adekvat çıxışlarının olmamasını bildirmişlər. Burada qadınlar arasında çoxluq təşkil edən yaş qrupları 25-34 (39.86%), 35-44 (22.78%) və 18-24-dür (16.01%). Qadınların 86.48%-i rayon mərkəzi/şəhər, 13.52%-i isə kənd/qəsəbə bölgələrində yaşadıqlarını bildirmişdir.

20.56% (17.35% qadın, 3.21% kişi) respondent suyun toplanması, saxlanması, mühafizəsi və paylanması üçün sərf olunan əməyin ümumi miqdarının artmasını bildirmişdir. Burada qadınlar arasında çoxluq təşkil edən yaş qrupları 25-34 (36.78%), 35-44 (20.69%) və 18-24-dür (14.37%). Qadınların 88.51%-i rayon mərkəzi/şəhər, 11.49%-isə kənd/qəsəbə bölgələrində yaşadıqlarını bildirmişdir.

*Suvarma mənbələrinin azalması iqlim dəyişikliklərinin kənd təsərrüfatına birbaşa təsir etdiyini göstərir, çünki suvarma su mənbələri kənd təsərrüfatı üçün kritik əhəmiyyət daşıyır. Qadınların suvarma ilə bağlı məlumatlarında yaş qruplarına görə fərqlər müşahidə olunur; bu, kənd və şəhər yerlərində yaşayanların fərqli təcrübələrini əks etdirə bilər. İçməli suya adekvat çıxış imkanlarının şəhər və rayon mərkəzlərində daha çox məhdud olması diqqətəlayiqdir. Kənd yerlərində yaşayan respondentlər arasında su əlçatanlığı ilə bağlı çətinliklərin nisbətən az olması maraqlıdır. Bununla belə, suyun saxlanması və paylanması ilə bağlı əmək yükünün artması, xüsusilə qadınlar arasında daha çox hiss olunur. Bu, suyun idarə edilməsində qadınların daha fəal iştirak etdiyini göstərir və əsasən şəhər yerlərində yaşayan qadınlar üçün bu məsələ daha vacib əhəmiyyət kəsb edir.*

**İqlim dəyişikliyi məişət və istehsal işləri üçün istifadə olunan suyun mövcudluğu və əlçatanlığına təsir edərək şirin su mənbələrinə əhəmiyyətli təsir göstərir. Hansı təsirlər sizi birbaşa əhatə etmişdir?**




İqlim dəyişikliyinin ailələrin iqtisadi və sosial həyatına (ailənin gələcək planlarına) təsiri ilə bağlı, respondentlərin 40.4%-i (10.6% qadın, 29.8% kişi) əmək məhsuldarlığının azalması cavabını vermişdir. Onlardan cavab verən qadınların 48.11%-i şəhər, 51.89%-i isə kəndlərdə yaşayır. Onların 50.94%-i 18-24, 14.15%-i isə 25-34 yaş aralığındadır.

23.5% respondent (17.7% qadın, 5.8% kişi) maliyyə qeyri-sabitliyi təsiri ilə üz-üzə qaldıqlarını bildirmişdir. Bu cavabı seçən qadın respondentlərin 85.88%-i şəhərlərdə, 14.12%-i isə kəndlərdə yaşayır. Qadın respondentlərin 32.2%-i 25-34, 19.21%-i 18-24, 17.51%-i isə 35-44 yaşlarındadır.

Kişilərin aşağı məşğulluq səbəbindən böyük şəhərlərə miqrasiyası cavabını 21.9% (17.7% qadın, 4.2% kişi) respondent seçmişdir. Onlardan qadınların 87.01%-i şəhər-qəsəbə (və ya rayon mərkəzlərində) 12.99%-i isə kənd ərazilərində yaşadıqlarını qeyd etmişdir. Bu cavabı verən qadınların yaş bölgüsü 37.85% 25-34 yaşlarında və 24.86%-i isə 35-44 yaşlarındadır.

Son olaraq, 12.9% qadın İqlim dəyişikliyinin ailələrin iqtisadi və sosial həyatına (ailənin gələcək planlarına) təsiri ilə bağlı, Ailənin şəhər ərazilərinə məcburi köçü nəticəsində uşaqların təhsildən kənar qalması və yaxud təhsilində fasilələrin yaranması seçimini etmişdir. Onlardan 43.41%-i 25-34 yaşlarında, 22.48%-i 35-44 yaşlarındadır. Həmçinin bu cavabı verən qadın respondentlərin 87.60%-i şəhər/rayon mərkəzlərində, 12.40%-i isə kənd və ya qəsəbələrdə yaşadıqlarını qeyd etmişdir.

Əldə olunan nəticələrdən belə bir qənaətə gəlmək olar ki, iqlim dəyişikliyi kənd təsərrüfatı istehsalında məhsuldarlığın azalmasına səbəb olaraq ailələrin gəlirlərini məhdudlaşdırır. Beləliklə, məhz gənc nəsillərin iqtisadi sistemdən təcrid olunma təhlükəsi ilə üzləşmə halları artır. Qadınlar, xüsusən şəhər yerlərində yaşayanlar, iqlim dəyişikliyinin yaratdığı maliyyə qeyri-sabitliyi səbəbindən iqtisadi asılılıq və işsizlik riskləri ilə qarşılaşırlar. Kişilərin miqrasiyası ailələrin strukturunda dəyişikliklərə səbəb olur, qadınların daha çox məsuliyyət daşımasına və iqtisadi asılılığın artmasına gətirib çıxarır. Sözügedən məsələ ailədaxili sosial əlaqələrdə də çətinliklər yaradır. İqlim dəyişikliyi məcburi köçlərə və sosial infrastrukturların pozulmasına səbəb olur. Bu, əsasən təhsil sahəsində fasilələr və uşaqların məktəbdən uzaqlaşması ilə nəticələnir, gələcək nəsillərin bilik və bacarıqlarına mənfi təsir edir.

**Sizcə iqlim dəyişikliyi ailənizin iqtisadi və sosial həyatına (ailənin gələcək planlarına) necə təsir edə bilər?**



## İqlim dəyişikliyi və gender-spesifik təsirlər

Sorğunun bu bölməsində respondentlərə gender spesifik suallar verilməklə iqlim dəyişikliyinin xüsusilə qadınlar üçün yaratdığı çətinliklərin müşahidə edilməsi və ölçülməsi nəzərdə tutulmuşdur.

İqlim dəyişikliyi nəticəsində respondentlərin yarıdan çoxu (56.87% (21.63% qadın, 35.24% kişi) su ilə bağlı məsuliyyətlərin (məsələn, suya çıxış, suyun toplanılması və saxlanması, su qıtlığı, suyun azalması, içməli suya adekvat çıxışın olmaması və s.) artdığını bildirmişdir. 18.83% (16.54% qadın, 2.29% kişi) respondent maliyyə ilə bağlı problemlərin (məsələn, maliyyə qeyri sabitliyi, ailə maliyyəsinə kömək etmək və s.) artdığını qeyd edirlər. 22.26% (17.43% qadın, 4.83% kişi) respondent iş yükünün (bir çox işdə işləyib gəliri tənzimləmək, başqa ərazilərdə heyvan və yaxud əkin becərmək, digər şəhərlərdən su gətirmək, əlavə işlərin çoxalması və s.) artdığını bildirmişdir.

**İqlim dəyişikliyi nəticəsində yuxarıda sadalanan (23 və 24-cü suala baxın) təsirlərin hansıları qadınların üzərində olan məsuliyyətin artmasına səbəb olmuşdur?**




Burada vurğulanmalı olan bir neçə məqam var. Kişilər su ilə bağlı məsuliyyətin artmasını daha çox qeyd etmişdir, bu da kişilərin daha çox iri miqyaslı kənd təsərrüfatı və heyvandarlıq kimi gəlir gətirən işlərdə çalışmasını göstərə bilər. Qadınlar isə ənənəvi olaraq yemək hazırlamaq, təmizlik və kiçik miqyaslı kənd təsərrüfatı kimi müəyyən reproduktiv fəaliyyətlər üçün suyun əsas istifadəçiləridir. Qadınların su ilə bağlı daha çox yük çəkməsi, xüsusilə suyun toplanması və saxlanması prosesində iştiraklarının yüksək olmasını əks etdirir. Qadınların kənar mənbələrdən su toplamağa sərf etdikləri vaxt, onların təhsilinə və maddi gəlir əldə etmə imkanlarına mane olur ki, bu da yoxsulluq riskini artırır. İqlim dəyişikliyinin yaratdığı resurs çatışmazlığı və artan iqtisadi tələblər xüsusilə qadınlar üçün əlavə məsuliyyətlər yaradır. Qadınların ailə maliyyəsinə dəstək olmaq məcburiyyətində qalması onların qeyri-sabit iqtisadi şəraitdən daha çox təsirləndiyini aydın şəkildə göstərir.

İqlim dəyişikliyinin yaratdığı sosial-iqtisadi çətinliklərin, xüsusilə qadın və qızlara müxtəlif formalarda təsirləri barədə 27.7% respondent maliyyə və iqtisadi şoklara davamlılıq cavabını seçmişdir. Bu cavabı seçənlərdə kişilərin üstünlük təşkil etdiyini görmək olur. Eyni suala cavab olaraq qadınların 16.67%-i iş yükünün və uşaq baxımına sərf olunan vaxtın artması cavabını seçmişdir. Onlardan 83.13%-i şəhər ərazilərində, 16.87% isə kənd ərazilərində yaşadıqlarını qeyd etmişdir. Bu seçimi edən qadınların 37.35%-i 25-34 yaşlarında, 18.67%-i 35-44, 18.07%-i isə 18-24 yaşlarındadırlar.

12.85% qadın resurslara qeyri-bərabər çıxışın olmasını iqlim dəyişikliyinin yaratdığı sosial-iqtisadi çətinlik kimi bildirmişdir. Onlardan 89.06%-i şəhərlərdə, 10.94%-isə kəndlərdə yaşayır. Bu qadınların 42.19%-i 25-34, 21.88%-i 35-44, 19.53%i isə 18-24 yaş qrupuna aiddirlər.

12.55% qadın onların ənənəvi işlərə çıxışlarının azalmasını qeyd etmişdir. Onlardan 88% şəhər tipli yaşayış məntəqələrdə 12% isə kənd yaşayış məntəqələrində cəmləşib, və əsasən 25-34 (42.4%) və 35-44 (29.6%) yaşlarındadırlar.
Qadınların 9.74%-i isə kişilərin ailə üzvlərini qazanc məqsədi ilə tərk etdikləri üçün qadının üçlü iş yükünün artması seçimini etmişdir. Onların 49.48%-i şəhər tipli yaşayış məntəqələrində, 50.52%-i isə kənd yaşayış məntəqələrində yaşayır, əksəriyyət (48.45%) 18-24 yaşlarındadır.

**İqlim dəyişikliyinin yaratdığı sosial-iqtisadi çətinliklərin xüsusilə qadın və qızlara təsirləri fərqlidir. Sizin təcrübənizə görə bu çətinliklər qadın və qızlara hansı formada daha çox təsir edə bilər?**



27.54% (25.33% kişi, 2.21% qadın) respondent ailələrində iqlim dəyişikliyinin yaratdığı nəticələrin təsirində qadınların təcrübəli həkimlərə baş çəkmək / tibbi yardım axtarmaq üçün gözləmə müddətlərinin artmasını müşayiət etdiklərini bildirmişdir. 20.81% (17.09% qadın, 3.72% kişi) respondent su toplamaq üçün sərf olunan vaxtın artmasını qeyd etmişdir. Onlardan qadınların 81.76%-i şəhərlərdə, 18.24%-i kəndlərdə yaşayır. Qadınlar arasında əsas 25-34 (34.71%) yaş qrupu üstünlük təşkil edir. 26.47% 35-44 yaş aralığındadır. 17.06% qadın 18-24 yaşlarındadır.

17.69% (14.37% qadın, 3.32% kişi) respondent ev işlərinə sərf olunan vaxt artımını (təmizlik, yemək hazırlamaq, ev üçün alış-veriş) iqlim dəyişikliyinin təsiri kimi bildirmişdir. Onlardan qadınların 38.46%-i 25-34 , 20.28% 18-24, 19.58% 35-44 yaşlarındadır. 84.62% qadın şəhərlərdə, 15.38% kəndlərdə yaşayır.

14.28% respondent (13.17% qadın, 1.11% kişi) qadınların zorakılığa məruz qalma riskinin artdığını müşayiət etmişdir. Onlardan cavab verən qadınların 87.02%-i şəhər ərazilərində, 12.98%-i kənd ərazilərində yaşayır. Burada qadınların əksəriyyəti (42.75%) 25-34 yaş qrupundadır. 21.37% isə 35-44 yaş qrupuna aiddir.

Belə bir qənaətə gəlmək olar ki, sağlamlıq xidmətlərində gecikmələr, iqlim dəyişikliyi ilə bağlı infrastrukturdakı problemlər və ya resurs çatışmazlığından qaynaqlana bilər. Bu, xüsusən qadınların təcili tibbi xidmətlərə çıxışını daha da çətinləşdirir. Su resurslarına çıxışın məhdudlaşdırılması qadınların gündəlik həyatına əlavə yük yaradır, onların təhsil, məşğulluq və şəxsi inkişaf imkanlarını məhdudlaşdıra bilər.

İqlim dəyişikliyi ilə bağlı çətinliklər ev təsərrüfatlarının idarə olunmasında əlavə vaxt itkisinə səbəb olur. Bu, qadınların şəxsi və peşəkar inkişaflarına daha az vaxt ayıra bilmələrinə gətirib çıxarır. İqlim dəyişikliyi ilə bağlı məcburi köçlər, resurs çatışmazlığı və sosial-iqtisadi qeyri-sabitlik qadınların zorakılıq riskini artıra bilər.

***İqlim dəyişikliyi nəticəsində ailənizin qadın üzvləri aşağıdakı nəticələrdən hər hansı bir hal ilə rastlaşmışdırmı?***




İqlim dəyişikliyinin nəticəsində məişət zorakılığı hallarının baş verməsi barədə 30.82% (27.31% qadın, 3.51% kişi) respondent bu halların uşaqların məcburi əməyə cəlb edilməsi zamanı ailə münaqişəsi zamanı baş verdiyini bildirmişdir. Onlardan, bu cavabı verən qadınların 87.87%-i şəhər tipli bölgələrdə, 12.13%-i isə kəndlərdə yaşayır. Həmin qadınların 42.28%-i 25-34, 23.53%-i 35-44 yaşlarındadır.

26.91% respondent (20.58% qadın, 6.33% kişi) əmlak və yaşayış vasitələrinin itirilməsi hallarında zorakılıq hadisələrinin baş verdiyini deyir. Onlardan qadınların 71.71%-i şəhərlərdə, 28.29%-i kəndlərdə yaşayır. Burada qadınların əsas yaş qrupları 18-24 və 25-34 yaşlardır (hər biri 31.22%). 35-44 yaş qrupu qadınların 18.05%-ni təşkil edir.

27.51% (24.90% kişi,2.61% qadın) yoxsulluq içində yaşayan qadınların daha çox zərər gördüyü qənaətindədir. Bu cavabı verən qadınların (26 nəfər) 76.92%-i şəhərlərdə, 23.08%-i kəndlərdə yaşayır. Əsas yaş bölgüsü 45-54 yaşlarıdır (38.46%). 19.23% 18-24 yaşlarındadır.

Bu sadalanan amillərin nəticəsi olaraq 43.97% (35.34% qadın, 8.03% kişi) respondent qadınlara qarşı fiziki zorakılığı müşahidə etdiklərini deyir. 35.94% (7.83% qadın, 28.11% kişi) respondent iqtisadi zorakılıq, 19.88% (15.26% qadın, 4.62% kişi) isə psixoloji zorakılıq müşahidə etmişdir.

Uşaqların məcburi əməyə cəlb edilməsi ailələrdə iqtisadi təzyiq və ailədaxili münaqişələrin artmasına səbəb ola bilər. Bu hallar da öz növbədsində qadınların və uşaqların daha çox zərər çəkməsinə gətirib çıxara bilər. Bundan əlavə, iqlim dəyişikliyi nəticəsində əmlak və yaşayış vasitələrinin itirilməsi qadınların sosial və iqtisadi təhlükəsizliyini zəiflədir. Bu, ailə daxilində gərginliklərin artmasına və zorakılıq hallarının meydana gəlməsinə səbəb olur.

Yoxsulluq qadınların sosial dəstək mexanizmlərinə çıxışını məhdudlaşdırır və onların zorakılığa qarşı müdafiə olunmasını çətinləşdirir. Yaşlı qadınlar bu təsirlərə xüsusilə həssasdır.

İqlim dəyişikliyinin yaratdığı iqtisadi və sosial təzyiqlər qadınlara qarşı zorakılığın müxtəlif formalarının artmasına səbəb olur. Fiziki zorakılıq daha geniş yayılmış olsa da, iqtisadi və psixoloji zorakılıq qadınların uzunmüddətli rifahına eyni dərəcədə mənfi təsir göstərir.

**İqlim dəyişikliyinin nəticəsi olaraq məişət zorakılığı halları hansı hallarda baş verdiyini müşahidə etmisiniz?**




**Yuxarıda sadalanan amillərin nəticəsi olaraq ən çox qadına qarşı zorakılıq halının hansı növünü müşahidə etmisiniz?**




30.29% (25.78% kişi, 4.51% qadın) respondent iqlim dəyişikliyi nəticəsində qadınların sağlamlığı ilə bağlı təsirlərdən astma və digər tənəffüs problemlərinin şahidi olduqlarını bildirmişdir. 15.75% (12.94% qadın, 2.81% kişi) ürək-damar xəstəliklərinin, 14.54% (13.54% qadın,1% kişi) uşağın aşağı doğum çəkisi ilə dünyaya gəlməsi, 12.84% (12.04% qadın, 0.80% kişi) vaxtından əvvəl doğuşu müşahidə etdiklərini bildirmişdir. 14.05% (8.53% qadın, 5.52% kişi) narahatçılıq, depressiya və posttravmatik stress pozğunluğunun yüksək səviyyəsinin şahidi olmuşdur.

**İqlim dəyişikliyi halları (havanın çirklənməsi və istiliyə məruz qalma) qadınların sağlamlığı ilə bağlı bəzi ağırlaşmalarla əlaqələndirilir. Bununla bağlı nə kimi təsirlərin şahidi olmusunuz?**




Fəlakət riski məlumatlarına çıxışla bağlı iştirakçıların 35.68%-i (27.04% kişi, 8.64% qadın) məlumatların bir qədər əlçatan olduğunu deyir. 28.75% (25.73% qadın, 3.02% kişi) isə məlumatların geniş şəkildə əlçatan olduğunu qeyd etmişdir. Bu cavabı verən qadınların 89.09%-i şəhərdə yaşayır. Onlardan 35.56% 25-34 , 21.19% 18-24, 19.49% isə 35-44 yaşları aralığındadırlar. 27.24% (20.10% qadın, 7.14% kişi) respondent məlumatların əlçatanlığına əmin olmadıqlarını bildirmişdir. Əldə olunan məlumatların faydalılıq dərəcəsinə isə 47.90% (19.68% qadın, 27.41% kişi) məlumatların bir qədər faydalı olduğunu bildirmişdir. 16.97% (14.66% qadın, 2.31% kişi) məlumatların çox faydalı olduğunu, 29.22% (21.29% qadın, 7.93% kişi) isə bundan əmin olmadıqlarını qeyd etmişdir.

**Əhalinin xüsusi ilə qadınların hər hansı fəlakət riski məlumatlarına çıxışı varmı və bu nə dərəcədə əlçatandır?**



**Əhalinin xüsusi ilə qadınların hər hansı fəlakət riski məlumatlarına çıxışı varmı və bu nə dərəcədə faydalıdır?**




“İqlim dəyişikliyinin təsirləri ilə bağlı qadınların dolanışıq vasitələrinə dəyən zərərlər və şoklarla mübarizə aparmaq üçün hazırda dövlətin təqdim etdiyi dövlət proqramları ilə bağlı məlumatlısınızmı?” sualına 49.95% respondent bəli cavabını vermişdir. Onlardan 42.93%-i qadın, 7.02%-i isə kişidir. Bəli cavabını verən qadınların 85.28%-i şəhər, 14.72%-i isə kənddə yaşayır. Xeyr cavabını verən 50.05% respondentin isə 33.7%-i kişilər, 16.35%-i qadınlar təşkil edir. Onlardan qadınların 66.87%-i şəhərdə, 33.13%-i kənddə yaşayır.

39.24% respondent (31.93% qadın, 7.31% kişi) fəlakətə hazırlıqla bağlı məlumatları əsasən internet üzərindən əldə etdiklərini bildirmişdir. Onlardan qadınların 85.27%-i şəhər tipli ərazilərdə yaşadıqlarını bildirmişdir. Bu cavabı verən qadınlar əsasən 18-24 (20.38%) və 25-34 (34.80%) yaş qruplarına aiddir.

25.83% respondent (20.12% qadın, 5.71% kişi) məlumatları icma vasitəsi ilə aldıqlarını qeyd edib. Onlardan qadınların 76.12%-i şəhər, 23.88%-i kəndlərdə yaşayır. Bu respondentlərin əksəriyyəti 18-24 (21.89%),25-34 (35.82%) və 35-44 (23.88%) yaş qruplarına aiddir.

Respondentlərin 29.53%-i (25.23% kişi, 4.3% qadın) məlumatları Radio-TV vasitəsi ilə əldə etdiklərini qeyd etmişdir.

FAO-nun Ermənistan[6(a)] və Gürcüstan[6(b)] hesabatlarına əsasən kənd (icma) informasiya xidmətləri əsas məlumat mənbələri kimi vurğulanır, lakin stereotiplər, maddi-texniki problemlər və ünsiyyət qərəzləri səbəbindən qadınlar üçün çox vaxt əlçatan olmur. Qadınların kommunikasiya şəbəkələrinə və fəlakətlərə hazırlıq və kənd təsərrüfatı problemləri ilə bağlı təlim imkanlarına əlçatanlığı azdır. Fokus qrupları aşkar etdi ki, qadınlar tez-tez məlumat üçün təlim və ya məsləhət mərkəzləri kimi rəsmi kanallardan daha çox dostlar və ya qonşular kimi qeyri-rəsmi şəbəkələrə etibar edirlər. Televiziya ümumi məlumatın əsas mənbəyi kimi qeyd edilib, lakin xüsusi olaraq fəlakətlərə hazırlıq üçün yararlı deyil.

**İqlim dəyişikliyinin təsirləri ilə bağlı qadınların dolanışıq vasitələrinə dəyən zərərlər və şoklarla mübarizə aparmaq üçün hazırda dövlətin təqdim etdiyi dövlət proqramları ilə bağlı məlumatlısınızmı, və yaxud istifadə etmisinizmi**




**Qadınlarfəlakətə hazırlıqla bağlı məlumatları hansı vasitələrlə əldə edirlər?**




Qadınların iqlim dəyişikliyinə uyğunlaşma və fəlakətlərə hazırlıqla bağlı bilik və bacarıqların əldə edilməsində çətinlikləri ilə bağlı qadın respondentlər əsasən maliyyə çatışmazlığını (16,02%), sosial-mədəni normaların yaratdığı maneələri (15,92%), institusional məhdudiyyətləri (13,91%), texnologiya və yoxsulluğu və resurslara çıxış (8,21%) cavabları qeyd etmişdir. Burada, maliyyə çatışmamazlığı, sosial-mədəni normaların yaratdığı əngəllər və institusional məhdudiyyətlər kimi amilləri seçən qadınların 80% dən çoxu şəhər və şəhəryanı qəsəbələrdə yaşayır. Burada əsas çoxluq 25-34 yaş qruplarındadır. Texnologiya və resurslara çıxışın zəif olması cavabını qeyd edən qadın respondentlərin 59.76%-i kəndlərdə yaşayır. Burada 18-24 yaşlı qadınlar üstünlük təşkil edir.

Respondentlərdən 33.04%-i (26.63% kişi, 6.41% qadın) bu çətinliklərin fərdi bilik boşluqları ilə əlaqəli olduğu qənaətindədir.

*Link 6(a)*
*Link 6(b)*

**Qadınların iqlim dəyişikliyinə uyğunlaşmaq və fəlakətlərə hazırlıqla bağlı bilgi və bacarıqları əldə etməkdə hansı çətinlikləri var?**




Dövlət qurumları, icmalar və ya digər maraqlı tərəflərə iqlim dəyişikliyi ilə bağlı problemlərin daha effektiv şəkildə həll edilməsi ilə bağlı təkliflərə qadın respondentlərin çoxu qadınların ehtiyaclarını və perspektivlərini nəzərə alan profilaktik yanaşmaların hazırlanması (21.34%), qərar qəbul etmə proseslərinin bütün səviyyələrində qadınların iştirakını və təmsilçiliyini artırılmasının vacibliyini (15.73%), və aidiyyəti təşkilatların daxilində potensialın gücləndirilməsi (14.03%) təklifləri ilə razılaşırlar. Ümumi nəticələrə əsasən kişi respondentlərin 30.66%-i iqlim dəyişikliyi ilə bağlı problemlərin daha effektiv həll edilməsi ilə bağlı yerli qadın qruplarının bacarıqlarını inkişaf etdirilməsinin əhəmiyyətinin  və qadınların platforma ilə təmin edilməsinin vacibliyini qeyd etmişdir.

**Dövlət qurumları, icmalar və ya digər maraqlı tərəflərə iqlim dəyişikliyi ilə bağlı problemlərin daha effektiv şəkildə həll edilməsi ilə bağlı hər hansı təklifləriniz varmi?**



## Cavab mexanizmləri və davamlılıq

Bu bölmədə respondentlərin iqlim dəyişikliyi ilə fərdi və kollektiv mübarizə mexanizmlərini, görülən tədbirlərin əlçatanlığını, təhlil etmək məqsədilə aparılmışdır.

Respondentlərin 47.14% iqlim dəyişikliyinin təsirləri ilə mübarizə aparmaq üçün hər hansı bir tədbir görmədiklərini bəyan etmişdir. 25.78% bundan əmin olmadıqlarını bildirmişdir. 27.08% (19.96% qadın, 7.12% kişi, 270 nəfər) respondentlərdən 47.83%-i (35.97% qadın, 11.86% kişi) suya qənaət etmək üçün tədbirlər gördüklərini qeyd etmişdir. 25.69% (19.76% qadın, 5.93%) əkin üçün daha davamlı toxumlardan istifadə etdiklərini, 16.60% (13.04% qadın, 3.56% kişi) Ev təsərrüfatlarında iqlimə davamlı kənd təsərrüfatı təcrübələrindən istifadə etdiklərini bildirmişdir.






48.35% (20.52% qadın, 27.83% kişi) respondent İş yerlərində və ya ev təsərrüfatlarında ekoloji texnologiya və təcrübə kimi ətraf mühitin mühafizəsi və təbii ehtiyatların mühafizəsi (bioloji müxtəlifliyin, suyun, landşaftların, meşələrin və s. mühafizəsi kimi) təcrübələrindən istifadə etdiklərini bildirmişlər. 36.84% (30.83% qadın, 6% kişi) respondent enerji və su səmərəliyi (su sızmasının azaldılması, suyun təkrar emalı, yağış sularının yığılması) təcrübələrindən istifadə edirlər.

**İş yerinizdə və ya ev təsərrüfatınızda qeyd olunan ekoloji texnologiya və təcrübələrdən hansından istifadə etmisinizmi?**




35.14% (7.33% qadın, 27.81% kişi) respondent mülkiyyətlərində olan ev və torpaq sahələrini sığortaladıqlarını bildirmişdir. Qadın respondentlərdən 29.12% əmlaklarına dəyən ziyanı şəxsi hesabları ilə qarşıladıqlarını, 22.59% Dövlət qurumlarından, QHT-lərdən və ya digər təşkilatlardan hər hansı dəstək aldıqlarını qeyd etmişdir. Nəticələrə əsaslanaraq qadın Respondentlərin arasında təsirlərin öhdəsindən gəlmək üçün kənd qadınları tərəfindən istifadə olunan davamlılıq mexanizmləri, (ekoloji texnologiya və təcrübələrin, eləcə də su və enerji səmərəliyi tədbirlərinin tətbiqi) qadınlar kişilərə nisbətdə daha çox diqqət yetirir. Lakin əmlakın qorunması və sığortalanması məsələsində kişilər daha aktivdir, qadınlar isə əmlaklarına dəyən ziyanı şəxsi vəsaitləri ilə qarşılamağa üstünlük verirlər. Bu, ekoloji təcrübələrin artmasına baxmayaraq, maliyyə və resurslar baxımından qadınların daha həssas durumda olduğunu göstərə bilər. Kənd yerlərində qadınlar bəzən müasir maliyyə mexanizmləri (məsələn, sığorta və əmlak qoruma vasitələri) və davamlılıq tədbirləri haqqında kifayət qədər məlumat əldə edə bilmirlər. Bu məlumatsızlıq onların iqlim dəyişikliyi ilə əlaqədar risklərdən qorunmaq üçün yetərli tədbirlər görməməsinə və şəxsi vəsaitlərindən istifadə etməyə üstünlük verməsinə də səbəb ola bilər.

**İqlim dəyişikliyinin nəticəsində ailələr, xüsusilə də qadınlar əmlaklarını necə qoruyurlar?**




## Sorğudan əldə edilən əsas nəticələr

Əhali arasında iqlim dəyişikliyinin təsirlərinin təhlili göstərir ki, respondentlərin əksəriyyəti öz həyatlarına, yaşayış və dolanışıq vasitələrinə və ümumi sosial-iqtisadi şəraitə iqlim dəyişikliyinin əhəmiyyətli təsir göstərdiyini bildirirlər.

**İqlim dəyişikliyi ilk növbədə ətraf mühitin dəyişməsi (məsələn, buzlaqların əriməsi, səhralaşma) və ekstremal hava hadisələri (məsələn, daşqınlar, istilik dalğaları) kimi qəbul edilir.** Bu, əhali arasında iqlim dəyişikliyinin təsirləri haqqında müəyyən səviyyədə məlumatlılığın olduğunu göstərir. Respondentlərin əksəriyyəti iqlim dəyişikliyinin onların dolanışıq vasitələrinə mənfi təsirlərini vurğulayaraq, iş yerlərinin itirilməsi, kənd təsərrüfatı məhsuldarlığının azalması və yaşayış xərclərinin artması kimi səbəblər göstərirlər. **Kişilər, xüsusən də ailələrdə əsas təminatçı kimi, iş itkisinə daha çox həssaslıqla yanaşırlar.** Bu, həm də kənd təsərrüfatı sektorunun iqlim dəyişikliyinə qarşı həssaslığını və kənd sakinləri üçün dolanışıq imkanlarının azaldığını vurğulayır.

Kənd yerlərində məhsuldarlığın azalması səbəbindən **insanlar daha yaxşı iş imkanları axtarmaq üçün şəhərlərə köç edirlər.** Bu tendensiya kənd yerlərində əhalinin azalmasına və şəhər yerlərində əhalinin sıxlığının artmasına gətirib çıxarır ki, bu da öz növbəsində şəhər resurslarına və sosial xidmətlərə tələbatı artırır. **İqlim dəyişikliyi infrastruktura, xüsusən də içməli suya, keyfiyyətli səhiyyə və kanalizasiya xidmətlərinə çıxışa birbaşa təsir göstərir.** Keyfiyyətli səhiyyə xidmətinə məhdud çıxış və təchizat zəncirindəki pozulmalar kimi məsələlər xüsusilə şəhər yerlərində yaşayan qadınları narahat edir.

Respondentlərin əhəmiyyətli bir hissəsi iqlim dəyişikliyi səbəbindən əsas resurslara, xüsusilə **su və səhiyyə xidmətlərinə çıxışda çətinliklər** olduğunu bildirir. Bu çətinliklər həm şəhər, həm də kənd yerlərində yaşayan respondentlərin vəziyyətinə birbaşa təsir göstərir. Qadınlar və uşaqlar iqlim dəyişikliyi səbəbindən miqrasiya etməyə məcbur olan qruplar arasında xüsusilə həssas qrup hesab olunurlar. Sığınacaqlarda məhdud imkanlar və qeyri-adekvat yaşayış şəraiti miqrasiya zamanı qadınlar və uşaqlar üçün ciddi problemlər yaradır. Əmək məhsuldarlığının azalması və maliyyə qeyri-sabitliyi kimi iqlim dəyişikliyinin təsirləri ailələrin iqtisadi və sosial həyatına, eləcə də gələcək planlarına təsir göstərir. Respondentlərin fikrincə, iş imkanlarının azalması, maliyyə çətinlikləri və məcburi köçlər ailələrin həyat planlarına mane olur və gələcək üçün qeyri-müəyyənlik yaradır. Təhlil nəticələri onu da göstərir ki, kişilər kənd təsərrüfatı fəaliyyətləri ilə bağlı su ilə bağlı öhdəliklərə daha çox cəlb olunur, **qadınlar isə reproduktiv və məişət ehtiyacları üçün suyun əsas istifadəçiləridir** və bu da onların vaxt və enerjisinə əhəmiyyətli dərəcədə təsir göstərir. Qadınlar həmçinin iqtisadi cəhətdən daha həssasdırlar, yüksək maliyyə öhdəlikləri və iqlim problemləri fonunda ailə gəlirlərini dəstəkləmək üçün qeyri-ənənəvi işlərə daha çox məruz qalırlar. Bundan əlavə, kənd yerlərindəki qadınların resurslara çıxışı məhduddur və həm şəhər, həm də kənd qadınları artan iş yükü, səhiyyə xidmətlərindən istifadə imkanlarının azalması və sağlamlıq risklərinə daha çox məruz qalırlar. Bir çox qadınlar, **çox vaxt icma və ya rəqəmsal mənbələrə əsaslanaraq, fəlakətlərə hazırlıqla bağlı məlumatlara kifayət qədər çıxış əldə etmədiklərini bildirirlər** ki, bu da məlumatların yayılmasının təkmilləşdirilməsinə ehtiyac olduğunu vurğulayır.

Gender əsaslı zorakılıq, istər fiziki, istərsə də iqtisadi iqlim stressinin həyəcan verici nəticəsidir və **qadınlar** xüsusilə iqtisadi sarsıntılar və iqlim təsirləri səbəbindən **yerdəyişmə nəticəsində risk altındadırlar.** Bütün bu amillər qadınların həyatına psixo-sosial təsirlər yaradır.

Bundan əlavə, maliyyə məhdudiyyətləri, sosial-mədəni normalar və məhdud institusional dəstək kimi maneələr qadınların iqlim dəyişikliyinə uyğunlaşmaq və onların öhdəsindən gəlmək qabiliyyətinə mane olmaqda davam edir və məqsədyönlü müdaxilələrə təcili ehtiyacı vurğulayır.

Bu problemlərin effektiv həlli üçün respondentlər qadınların gender spesifik ehtiyaclarını nəzərə alan qabaqlayıcı tədbirlərin vacibliyini, qərarların qəbulu proseslərində qadınların təmsilçiliyini və gücləndirilmiş institusional bacarıqları vurğulayırlar. Yerli qadın qrupları daxilində bacarıqların inkişaf etdirilməsi və qadınların səsi üçün platformaların genişləndirilməsi də iqlimlə bağlı məsələlərə daha ədalətli və effektiv cavab vermək üçün vacib strategiyalar hesab edilə bilər.

Son olaraq isə, kənd yerlərində yaşayan qadınlar **sığorta və digər aktivlərə çıxış tədbirləri də daxil olmaqla müasir maliyyə dayanıqlığı mexanizmləri ilə bağlı bilik boşluqları** ilə üzləşə bilər. Belə mexanizmlər haqqında məhdud məlumatlılıq potensial olaraq qadınların iqlim risklərindən tam qorunmalarına mane olur və onları şəxsi vəsaitlərə üstünlük verməyə vadar edir. Bu bilik və resurs boşluqlarının aradan qaldırılması, xüsusən də kənd yerlərində qadınların iqlim dəyişikliyinin təsirlərinə həssaslığını azaldan hərtərəfli davamlılıq strategiyalarını qəbul etmək üçün səlahiyyətlərin verilməsi üçün vacibdir.

Apardığımız təhlillərə oxşar tendensiyalar qlobal səviyyədə aparılan tədqiqatlarda da müşahidə olunur. FAO-nun tədqiqatı göstərir ki, kənd ərazilərindəki qadınlar ekstremal hava şəraiti və resurs çatışmazlığı kimi iqlimə bağlı problemlər səbəbindən artan iş yükü və daha böyük iqtisadi itkilərlə üzləşirlər. Digər ölkələrdə aparılan bu araşdırmalar da nəticələrimizi təsdiqləyir və göstərir ki, iqlim dəyişikliyi və gender bərabərsizliyinin kəsişməsi hərtərəfli diqqət tələb edən qlobal bir problemdir.

FAO-nun "Ədalətsiz İqlim" (Unjust Climate) hesabatı[7] iqlim dəyişikliyinin həssas kənd əhalisinə təsirini araşdıraraq, diqqəti gender, yaş və sərvət bərabərsizliyinə yönəldir. Aşağı və orta gəlirli 24 ölkənin məlumatlarına əsaslanaraq iqlim dəyişikliyinin kənd bölgələrində yaşayan yoxsul qadınlara və gənclərə təsirini araşdırır. Hesabat müəyyən edir ki, kənd qadınları, yoxsullar və qocalar daha yüksək gəlir itkiləri və ekstremal hava səbəbindən artan iş yükü kimi qeyri-mütənasib yüklər daşıyırlar. Qadınların başçılıq etdiyi ev təsərrüfatları istilik dalğaları və daşqınlar kimi iqlim problemləri zamanı ailənin başçısı kişi olanlara nisbətən əhəmiyyətli dərəcədə daha çox gəlir itirir (8% bəzi hallarda 34%-ə qədər). Hesabata əsasən ortalama İl ərzində, yoxsul ev təsərrüfatları daha imkanlı ev təsərrüfatlarına nisbətən daşqınlar səbəbindən ümumi gəlirlərinin 4.4%-i itirirlər. Ekstremal hava temperaturu hər gün qadın fermerlərin istehsal etdiyi məhsulların ümumi dəyərini kişilərə nisbətən 3% azaldır.

*Link 7*

# Keyfiyyət təhlili və nəticələrin təqdimatı

Keyfiyyət araşdırması üzrə ekspertlərə ünvanlanan 10 sual ümumilikdə 4 mövzu üzrə təhlil edilmişdir. Bu mövzular aşağıdakı kimi müəyyən edilmişdir:

- İqlim dəyişikliyinin təsirləri və həssaslığın qiymətləndirilməsi
- Gender, iqlim dəyişikliyi və risklərin qiymətləndirilməsi
- İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri - gender aspektlərini nəzərə alan yanaşma
- İqlim dəyişikliyi ilə əlaqədar qlobal ən yaxşı təcrübələrə dayanan qərar qəbuletmə və mitiqasiya/uyğunlaşma strategiyasının formalaşdırılması

## *İqlim dəyişikliyinin təsirləri və həssaslığın qiymətləndirilməsi*

| **Əsas nəticələr** |
| --- |
| Əsasən iqtisadi və sosial təsirlər göstərilmişdir, ətraf mühit təsirlərində isə su qıtlığı və dəniz səviyyəsinin yüksəlməsi üstünlük təşkil edir - İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelin (IPCC) hesabatlarına[8] görə:<br>**Ətraf mühit təsirləri:**<br>• İqlim dəyişikliyi nəticəsində su mənbələrinin azalması, torpağın şoranlaşması və məhsuldar torpaq sahələrinin məhv olması ətraf mühitə ciddi ziyan vurur<br>• Quraqlıq və daşqınlar nəticəsində torpaq eroziyası artır, kənd yerlərində təbii mühitin tarazlığı pozulur<br>• İqlim dəyişikliyi dəniz səviyyəsinin yüksəlməsi ilə sahilyanı ərazilərdə ekosistemləri və orada məskunlaşan flora və faunanı təhlükə altına qoyur<br>• Meşələrin qırılması və biomüxtəlifliyin azalması ilə ekosistemlərə böyük zərər yetirilir, bu da həm kənd təsərrüfatına, həm də təbii resursların dayanıqlılığına mənfi təsir edir |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| Yoxdur |

[8] *Hesabatlara daxildir: Climate Change 2023: Synthesis Report, Climate Change 2022: Mitigation of Climate Change, Climate Change 2022: Impacts, Adaptation, Vulnerability, Special Report. Tam siyahı ilə* ***buradan*** *tanış ola bilərsiniz*

| Əsas nəticələr |
|---|
| **İqtisadi təsirlər:**<br>• İsti hava şəraiti, daşqınlar, eroziya və quraqlıq səbəbindən kənd təsərrüfatı məhsuldarlığı əhəmiyyətli dərəcədə pozulur. Qadınlar kənd təsərrüfatı sektorunda əsas işçi qüvvəsini təşkil edir<br>• Kənd yerlərində dolanışıq imkanları məhdudlaşdıqca, qadınlar ailələrini saxlamaq üçün böyük təzyiqlə üzləşirlər, xüsusən də kişilərin iş üçün şəhər ərazilərinə köç etdiyi hallarda<br>• Bəzi hallarda miqrasiya, xüsusən də kişilərin miqrasiyası qadınların üzərində qeyri mütənasib işlərin artması ilə nəticələnir<br>• İqlim dəyişikliyi mövcud sosial və mədəni normaları gücləndirərək, qadınların resurslara çıxışını məhdudlaşdırır, onların zəifliklərini artırır və iqlim böhranına qarşı uyğunlaşma səylərini çətinləşdirir<br>• Iqlim dəyişikliyinin təsiri kənd təsərrüfatına ciddi təsir göstərir, xüsusilə də ixrac məhsullarının dəyişməsi nəticəsində iş yerlərinin itirilməsi riskini artırır |
| **Sosial təsirlər:**<br>• Reproduktiv və psixi sağlamlıq<br>• Ətraf mühit və iqlim böhranlarının yaratdığı stresslər erkən nikahlara, ailə münaqişələrinə səbəb ola bilər<br>• Qadınların hərəkətliliyi və fövqəladə vəziyyətlərə tez reaksiya vermək qabiliyyətləri məhdudlaşır |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| Yoxdur |
| **Stresserlər:**<br>• Gəlirlərə, aktivlərə və təbii ehtiyatlara çıxış fərqləri<br>• Xidmətlərə və bacarıqlara çıxış<br>• Ev təsərrüfatında gender rollarından irəli gələn məsuliyyət yükü<br>• Ayrı-seçkilik təcrübələri<br>• İqlim dəyişikliyinin xüsusilə qadınlara təsiri<br>• Fiziki/sosial/sağlamlıq məsələlərinə təsiri<br>• Qadınların üçlü rolu<br>• Qadınların iqtisadi dolanışıq vasitələrinə təsiri - yoxsulluq<br>• Qadınların qərar qəbuletmə prosesində iştirakı |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| Yoxdur |

## Gender, iqlim dəyişikliyi və risklərin qiymətləndirilməsi

| Əsas nəticələr |
| --- |
| • Qadınlar ailənin əsas qayğı göstərənləridir və çox vaxt ətraf mühitdəki dəyişikliklərdən ilk xəbərdar olurlar, çünki resurslar qıt olur, onların iş yükü artır və ailələrini saxlamaqda problemlər yaranır<br>• Qadınların əhəmiyyətli bir hissəsinin ətraf mühitin mühafizəsi qaydaları, dayanıqlı resurslar, resursların yenidən istifadəsi, tullantıların seqreqasiya olunması, enerji resurslarının düzgün idarə edilməsi ilə bağlı biliyi aşağı səviyyədədir və bu qaydalarla öz ailə üzvlərinin məlumatlılığını təmin etməkdə çətinlik çəkirlər<br>• Qadın sahibkarların böyük bir hissəsi “yaşıl biznes” təcrübələri haqqında məhdud məlumatlarının olduğu müşahidə olunur<br>• Fəlakətlər zamanı qadınlar və uşaqların ölmə ehtimalı kişilərdən 14 dəfə çoxdur. Ekstremal hava şəraiti səbəbindən köçkün düşmüş insanların 80%-ni qadınlar təşkil edir. Bu, iqlim dəyişikliyinin mövcud sosial və iqtisadi bərabərsizlikləri dərinləşdirdiyini göstərir (BMT-nin Gender Bərabərliyi və Qadınların Gücləndirilməsi Təşkilatının Hesabatına görə[9] )<br>• Ənənəvi olaraq kişilərin üstünlük təşkil etdiyi yaşıl işlərdə qadınların iştirakı məhduddur. Bunun səbəbi sosial normalar, iş seqreqasiyası və təlim imkanlarının olmamasıdır<br>• İqlim dəyişikliyinin təbii resurslara (məsələn, torpağın deqradasiyası) təsirləri kişilərin əmək miqrasiyasına səbəb olur. Nəticədə, ailə və ev təsərrüfatının bütün yükü qadınların üzərinə düşür<br>• İqlim dəyişikliyi qadınların sağlamlığına, xüsusən də hamiləlik və doğuş zamanı mənfi təsir göstərir. Bu, bəzən ölü doğuş kimi ciddi nəticələrlə müşayiət olunur.<br>• Araşdırmalar göstərir ki, iqlim dəyişikliyi ilə gender əsaslı zorakılıq və cinsi təcavüz arasında ciddi əlaqə mövcuddur. İqlim stressorları bu halların artmasına səbəb ola bilər<br>• Qadınların kişilərə nisbətdə məhdud məkan mobilliyi onları iqlim dəyişikliyinə qarşı daha həssas vəziyyətə qoyur. Sosial-mədəni normalar və ailə üzvlərinə qulluq vəzifələri qadınların iqlimin yaratdığı fəlakət zamanı evlərindən uzaqda sığınacaq axtarmasına mane olur |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| Yoxdur |

[9] *UN Women, SDG 13: Take urgent action to combat climate change and its impacts. Buradan tanış ola bilərsiniz*

## *İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri - gender aspektlərini nəzərə alan yanaşma*

| **Əsas nəticələr** |
| --- |
| **Dövlət proqramları, məlumatlılıq, strategiyaya dair məsələlər (çətinliklər):**<br>• Dövlət proqramlarının "gender blind" olması, və beləcə genderin fəaliyyət planları və icra fəaliyyətlərində hələ də çatışmazlıq olaraq qalması<br>• İqlim dəyişikliyinin gender perspektivi ilə bağlı məlumatın lazımi səviyyədə olmaması<br>• İqlim dəyişikliyində gender perspektivi ilə bağlı biliklərin olmaması, iqlim dəyişikliyi siyasətlərinə gender perspektivinin daxil edilməsi istiqamətində gecikmələrin olması<br>• İqlim-ağıllı kənd təsərrüfatı təcrübələrinin qəbulunda gender boşluqlarının mövcudluğu. Qadınların kənd təsərrüfatında və yaşıl işlər sektorunda daha çox rol oynaması üçün təcili tədbirlərə ehtiyacın olması.<br>• Qadınların məhdud hərəkətliliyinə görə maarifləndirmə və təhsil məsələlərinin xüsusi diqqət tələb etməsi. Kənd Təsərrüfatı Nazirliyinin regional bölmələri tərəfindən uyğunlaşma strategiyaları ilə bağlı maarifləndirmə işlərinin aparıldığı məlumdur<br>• Qadınların icma yığıncaqlarında marjinallaşdırılması onların bacarıqlarını artırmaq imkanlarını məhdudlaşdırır<br>• İqlim dəyişikliyi ilə bağlı maliyyələşdirilən layihələrdə bəzən iri korporasiyalar yararlanır, bu isə qadınların və marjinal qrupların ehtiyaclarının arxa plana keçməsinə səbəb ola bilər. Uyğunlaşma investisiyalarının ən həssas qadın və kişilərə yönəldilməsi ilə ədalətli bir yanaşmanın təmin edilməsinin vacibliyi<br>• Genderlə bağlı Milli Fəaliyyət Planının olmaması, iqlim siyasətlərinin və strategiyalarının gender neytral hazırlanmasına gətirib çıxarır<br>• Sosial normalar uyğunlaşma qərarlarının qəbulu və planlaşdırma proseslərində kimlərin iştirak edə biləcəyinə təsir edir və kifayət qədər təmsil olunmayan qrupların, o cümlədən qadınların kənarda qalma ehtimalını artırır |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| Yoxdur |

| Əsas nəticələr |
|---|
| **Potensial üstünlüklər**<br>• Hökumətin yaşıl iqtisadiyyatda qadınların iştirakını təmin etməsi<br>• Qadınların və qızların bacarıqlarının artırılması, xüsusən də informasiya texnologiyaları sənayesində və digər gələcəkdə artım müşahidə olunacaq sektorlarda<br>• İqlim və yaşıl iqtisadiyyatla bağlı qanunvericilikdə genderin inteqrasiya edilməsi<br>• Qadınlara təlimlərin verilməsi, bu bilik çatışmazlığının aradan qaldırılması<br>• Qadınların iqlim dəyişikliyi ilə bağlı uyğunlaşma strategiyalarının effektiv şəkildə icrasına yönəldilməsi<br>• Təhsilli qadınların iqlim dəyişikliyi ilə mübarizədə və uyğunlaşma tədbirlərinə töhfə verə bilməsi, və bir çox ölkələrdə olduğu kimi qadınların iqlim dəyişikliklərinə qarşı dəyərli töhfələr verən bələdçilər kimi tanınması<br>• Gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması iqlim dəyişikliyinə uyğunlaşma, təsirlərin yumşaldılması və insan hüquqları sahəsində bütün maliyyə alətlərinin üfüqi koordinasiya prinsipləri ilə əlaqələndirilməsi |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| Yoxdur |

## İqlim dəyişikliyi ilə əlaqədar qlobal ən yaxşı təcrübələrə dayanan qərar qəbuletmə və mitiqasiya/uyğunlaşma strategiyasının formalaşdırılması

| Əsas nəticələr |
|---|
| • Yaşıl iqtisadiyyatda təmsil olunan qadın sahibkarlar üçün xüsusi imtiyazlar, vergi güzəştlərinin tətbiqi<br>• Reproduktiv sağlamlıqla bağlı qanunun qəbul olunmasının sürətləndirilməsi və əlavələrin edilməsi (nümunə üçün, qadınların iqlim dəyişikliyi ilə bağlı üzləşdiyi problemləri müəyyən etmək və onların təsirin azaldılması tədbirlərinin qanuna inteqrasiyası edilməsi, muzdlu iş mühitində qadınların şəraiti, kənd təsərrüfatı sahəsində işləyən qadınlar üçün mobil müayinə proqramlarının olması və s.)<br>• **Qarabağın rehabilitasiyası prosesində** - Qadınların, İqlim və Qarabağ proqramı yaradıb, burada daha davamlı və gender həssas yanaşma nümayiş etdirməsi (Qarabağda mitiqasiya və uyğunlaşma prosesində qadınların yaxından iştirakı)<br>• Qadınlar sadəcə iqlim dəyişikliyinin qurbanları kimi deyil, dəyişiklik agentləri kimi təqdim edilməsi. Onların gender bilikləri və təcrübələri uyğunlaşma prosesində mühüm rol oynaması |

| Əsas nəticələr |
| --- |
| • İqlim dəyişikliyinin təsirlərinin azaldılması və uyğunlaşma tədbirlərində qadınların asanlıqla əldə edə biləcəyi texnologiyalar üzərində diqqətin cəmlənməsi. Ultra müasir innovasiyalar əvəzinə daha əlçatan texnologiyalara yönəlməyin qadınların daha çox iştirakını təmin etməsi<br>• Fərqli metodologiyalar, sorğular və fokus qrup müzakirələri vasitəsilə gender ekspertlərinin cəlb edilməsi ilə gender təhlilləri aparılmalı və siyasətlərin daha dəqiq hədəflənməsinin təmin edilməsi<br>•Hər hansı siyasət və ya proqram hazırlanmazdan əvvəl cinslərə görə ayrı-ayrı məlumatların toplanması və gender təhlilinin məcburi olması<br>• Qadınların icma yığıncaqlarında iştirakını artırmaq və onların liderlik potensialını reallaşdırmaq üçün xüsusi tədbirlərin görülməsi. Məsələn, qadınlar və kişilər üçün ayrı-ayrı fokus qrupları onların səslərinin eşidilməsinə şərait yarada bilər<br>• İqlim dəyişikliyinə qarşı zəifliklərin diferensial anlaşılmasında kəsişmə (intersectinality) və ədalətlilik prinsiplərinə diqqət yetirilməsi<br>• Qadınlara uyğun yaşıl iş imkanlarının yaradılması<br>• Kənd təsərrüfatı xidmətlərinə və kreditlərə çıxışın genişləndirilməsi; su və resursların idarə edilməsi strategiyalarına çıxışın və səmərəliliyin artırılması; kənd təsərrüfatı sistemlərində qərar qəbuletmə və liderlikdə qadınların daxil edilməsi |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| **Uyğunlaşmanın planlaşdırılması və icrasına genderin daxil edilməsində əsas boşluqlar**<br>• İqlim dəyişikliyi və həssaslıq məsələləri gender, etnik mənsubiyyət, əlillik və yaşlılıq kimi digər amillərlə qarşılıqlı təsir edir. Qadın və kişilərin iqlim təsirlərinə qarşı həssaslığı bu amillərdən asılı olaraq fərqlənə bilər<br>• Gender əsaslı yanaşmanın (Gender Mainstreaming) tətbiqi üçün məhdud potensial: Hökumət nümayəndələrinin və siyasətçilərin iqlim fəaliyyətlərində gender təhlili və gender əsaslı yanaşma üzrə təcrübəsi kifayət qədər inkişaf etməmişdir<br>• Monitorinq və qiymətləndirmə sistemlərinin olmaması və ya məhdud olması: İqlim fəaliyyəti, proqramları və siyasətlərinin qadın və kişilərə fərqli təsirlərini qiymətləndirmək çətindir. Fəaliyyətlərin gender fərqlərini və həssaslığını tam şəkildə dəyərləndirmək üçün əlavə gender indikatorları hazırlanmalıdır<br>• Təbii fəlakətlərin qadın və kişilərə təsirlərini, onların həssaslığını və bu çətinliklərin öhdəsindən gəlmə qabiliyyətini izləmək üçün mövcud sistemlər məhduddur. Fəaliyyətlərin, proqramların, təşəbbüslərin və siyasətlərin yenidən qiymətləndirilməsi həyata keçirilməlidir<br>• İqlim dəyişikliyi və təbii fəlakətlərin qadınlara və kişilərə differensial təsirlərini, qadınların iqlim dəyişikliyinin təsirinin azaldılmasına xüsusi töhfələrini adekvat şəkildə tutmaq üçün əlavə gender indikatorlar və ya göstəricilər hazırlana bilər |

| Əsas nəticələr |
|---|
| **Beynəlxalq təcrübəyə uyğun addımlar:**<br>• BMT-nin konvensiyaları tövsiyə xarakteri daşısa da, onlardan irəli gələn məsələlərin tez bir zamanda həll edilməsinin vacibliyi<br>• Gender bərabərliyi prinsipinin iqlim dəyişikliyi siyasətlərinin və tədbirlərinin şəffaflığının və effektivliyinin artırılmasına gətirib çıxaracaq mühüm bir vasitə kimi qəbul edilməsi<br>• BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (UNFCCC) və Paris Sazişinin ratifikasiya edilməsi və iqlim dəyişikliyi siyasətlərində gender fərqlərinin nəzərə alınması<br>• Fici təcrübəsinə əsaslanaraq qadınların iqlim dəyişikliyinin agenti kimi təqdim edilməsi. Bu addımın siyasət qurucularına qadınları liderlik mövqelərinə gətirməyə və onlara həll yollarına töhfə verən agentlər kimi yanaşmağa əsas verməsi<br>• Türkiyənin Ekologiya və Şəhərsalma Nazirliyinin iqlim dəyişikliyi ilə bağlı həyata keçirilən layihələrdə qadınların ehtiyaclarını nəzərə alaraq və onların iştirakını təmin edərək iqlim dəyişikliyinə davamlılığı artırmaq və fəlakət riskini azaltmaq üzrə tərtibat işlərinin aparması<br>• "İqlim Fəaliyyəti üzrə Tələb olunan Birgə Səylərin Artırılması Layihəsi" çərçivəsində Türkiyədə iqlim dəyişikliyi aktının gücləndirilməsi və məlumatlılığın artırılması üçün yerli səviyyədə çoxsaylı qrant layihələrinin həyata keçirilməsi<br>• Beynəlxalq danışıqların nəticələri arasında Gender üzrə Lima İş Proqramı da var. Bununla yanaşı, Fəlakət Riskinin Azaldılması üzrə Sendai Çərçivəsi (SFDRR) gender həssas iqlim tədbirlərini tövsiyə edir və qadınların davamlılığın qurulmasında daha güclü rolunu təşviq edir<br>• Yaşıl İqlim Fondu (GCF) Gender Siyasəti və Gender Fəaliyyət Planı vasitəsilə bütün fəaliyyətlərində sistematik gender əsaslandırmasını təmin edən ilk iqlim fondlarından biridir. Bu, genderə həssas yanaşmaların iqlim siyasətinə inteqrasiyasını vacib bir prioritet kimi müəyyən edir |
| **Ekspert rəyində əsas fərqli məqamlar** |
| Yoxdur |

Beynəlxalq təcrübələrə nəzər salsaq, iqlim siyasətində Kanada, Almaniya və İsveç kimi ölkələrdə, eləcə də Ruanda və Nepal kimi inkişaf etməkdə olan ölkələrdə uğurlu nümunələr mövcuddur. Bu ölkələr iqlim siyasətinə gender aspektlərinin inteqrasiyası sahəsində irəliləyişlər əldə etmişdir. Lakin iqlim dəyişikliyi və gender bərabərliyini birləşdirən kəsişmə yanaşmasının tətbiqi ilə bağlı əsas çətinliklərdən biri bu alətin institusionallaşdırılmasıdır.

Məsələn, Almaniyada genderin iqlim siyasətinə daxil edilməsi sahəsində irəliləyişlər müşahidə edilsə də, hələ də bir çox institusional problemlər qalmaqdadır. Bu çətinliklər genderə həssas siyasətlərin iqlim strategiyalarında tam olaraq tətbiq edilməsinə mane olur. Bu siyasətlərin davamlı və uzunmüddətli həyata keçirilməsini təmin etmək üçün əlavə struktur islahatlarına ehtiyac var. Yalnız belə struktur dəyişiklikləri ilə gender və iqlim siyasətlərinin kəsişməsi effektiv şəkildə təmin edilə bilər.

2017-ci ildə Milli Səviyyədə Təyin Edilmiş Töhfəsini (NDC) təqdim etdikdən sonra Azərbaycan Hökuməti (GoA) Milli Uyğunlaşma Planının (NAP) hazırlanmasına və həyata keçirilməsinə başlayıb. Yaşıl İqlim Fondunun (GCF) "BMTİP vasitəsilə Azərbaycan üçün uyğunlaşmanın planlaşdırılmasına dəstək" layihəsi Azərbaycan Hökumətinə NAP-ın inkişafını asanlaşdırmaq və Azərbaycanın iqlim dəyişikliyinə uyğunlaşma (CCA) tədbirlərini Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) tərəfindən müəyyən edilən üç prioritet sektorda – su, kənd təsərrüfatı və sahilyanı ərazilərdə – inkişaf etdirməyə dəstək göstərəcək. NAP-ın məqsədi bu üç sektorda uyğunlaşma tədbirləri həyata keçirməklə milli və yerli səviyyələrdə effektiv uyğunlaşma prosesinə mane olan problemləri aradan qaldırmaq və ya azaltmaqdır.

2017-ci ildə aparılan ehtiyacların qiymətləndirilməsi zamanı müəyyən edilən maneələrdən bəziləri bunlardır:

a. *Azərbaycanda maraqlı tərəflərin məhdud məlumat əldə etməsi və məlumatların paylaşılması;*
b. *Menecerlər, ekspertlər/praktikantlar və icma səviyyəsində iqlim dəyişikliyinə uyğunlaşma (CCA) ilə bağlı qeyri-kafi institusional və texniki potensial;*
c. *CCA tədbirlərinin milli, regional, yerli və sektorial planlaşdırma, büdcələşdirmə və tənzimləyici çərçivələrə məhdud inteqrasiyası;*
d. *Məhdud institusional koordinasiya;*
e. *CCA üzrə mövcud və keçmiş proqramların məhdud monitorinqi, qiymətləndirilməsi və təhlili.*

Bu problemlərin həlli məqsədilə, bu dəstək layihəsi GCF fondlarından istifadə edərək, Azərbaycanda CCA planlaşdırma prosesini üç əsas sahədə yaxşılaşdırmağa yönələcək:

a. *Qərar qəbulunda məlumat əldə edilməsinin və paylaşılmasının yaxşılaşdırılması;*
b. *Su, kənd təsərrüfatı və sahilyanı ərazilərdə CCA üçün institusional və texniki potensialın gücləndirilməsi;*
c. *Prioritet sektorlarda CCA tədbirlərinin milli, regional və yerli səviyyələrdə planlaşdırılmasına daha çox inteqrasiyası.*

Yaşıl İqlim Fondunun maliyyələşdirdiyi və BMTİP-nin həyata keçirdiyi layihə hökumətin mövcud institusional, texniki və maliyyə potensialını gücləndirməyi qarşısına məqsəd qoymaqla yanaşı, layihə çərçivəsində qərar qəbuledici şəxslər, texniki heyət və yerli icmalar üçün məlumat toplanması və yayılması ilə bağlı yeni alətlər və təcrübələr, eləcə də maarifləndirici və təlimləndirici kurslarda gender aspektlərini nəzərə alan yanaşma tətbiq edir.

Aşağıda iqlim dəyişikliyi, gender bərabərliyi və ayrı-seçkiliyin aradan qaldırılmasına yönəlmiş çoxtərəfli beynəlxalq sazişlər, sənədlər və çərçivələr verilmişdir. Bu sənədlər bir-biri ilə sıx bağlıdır və birgə icra zamanı həm tamamlayıcı, həm də bəzən bir-birinə zidd məqamlar yaradır:

| **Müqavilə/Saziş/Konvensiya/Çərçivə(nin) adı** | **Məqsəd** |
|---|---|
| Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya (CEDAW)[10] | Qadınlara qarşı hər növ ayrı-seçkiliyin aradan qaldırılmasına dair beynəlxalq müqavilədir. Qadın hüquqlarının bərabərliyi və sosial-siyasi sahələrdə gender bərabərliyini təmin etmək üçün əsas sənəddir |
| Pekin Bəyannaməsi və Fəaliyyət Platforması[11] | 1995-ci ildə qəbul edilmişdir. Qadın hüquqlarının və gender bərabərliyinin inkişaf etdirilməsi istiqamətində dövlətlərin öhdəliklərini müəyyən edən əhəmiyyətli bir beynəlxalq sənəddir. |
| Paris Sazişi[12] | Paris Sazişinin məqsədi qlobal istiləşməni 2°C-dən aşağı səviyyədə saxlamaq və mümkün olduqda 1.5°C ilə məhdudlaşdırmaq, həmçinin iqlim dəyişikliyinə uyğunlaşmanı və emissiyaların azaldılmasını təşviq etməkdir. |
| Tərəflərin Konfransı - COP24 Paris İcra Qaydaları 2018[13] (Katowice Climate Package) | Paris Sazişinin icrası üçün konkret qaydalar və prosedurlar təyin edir. Bu icra qaydaları sazişdə göstərilən məqsədlərin həyata keçirilməsini təmin edir. |
| UNFCCC Gender Fəaliyyət Planı 2017[14] | BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası çərçivəsində genderin iqlim fəaliyyətlərinə inteqrasiyasını təşviq edən bir plandır. Bu plan qadınların iqlim tədbirlərində iştirakını artırmaq, liderlikdə və qərar qəbuletmə proseslərində daha fəal olmalarını təmin etmə əcə də onların bacarıqlarını inkişaf etdirmək üçün xüsusi tədbirlər nəzərdə tutur. |

*Link 10*
*Link 11*
*Link 12*
*Link 13*
*Link 14*

| | |
|---|---|
| UNFCCC Lima İş Proqramı (LWPG) 2014[15] | Bu proqramın əsas məqsədi, iqlim siyasətində və tədbirlərində gender bərabərliyinin təmin edilməsinə yönəlmişdir. Lima İş Proqramı, qadınların iqlim fəaliyyətlərində qərar qəbul etmə proseslərinə daha geniş iştirakını təşviq edir və iqlim dəyişikliyinə uyğunlaşma və təsirlərin azaldılması tədbirlərində gender həssaslığını artırmaq üçün praktiki addımların atılmasını dəstəkləyir. |
| CEDAW Komitəsinin Ümumi Tövsiyəsi 37[16] | İqlim dəyişikliyi və təbii fəlakətlərin qadınlara təsirlərinə dair xüsusi tövsiyədir. Bu tövsiyə, gender bərabərliyinin iqlim tədbirlərinə daha yaxşı inteqrasiyasını təmin etməyə yönəlib |
| Dayanıqlı İnkişaf Məqsədi (SDG) 5[17] | Gender bərabərliyinə nail olmaq və bütün qadın və qızların hüquqlarını və imkanlarını genişləndirmək məqsədini daşıyır |
| Dayanıqlı İnkişaf Məqsədi (SDG) 13 – alt Hədəf 13.b[18] | İnkişaf etməkdə olan ölkələrdə iqlim dəyişikliyinə uyğunlaşmaq üçün qadınlara, gənclərə, yerli və təcrid olunmuş icmalara diqqət yetirərək potensialın artırılmasını hədəfləyir |
| İnsan hüquqları üzrə BMT-nin Xüsusi Məruzəçisinin hesabatı 2018 (A/HRC/37/59)[19] | İnsanların təhlükəsiz, təmiz, sağlam və dayanıqlı ətraf mühitə sahib olmaq hüququ ilə bağlı dövlətlərin öhdəliklərini müəyyən edən prinsiplər toplusudur. Hesabatda bu hüququn qorunması üçün dövlətlərə verilən tövsiyələr və bu sahədə insan hüquqlarının təmin edilməsi üçün atılmalı olan addımlar əks olunur. |
| Gender Təhlili və Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr (NDC): Hökumət Maraqlı Tərəflər üçün Qısa Rəhbərlik[20] | BMTİP tərəfindən hazırlanmış bu sənəd hökumət nümayəndələri üçün iqlim tədbirlərində gender təhlilinin vacibliyini vurğulayan qısa rəhbərlikdir. Gender perspektivinin Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrə (NDC) daxil edilməsini və iqlim dəyişikliyi ilə mübarizədə gender bərabərliyinin təmin edilməsini təşviq edir. |

*Link 15*
*Link 16*
*Link 17*
*Link 18*
*Link 19*
*Link 20*

## Gender bərabərliyi: milli təşəbbüslər və beynəlxalq öhdəliklər

Azərbaycanın gender bərabərliyi və qadınların hüquqlarının genişləndirilməsi istiqamətində milli yanaşması müstəqillikdən sonra formalaşmağa başlamışdır. Əsas mərhələlərə 1994-cü ildə Pekində keçirilmiş **Dördüncü Ümumdünya Qadınlar Konfransında** iştirak, 1995-ci ildə **BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyasına (CEDAW)** qoşulması və 1997–2000-ci illərdə **Gender və İnkişaf layihəsinin** həyata keçirilməsi daxildir. CEDAW Konvensiyası kənd qadınlarının iqtisadi resurslara, torpağa və sosial xidmətlərə bərabər çıxışını təmin etməyi tələb edir (Maddə 14) və bu mövzuda bir sıra ümumi tövsiyələr təqdim etmişdir (16 nömrəli, 1991; 34 nömrəli, 2016). Bu çərçivədə Azərbaycan altı dövri hesabat təqdim etmişdir ki, ən sonuncusu 2019-cu ilə təsadüf edir. 2015-ci ildə CEDAW Komitəsi Azərbaycanın kənd qadınlarının sosial və iqtisadi həyatda iştirakını artırmaq üçün əlavə tədbirlər görməsini tövsiyə etmişdir[21(a)] (CEDAW Komitəsi, 2015, paraqraf 37). Komitə, xüsusilə kənd qadınlarının təhsilə, adekvat su təchizatı və kanalizasiya xidmətlərinə, rəsmi məşğulluğa, aqrobizneslər üçün aşağı faizli və girovsuz kreditlərə, torpaq mülkiyyətinə və istifadəsinə çıxış imkanlarının təmin edilməsinin vacibliyini vurğulamışdır[21(b)] (Azərbaycanın altıncı dövri hesabatı üzrə yekun müşahidələr, 2022, paraqraf 38). Bununla yanaşı, kənd qadınlarının yoxsulluqla mübarizədə daha fəal rol oynamalarını təşviq etmək üçün onların kənd təsərrüfatı siyasətlərinə bərabərhüquqlu iştirakını, qərarların qəbulunda söz sahibi olmalarını və rəhbər vəzifələrdə təmsilçiliyini artırmaq təklif edilmişdir. Bu tövsiyələr kənd qadınlarının həm sosial, həm də iqtisadi həyatın bütün aspektlərində daha çox iştirakını təmin etməklə, onların iqlim dəyişikliyinin təsirləri ilə mübarizədə daha güclü mövqe tutmasına kömək edə bilər.

Azərbaycan **Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının** prioritetlərini inkişaf etdirmək öhdəliyini də qəbul etmişdir. Fəaliyyət Platformasının strateji hədəfləri kənd qadınlarının yoxsulluq və sosial marjinallıq risklərini azaltmaq üçün xüsusi tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Bununla yanaşı, **Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyində** də gender bərabərliyi əsas prioritetlərdən biri kimi müəyyən edilmişdir. **5-ci Məqsəd**, qadınların iqtisadi resurslara bərabər çıxışını, torpaq və əmlak üzərində mülkiyyət hüququnu təmin etmək, ödənişsiz işlərin tanınmasını və bütün səviyyələrdə qadınların qərarvermə proseslərində iştirakını təşviq etmək kimi hədəfləri əhatə edir. Azərbaycan öz növbəsində **2030-cu il Gündəliyinin** məqsədlərini həyata keçirmək öhdəliyini götürmüş və **Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər)** çərçivəsində milli prioritetlər və göstəricilər müəyyən etmişdir. **Aktuallaşdırma, Sürətləndirmə və Siyasətə Dəstək (MAPS)** missiyasının apardığı sürətli qiymətləndirmə nəticəsində dövlət proqramlarının, strategiyalarının və siyasi sənədlərinin gender bərabərliyinə dair 5-ci DİM-ə tam uyğun olduğu təsbit edilmişdir[22] (Azərbaycan Respublikası Hökuməti, 2019).

[21(a)] *Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi Komitəsi. 2015. Azərbaycanın beşinci dövri hesabatı üzrə başa çatan müşahidələr. CEDAW/ C/ AZE/C*

[21(b)] *Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə. 2022. Azərbaycanın altıncı dövri hesabatı üzrə yekun müşahidələr. CEDAW/C/AZE/CO/6*

[22] *Azərbaycan Respublikası Hökuməti. 2019. İkinci Könüllü Milli Hesabat. Bakı.*

Azərbaycan **DİM**-lərə nail olmaqda müəyyən irəliləyiş əldə etsə də, BMT rayonlar, şəhər və kənd icmaları arasında gender, sosial-iqtisadi və məkan fərqləri; kənd təsərrüfatı, təhsil, səhiyyə və ədliyyə sahəsində keyfiyyətli xidmətlərə çıxış çətinlikləri; əmək bazarı problemləri və ətraf mühit təhdidləri kimi məsələlərin mövcud olduğunu vurğulamışdır (BMT və Azərbaycan Hökuməti, 2021, səh.1). Bundan əlavə, **5-ci Məqsəd** üzrə irəliləyiş məhdud məlumat səbəbindən çətinləşmişdir. Göstəricilərin yalnız **57%-ə** dair məlumat mövcuddur, əlavə **28%-i** üçün isə məlumatların toplanması planlaşdırılır[23]. İndiyədək Azərbaycan üçün tamamlanmış üç **Könüllü Milli Hesabatdan** yalnız birincisi 5-ci Məqsədə aid məşğulluq, təhsil, siyasi iştirak, erkən evlilik hallarının azaldılması və qadınların torpaq mülkiyyəti problemlərinin həlli sahələrində əldə olunan irəliləyişi təsvir etmişdir. Sonrakı hesabatlar (2019 və 2021) strateji hədəfləri vurğulasa da, konkret məlumat verməmişdir.

## Gender bərabərliyi: qanunvericilik və hüquqi çərçivə

Azərbaycan Respublikasında qadın və kişi bərabərliyinə dair hüquqi baza 1995-ci ildə qəbul edilmiş Konstitusiyada təsbit edilmişdir. **Konstitusiyanın 25-ci maddəsi**, cinsindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyini təmin edir (Azərbaycan Respublikasının Konstitusiyası, 25-ci maddə, III hissə). 1998-ci və 2000-ci illərdə bu müddəalar müxtəlif hüquqi aktlarla möhkəmləndirilmişdir. Prezident fərmanları və Nazirlər Kabinetinin qərarları qadın və kişilərin dövlət strukturlarında bərabər təmsil olunması və gender statistikasının hazırlanması kimi öhdəlikləri müəyyən etmişdir. Nazirlər Kabinetinin qərarı dövlət müəssisə və təşkilatlarında daxili resurslar hesabına gender siyasətinə uyğun olaraq qadın məsələləri ilə məşğul olan şəxslərin təyin edilməsini tələb edir (“Qadınlar Arasında Həmrəylik” İctimai Birliyi, 2020, səh. 5). Bu tədbirlər daha sonra 2006-cı ildə qəbul edilmiş **“Gender (Kişi və Qadın) Bərabərliyinin Təminatı haqqında”** Qanunda öz əksini tapmışdır. Qanun gender bərabərliyini təmin etmək üçün dövlət siyasətini və öhdəliklərini təsbit edir. Buna gender bərabərliyini təmin etmək üçün normativ aktların hazırlanması, qanun layihələrinin gender təhlili və gender bərabərliyinə dair dövlət proqramlarının icrası daxildir.

Ümumilikdə, **“Gender (Kişi və Qadın) Bərabərliyinin Təminatları haqqında”** Qanun, hüquqi məcəllələr və sonradan qəbul edilən qərarlar qadınların inkişafını dəstəkləmək, onların hüquqlarını genişləndirmək və gender bərabərliyini təmin etmək üçün güclü hüquqi baza təmin edir. Lakin bu hüquqi aktların tam tətbiqi, gender bərabərliyinə məsul institusional mexanizmlərin effektiv işləməsinə bağlı olaraq, yalnız qismən həyata keçirilmişdir.

Bəzi strateji sənədlər genderə həssas yanaşmaları əks etdirir. Məsələn, **Azərbaycan Respublikası regionlarının 2014–2018-ci illər üçün sosial-iqtisadi inkişafı Dövlət Proqramında** qadınların məşğulluğunu artırmaq üçün dövlətin məşğulluq siyasəti çərçivəsində tədbirlər nəzərdə tutulmuşdur. **"Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa dair Milli Prioritetlər"** pandemiyadan və münaqişədən sonrakı dövrü əhatə edən yeni strateji sənəd olaraq diqqət çəkir. Bu prioritetlər arasında dayanıqlı və yüksək iqtisadi artım hədəfləri ilə yanaşı, regionların milli gəlirdən daha çox faydalanmasını təmin etmək üçün hərtərəfli inkişaf və balanslaşdırılmış iqtisadi artım yer alır.

[23] *Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli İnformasiya Portalı*

Sənəd, iqtisadi artımın qadınların iqtisadi imkanlara çıxışını artıracağına xüsusi önəm verir. Bununla yanaşı, Nazirlər Kabinetinin **2021–2025-ci illər üçün sosial-iqtisadi strategiya** layihəsi qadınların iqtisadi asılılığının azaldılmasına yönəlmiş tədbirləri ehtiva edir.

**Kənd Təsərrüfatının İnkişafına dair Strateji Yol Xəritəsi** kənd yerlərində qadınlara xüsusi diqqət ayırır. Bu sənəd, kənd yerlərində alternativ məşğulluq imkanlarının yaradılması və icma təşəbbüslərinin dəstəklənməsi vasitəsilə qadınların məşğulluğunun artırılmasını hədəfləyir. Xüsusi proqramlar və peşə hazırlığının inkişafı sayəsində kənd qadınlarının məşğulluğunu artırmaq tədbirləri planlaşdırılmışdır. Sənəd, kənd turizmi sahəsində qadınların məşğulluğunu (xalçaçılıq, suvenir istehsalı və s.) və qeyri-kənd təsərrüfatı sahələrində qadınların məşğulluğunun 20% artırılmasını prioritet hədəf kimi qeyd edir (Prezidentin 2016-cı il tarixli Fərmanı, paraqraf 9.2.4). **Strateji Yol Xəritəsi** kənd yerlərinə əsaslanan iş yerlərinin 30% artımını, qadınlar və gənclərə yönəlmiş proqramların isə üç dəfə genişlənməsini nəzərdə tutur. Lakin sənəd daha çox ənənəvi peşələrə diqqət yetirir və qadınların fermer kimi fəaliyyəti, texnika, suvarma və təcrübənin yayılması xidmətləri kimi resurslara çıxışını artırmaq üçün konkret tədbirləri əhatə etmir.

## Gender aspektlərinin nəzərə alınmadığı sənədlər

Ailə, sağlamlıq və məşğulluq sahələrinə dair milli siyasət sənədləri, adətən, gender bərabərliyi məsələlərini tam şəkildə əhatə etmir. Kənd təsərrüfatı məhsullarının istehsalı və onun alt sektorları, məsələn, ərzaq təhlükəsizliyi, meşə təsərrüfatı və biomüxtəliflik kimi sahələr üzrə müxtəlif siyasi sənədlər mövcuddur (məsələn, 2017–2022-ci illər üçün **Kənd Təsərrüfatı Kooperasiyasının İnkişafına dair Dövlət Proqramı**, 2018–2027-ci illər üçün **Çayçılığın İnkişafı Dövlət Proqramı** və 2018–2025-ci illər üçün **Sitrus Meyvəçiliyinin İnkişafı Dövlət Proqramı** kimi). Lakin bu siyasət sənədlərindən az bir qismi onlayn mövcuddur və onların əksəriyyətində gender məsələləri nəzərə alınmır. Həmçinin, qadınlar və kişilər üçün potensial fərqli təsirlərin dəyərləndirilməsi aparılmamışdır. Məsələn, 2015–2030-cu illər üçün Milli Meşə Proqramı yalnız "yerli icmalar" üçün gəlir mənbələrinin artırılması kimi ümumi məsələlərə toxunur və konkret gender aspektlərini ehtiva etmir.

Bu araşdırma çərçivəsində müsahibə verən gender ekspertləri bildiriblər ki, kənd təsərrüfatı sektorunda gender bərabərliyini təşviq etmək üçün vahid strategiyaya ehtiyac var. Hazırda kənd təsərrüfatı ilə bağlı **Strateji Yol Xəritəsində** qadınların rolu xüsusi qeyd olunmur. Bundan əlavə, sektora dair siyasətlər genderə həssas olmadığı üçün həm mövcud bərabərsizliklər, həm də qadınların kənd təsərrüfatında rolunun artırılması üçün imkanlar kifayət qədər əks olunmur.

## İqlim dəyişikliyinin genderə təsirləri: sosial, iqtisadi və sağlamlıq perspektivləri

Qadınlar qida istehsalı və ailə qida təhlükəsizliyində mühüm rol oynayırlar, lakin onların töhfələri yalnız son vaxtlar geniş şəkildə tanınmağa başlamışdır.

Qlobal kənd təsərrüfatı işçi qüvvəsinin 43%-ni və Azərbaycanın qadınlarının 80%-ni təşkil edən qadınlar, ekoloji və sosial-iqtisadi problemlərdən qeyri-proporsional olaraq təsirlənirlər.

Xüsusilə kənd yerlərində qadınlar su təminatı, kənd təsərrüfatı işlərinin idarə edilməsi və ev təsərrüfatlarına qayğı göstərmə rollarına görə daha həssasdırlar. Bu rollar onları torpaq deqradasiyası, səhralaşma və iqlim dəyişikliyinin təsirlərinə daha çox məruz qoyur. Məsələn, Azərbaycanda 2001-2020-ci illər arasında torpağın 36%-i, o cümlədən geniş otlaq və əkin sahələri deqradasiyaya uğrayıb, bu isə kənd təsərrüfatı ilə məşğul olan qadınlara ciddi təsir göstərmişdir.

**Torpaq deqradasiyası və su çatışmazlığı** yoxsulluq və gender bərabərliyinə müxtəlif cür təsir edir. Qadınlar, ev təsərrüfatlarının tələbatını və kənd təsərrüfatı işlərini idarə etdikləri üçün resurs çatışmazlığının əsas yükünü daşıyırlar. Azərbaycanda bəzi bölgələrdə, məsələn, Siyəzən və Qobustanda, qadınlar suvarma resurslarının olmaması səbəbindən qar və yağış suyunu toplayırlar ki, bu da onların iş yükünü artırır və məhsuldarlığını azaldır. Bundan əlavə, kişilərin miqrasiyası nəticəsində yaranan qadınların başçılıq etdiyi ev təsərrüfatları daha çox kasıb təbəqələrdə cəmləşir, daha kiçik torpaq sahələrinə malikdirlər və kişilərin başçılıq etdiyi ev təsərrüfatları ilə müqayisədə daha aşağı gəlir əldə edirlər.

**İqlim dəyişikliyi qadınların sağlamlığına və təhlükəsizliyinə ciddi təsir göstərir.** Su çatışmazlığı, dəyişən su dövranı və daşqınlar, quraqlıqlar kimi ekstremal hava hadisələri qadınlara qeyri-proporsional olaraq təsir edir, çünki onlar əsas qayğı göstərənlər və su idarəediciləridir. Qlobal miqyasda qadınlar 2%-dən az torpağa sahibdirlər ki, bu da onların su resursları üzərində qərar qəbul etmə gücünü məhdudlaşdırır. İqlim dəyişikliyindən qaynaqlanan suya çıxış və keyfiyyət problemləri, xüsusilə yoxsul kənd qadınları arasında qida təhlükəsizliyinə və sanitariyaya təsir edir. Bu dinamiklər həssaslıqları daha da artırır və iqtisadi və sosial sistemlərdə gender bərabərsizliyini dərinləşdirir.

Hazırda müşahidə olunan **temperatur artımı (təxminən 0,7°C) bir çox cəmiyyətdə sağlamlığa ciddi təsir edir.** İsti hava dalğaları, daşqınlar və fırtınalar kimi ekstremal hava hadisələrinin artması iqlimlə bağlı təbii fəlakətlərdən ölüm və xəsarət hallarının artmasına səbəb olur. Tədqiqatlara görə, artıq 3,6 milyard insan iqlim dəyişikliyinə həssas olan bölgələrdə yaşayır. 2030-2050-ci illər arasında iqlim dəyişikliyinin təkcə qidalanma çatışmazlığı, malyariya, ishal və istilik stressindən hər il təxminən 250 000 əlavə ölümə səbəb olacağı proqnozlaşdırılır. Sağlamlığa birbaşa ziyan xərclərinin 2030-cu ilə qədər ildə 2-4 milyard ABŞ dolları arasında olması gözlənilir. Əsasən inkişaf etməkdə olan ölkələrdə zəif sağlamlıq infrastrukturu olan ərazilər hazırlıq və cavab tədbirləri üçün yardım olmadan bu təsirlərə qarşı çıxmaqda daha çətinlik çəkəcəkdir.[25]

---

*Link 25*

**Ətraf mühitin deqradasiyası və iqlim dəyişikliyi** ilə əlaqəli sağlamlıq məsələləri də xüsusilə reproduktiv sağlamlıq baxımından qadınlara qeyri-proporsional təsir göstərir. Çirkləndiricilərə məruz qalma və qidalanma çatışmazlığı ciddi reproduktiv problemlərə, məsələn, endokrin pozğunluqlara və hamiləlikdə çətinliklərə səbəb ola bilər. Araşdırmalar göstərir ki, qadınlar daşqınlar, ekstremal istilik və digər təbii fəlakətlərdən sağlamlıq baxımından daha çox təsir görürlər, çünki onlar əsas qayğı göstərən vəzifələrə malikdirlər və sosial gözləntilərlə üzləşirlər. Məsələn, 147 ölkədə aparılan bir tədqiqatda qadınların təbii fəlakətlər zamanı kişilərlə müqayisədə daha çox həyatını itirməsi və ya daha erkən yaşda həyatını itirməsi (xüsusilə gender bərabərliyinin aşağı olduğu bölgələrdə) müşahidə olunmuşdur. [26]

**Psixoloji təsirlər** də fəlakət zonalarında yaşayan qadınlar arasında daha kəskin olur. Fəlakətlər zamanı sıxlıq və icma strukturlarının pozulması qadınlara qarşı zorakılıq, o cümlədən məişət və cinsi zorakılıq riskini artırır. Bu risklər, məhrəmliyin məhdud olduğu və dolanışıq vasitələrinin pozulduğu şəraitdə daha yüksək olur. 2016-cı ildə Hindistanda UNICEF tərəfindən aparılan bir tədqiqatda, quraqlıqlar zamanı qadınlara qarşı zorakılığın artması, o cümlədən insan alveri və uşaq əməyi kimi hallar vurğulanmışdır.

**Təbii fəlakətlərdən sonra qadınlar məişət və cinsi zorakılığa daha çox məruz qala bilərlər** və qorxu səbəbindən sığınacaqlardan istifadə etməkdən çəkinirlər. Xüsusilə ailələrin məcburi köç etməsi və müvəqqəti və ya fövqəladə mənzillərdə yaşaması hallarında psixoloji stress artır. İnsanların sıx yaşaması, məhrəmliyin olmaması və həyat rutinlərinin və dolanışıq vasitələrinin çökməsi qəzəb, narazılıq və zorakılığın artmasına səbəb ola bilər ki, bu da qadınlar və uşaqlar üçün daha ciddi risk yaradır. Cenevrədə Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyasının (IFRC) "Dünya Fəlakət Hesabatı"na əsasən[27], təbii fəlakətlərdən sonra qadınlara qarşı şiddət hallarının artdığı müşahidə edilmişdir.[28] UNICEF-in 2016-cı ildə Hindistanda apardığı tədqiqat quraqlıqlar zamanı qadınlar və uşaqlara qarşı şiddət hallarının, o cümlədən uşaq əməyinin, insan alverinin, qadınların fahişəliyə məcbur edilməsinin və femisid hallarının artdığını göstərib. Efiopiyada isə quraqlıqdan təsirlənmiş bölgələrdə erkən yaşlarda qızların nikaha məcbur edilməsi hallarında artım qeydə alınmışdır.

**Su ilə bağlı uyğunlaşmada** gender məsələləri Milli Fəaliyyət Planı (National Adaptation Plan – NAP) prosesinin əvvəlindən nəzərə alınmalıdır. Bu, genderə bağlı rollar və məsuliyyətlər səbəbindən kişilərin və qadınların su ilə bağlı iqlim təsirlərini necə fərqli yaşadıqlarını tam şəkildə anlamağa və buna əsasən effektiv uyğunlaşma müdaxilələrinin hazırlanmasına kömək edəcək. Gender üzrə NAP-ın hazırlanması və həyata keçirilməsinə inteqrasiyası həm kişilərin, həm də qadınların uyğunlaşma və həssaslığın azaldılması proseslərinə fəal və səmərəli töhfə vermələrini təmin edə bilər. Bu yanaşma iqlim dəyişikliyinə qarşı cavab tədbirlərindən yaranan imkanlara və potensial faydalara bərabər çıxışı təmin edə bilər.[29]

---

*Link 26*
*Link 27*
*Link 28*
*Link 29*

Qadınlar tez-tez ailənin əsas qayğıkeş fərdləri kimi çıxış edir və ailə üzvlərinə, heyvandarlığa qayğı göstərməklə yanaşı yemək bişirmək, içməli su təmin etmək kimi vəzifələri öz üzərlərinə götürürlər. Bu məsuliyyətlər səbəbindən qadınlar tez-tez su ilə dolmuş ərazilərdə (su ilə dolu çuxur, palçıqlı ərazi, və.s) və oxşar şəraitdə vaxt keçirirlər. Araşdırmalar göstərir ki, ərazilərin su basması icmalardakı qadınların sağlamlıq vəziyyətinə ciddi təsir edir.[30, 31]

Quraqlıq dövrlərinin uzanması yanacaq, ərzaq və su çatışmazlığı, münaqişələr, kütləvi miqrasiya, yoxsulluğun artması, yanğınların riskinin yüksəlməsi, yanacaq mənbələrinin azalması və səhiyyəyə çıxış imkanlarının məhdudlaşması ilə bağlıdır. Mövcud olan azsaylı tədqiqatlar quraqlığın qadınlara və kişilərə fərqli təsir etdiyini göstərir.

## İqlim dəyişikliyi ilə mübarizə: genderə təsirlərinin azaldılmasında sosial normalar və gözləntilərin rolu

İqlim dəyişikliyinin təsirləri əksər hallarda qadın və kişi arasında fərqlilik göstərə bilər, bu da onların həssaslığı, iqlim dəyişikliyinə qarşı görülən tədbirlərin faydaları və qərar qəbul etmədə iştirakları ilə bağlı fərqlərdən irəli gəlir. 2019-cu ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Adaptasiya Komitəsinin Katibliyinin hazırladığı hesabatda qeyd olunmuşdur ki, bu fərqlər qadın və kişilərin təbiətlərindən deyil, güc münasibətlərindəki bərabərsizliklərdən, resurslara və onların idarə olunmasına bərabər çıxış imkanlarının olmamasından, habelə ayrı-seçkilik yaradan qanunlardan və adətlərdən qaynaqlanır. Həmçinin bu fərqlər yaş, etnik mənsubiyyət, əlillik və ya sosial-iqtisadi status kimi digər kəsişən bərabərsizliklərdən də meydana gələ bilər. Genderin sosial quruluşu (konstruksiya) səbəbindən hər bir cəmiyyətdə genderə dair qanunlar, normalar və adətlər fərqli ola bilər. Bu o deməkdir ki, bu qanunlar, normalar və adətlər dəyişdirilə bilər ki, qadınlar, kişilər, qızlar və oğlanlar bərabər şəkildə iqlim dəyişikliyinə qarşı tədbirlər görməyə və uyğunlaşmağa imkan əldə etsinlər.

Məsələn, qadınlar və qızlar təbiətcə kişilərdən daha həssas deyillər. Əksinə, iqlim hadisələrinə həssaslıq, insanların resurslara və informasiyaya çıxışına, iştirakına və ya xidmətlərdən yararlanmasına, öyrəndiyi sağ qalma bacarıqlarına və davranış seçimlərinə təsir edən sosial və gender normalarından qaynaqlanır. 90% qadın ölümünün baş verdiyi Banqladeş Siklonu (1991) zamanı, Banqladeş qadınlarının evdə qalması ilə bağlı ictimai gözləntilər onların məlumat əldə etmələrini məhdudlaşdırmış və kişi qohum olmadan təxliyə olunma ehtimalını azaltmışdır. Bundan əlavə, Banqladeşdə çox az qadın üzməyi öyrədilir. Digər tərəfdən, bəzi hallarda məhz kişilərin təbii fəlakət zamanı daha çox ölümə məruz qaldığı məlum olub. Məsələn, ABŞ-da baş verən bəzi qasırğalar və fırtınalar zamanı, və Avstraliyada hökm sürən yanğınlar zamanı kişilər arasında ölüm nisbəti daha yüksək idi. Bu fərq, kişilərin təcili yardım vəzifələrində (fövqəladə cavab qrupları) daha çox təmsil olunması və su basmış yollarda maşın sürmək və ya öz şəxsi əmlakı qorumaq üçün təxliyə olunmaqdan imtina etmək kimi riskli davranışlara daha çox meylli olmaqları ilə izah olunur.

---

*Link 30*
*Link 31*

Bəzi tədqiqatlar göstərir ki, qadınlar kişilərə nisbətən ətraf mühit və iqlim dəyişikliyinin təsirləri barədə daha çox narahatdırlar və buna görə də çox vaxt uyğunlaşma və mitiqasiya tədbirlərini dəstəkləyən və erkən tədbir görənlər arasında yer alırlar. Müəyyən çirkləndirici və ya dayanıqlı davranış nümunələri kişilərə və ya qadınlara xas olaraq qəbul edilə bilər və bu, insanların həmin davranışlara dəstək verməsi və ya verməməsinə təsir göstərə bilər. Belə davranış seçimləri sırasında ət istehlakı, yüksək sürətlə maşın sürmək və ümumi nəqliyyat növü seçimi misal çəkilə bilər. Dünyada qadınlıq dəyərdən salındığı halda, bəzi kişilərin ətraf mühitə qarşı qayğı göstərən seçimlərdən qaçdığı müəyyən edilib, çünki bu seçimlər sırf qadınlarla əlaqələndirilir.

Aşağı karbon emissiyalı iqtisadiyyata keçid zamanı kişilər daha çox təsirlərə məruz qala bilər, çünki onlar müvafiq sahələrdə daha çox təmsil olunurlar. Xüsusilə aşağı ödənişli işlərdə olanlar bu dəyişikliklərə qarşı həssasdır. Ədalətli keçid, gender, sosial sinif, etnik mənsubiyyət və s. əsasında əvvəlcədən mövcud olan və tarixən formalaşmış bərabərsizliklərin nəzərə alınması deməkdir. Yeni dayanıqlı və aşağı karbonlu sistemlərə sürətli keçid üçün tələb olunan bacarıqlar və insan kapitalı mövcud olmalıdır. Bu sektorlarda qadınlar ciddi şəkildə təmsil olunmur; bərpa olunan enerji üzrə STEM işlərində qadınların payı 28%-dir[32] . Buna görə də qadınların və qızların təhsilinə sərmayə qoymaq, onların iş bazarına daxil olmasına və karyera inkişafına maneələri aradan qaldırmaq iqlim böhranının həlli üçün mühüm addımlardır.

## Qlobal iqlim dəyişikliyi ilə mübarizədə gender amili

**Paris Sazişi** öz preambulasında "iqlim dəyişikliyinin bütün bəşəriyyət üçün ümumi bir narahatlıq olduğunu" qeyd edir və Tərəflərə iqlim dəyişikliyi ilə mübarizə aparаrkən insan hüquqları, sağlamlıq hüququ, yerli xalqların, yerli icmaların, köçkünlərin, uşaqların, əlilliyi olan şəxslərin və həssas vəziyyətdə olan insanların hüquqları və inkişaf hüququ, eləcə də gender bərabərliyi, qadınların gücləndirilməsi və nəsillərarası ədalət kimi öhdəliklərinə hörmət etməyi, təşviq etməyi və nəzərə almağı tövsiyə edir. Sazişdə həmçinin genderə həssas uyğunlaşma tədbirlərinə (Maddə 7) və potensialın artırılmasına (Maddə 11) istinad edilir. **BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası** çərçivəsində genderə dair əsas qərar, gücləndirilmiş **Gender üzrə Lima İş Proqramı** (LWPG) və onun **Gender Fəaliyyət Planıdır** (GAP) (3/CP.25 qərarı). Bu proqram əvvəlki LWPG-yə (18/CP.20 və 21/CP.22 qərarları) və ilk GAP-a (3/CP.23 qərarı) əsaslanır. LWPG və GAP, genderə həssas iqlim siyasətinin və tədbirlərinin bütün səviyyələrdə həyata keçirilməsini və UNFCCC prosesində gender balansının təmin edilməsini dəstəkləyir. Həmçinin LWPG və GAP, Konvensiya çərçivəsində həyata keçirilən fəaliyyətlərdə bütün müvafiq hədəf və məqsədlərdə genderin əsas istiqamətə yönəldilməsinə davam edən ehtiyacı qəbul edir və bunun tədbirlərin effektivliyinin, ədalətliliyinin və dayanıqlılığının artırılmasına mühüm töhfə olduğunu vurğulayır.

*Link 32*

## LWPG

- Uzunmüddətli və açıq sonlu fəaliyyətlər
- Katibliyin mütəmadi funksiyaları davam edir
- Gender Fəaliyyət Planı (GAP) Gender üzrə Lima İş Proqramının (LWPG) əlavəsində yer alır
- 2024-cü ilin Noyabrında Bakıda keçirilən COP29 sessiyasında Tərəflər gücləndirilmiş Lima İş Proqramının yekun baxışını tamamlayaraq onu 10 il müddətinə uzatdılar

## GAP

- 5 prioritet sahə üzrə məqsədlər
- 20 fəaliyyət planlaşdırılıb
- 35 nəticə gözlənilir
- Yeni Gender Fəaliyyət Planının hazırlanmasına SBI 62-də (İyun 2025) başlanacaq və layihənin ilkin qərarının COP30-da (Noyabr 2025) müzakirə və qəbul edilməsi nəzərdə tutulur

Gender **Fəaliyyət Planı** (GAP) çərçivəsində iqlim dəyişikliyi ilə mübarizədə gender məsələlərinin nəzərə alınmasının artırılması məqsədilə konkret tədbirlər həyata keçirilir. GAP-ın əsas məqsədlərindən biri qadınların liderliyini və gender perspektivinin iqlim tədbirlərinə inteqrasiyasını gücləndirməkdir. Bu kontekstdə təsis edilmiş qurumların sədrləri arasında gender perspektivinin işlərinə necə daha yaxşı inteqrasiya edilməsi ilə bağlı baxışların və ən yaxşı təcrübələrin mübadiləsinin asanlaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Bu mübadilə, bu qərarın 15(b) bəndində qeyd olunan təsis edilmiş qurum proseslərinə gender perspektivinin inteqrasiyası üzrə irəliləyişlərə dair sintez hesabatlarını da nəzərə alır. Bundan əlavə, Konvensiya və Paris Sazişi çərçivəsində yaranan subsidiar qurumların gender məsələləri üzrə işlərinin və digər BMT qurumları və prosesləri, xüsusən də **Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi** ilə əlaqələndirilməsinin gücləndirilməsi vacibdir. Bu yanaşma gender bərabərliyinin bütün səviyyələrdə təmin olunmasına və iqlim tədbirlərinin daha ədalətli həyata keçirilməsinə töhfə verə bilər. Bununla yanaşı, iqlim dəyişikliyinə qarşı mübarizədə genderə həssas texnoloji həllərin tətbiqinin təşviqi də vacibdir. Bu məqsədlə yerli və ənənəvi bilik və təcrübələrin müxtəlif sektorlarda gücləndirilməsi, qorunması və saxlanılması, həmçinin qadınların və qızların elm, texnologiya, tədqiqat və inkişaf sahələrində tam iştirakı və liderliyi dəstəklənməlidir. Bu yanaşma iqlim dəyişikliklərinə qarşı daha dayanıqlı həllərin tapılmasına və qadınların bu prosesdə aparıcı rol oynamasına töhfə verəcəkdir.

**Prioritet Sahə 1**
- Bacarıqların artırılması
- Biliklərin İdarə Edilməsi
- Ünsiyyət

**Prioritet Sahə 2**
- Gender Balansı
- İştirakçılıq
- Qadın Liderliyi

**Prioritet Sahə 3**
- Uyğunluq və Birlik

**Prioritet Sahə 4**
- Genderə həssas icra və icra vasitələri

**Prioritet Sahə 5**
- Monitorinq və hesabatvermə

## Müsahibədən əldə edilən vacib məqamlar

**1.Gender və Fərqli Həssaslıq:**
İqlim dəyişikliyi qadınlar və kişilərə müxtəlif şəkildə təsir edir. Qadınların mövcud gender bərabərsizliyi səbəbindən iqlim dəyişikliyi qarşısında daha həssas olduğu vurğulanır. Müsahibələrdə qeyd olunduğu kimi, qadınların resurslara çıxış imkanları və qərar qəbuletmə proseslərində iştirakları məhduddur ki, bu da onların uyğunlaşma tədbirlərindən faydalanmasını çətinləşdirir. Məsələn, qadınlar kənd təsərrüfatı işçi qüvvəsinin 43%-ni təşkil etsə də, torpaq sahiblərinin yalnız 12.8%-i təşkil edir. (UNEP, 2018). Bu, qadınların uyğunlaşma tədbirlərini dəstəkləmək üçün maliyyələşmə və sosial xidmətlərə çıxışını məhdudlaşdırır. Belə hallar mövcud gender bərabərsizliyi səbəbindən qadınların iqlim dəyişikliyi qarşısında daha həssas olduğunu göstərir.

**2. Gender Aspektlərini Nəzərə Almayan Yanaşmaların Riskləri:**
Gender aspektlərini nəzərə almayan yanaşmalar mövcud bərabərsizlikləri daha da gücləndirə bilər. Məsələn, uyğunlaşma tədbirləri genderin xüsusi ehtiyaclarını nəzərə almadan həyata keçirildikdə, bu, həssaslığı daha da dərinləşdirə və uyğunlaşmanın effektivliyini azalda bilər. Müsahibələr zaman müzakirə olunduğu kimi, böhran və çatışmazlıq dövrlərində qadınların daha çox yeməkdən imtina etməsi və ya istehlakı azaltması onların qida təhlükəsizliyinə və qidalanmasına ciddi təsir göstərir, bu da mövcud sosial ədalətsizliyi artırır. Qlobal səviyyədə reproduktiv yaş dövründə olan hər üç qadından biri anemiya ilə mübarizə aparır ki, bu da qadınlar və onların uşaqları üçün əhəmiyyətli sağlamlıq və inkişaf nəticələrinə səbəb olur (FAO, 2018).

**3. Qadınların Potensialı və Liderlik Rolu:**
Qadınların iqlim dəyişikliyinə uyğunlaşma tədbirlərində potensialının və liderlik rolunun gücləndirilməsi cəmiyyətin uyğunlaşma qabiliyyətini artırmaq üçün vacibdir. Məsələn, Sakit Okean Adalarında qadınların ada hidroloji bilikləri içməli su tapmaq üçün istifadə edilmişdir. Bu, qadınların yerli biliklərini uyğunlaşma səylərinə daxil etməklə cəmiyyətin dayanıqlığını artırmağa töhfə verdiyini göstərir. Belə töhfələrin qadınların uyğunlaşma tədbirlərində lider kimi çıxış etməsi ilə həm dayanıqlığı, həm də gender bərabərliyini gücləndirməsi müsahibələr zamanı xüsusilə vurğulanmışdır.

**4. İnklüziv Qərar Qəbuletmə:**
Qadınların iqlim tədbirlərində iştirakının artırılması təcrübə və bilik müxtəlifliyini təmin edir. Dimitra Klubları buna bir nümunədir – Sub-Sahara Afrika ölkələrindəki (Niger, Burundi, Konqo DR) kənd icmalarında qadınların, kişilərin, oğlanların və qızların problemləri və ehtiyacları birgə müzakirə etdikləri dialoq və fəaliyyət məkanıdır. Beləliklə, onlar kənd təsərrüfatı və mühüm sosial sahələrdə (erkən evlilik, sosial birlik, gender bərabərliyi və qadınların resurslara çıxış hüquqları) dəyişikliklərin və inkişafın agentlərinə çevrilirlər, bu da inklüziv və genderə uyğun yanaşmanın əhəmiyyətini vurğulayır.

**5. Gender Həssas Tədbirlər və Bərabərsizliklərin Azaldılması:**
Genderə həssas uyğunlaşma tədbirləri fərqli ehtiyacları daha yaxşı hədəfləməklə tədbirləri daha təsirli və səmərəli edir, həm də gender bərabərsizliyinin aradan qaldırılmasına və daha çox innovasiyaya nail olunmasına kömək edir. Dimitra Klubları nümunəsinə istinad edərək, onların vasitəsilə kənd icmalarında qadınların sosial mövqeyi gücləndirilir, gender rollarına dair stereotiplər aradan qaldırılır və qadınların resurslara çıxışı artırılır. Bu cür tədbirlər, gender münasibətlərinin dəyişdirilməsi və sosial ədalətliliyin təmin edilməsi üçün vacibdir.

# Tövsiyələr

Araşdırmanın keyfiyyət və kəmiyyət təhlili nəticələri əsasında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi üçün Tövsiyələr aşağıdakı mövzular üzrə qruplaşdırılmışdır:

- İqtisadi dayanıqlılıq və məşğulluq
- Kənd təsərrüfatı və resurslara çıxış
- Sosial dayanıqlılıq və sağlamlıq xidmətləri
- İqlim dəyişikliyinə qarşı dayanıqlılıq və mübarizə
- Gender bərabərliyi və iştirakçılıq

## İqtisadi dayanıqlılıq və məşğulluq üzrə əsas tövsiyələr

| İstiqamət | Tövsiyə |
|---|---|
| Siyasət Strategiyası | • İqlim dəyişikliyi siyasətlərinə gender aspektini nəzərə alan yanaşmadan (Gender Mainstreaming) istifadə etməklə yenidən baxılması və təkmilləşdirilməsi<br>• Mitiqasiya və uyğunlaşma tədbirlərinin maliyyələşdirilməsi prosesində gender əsaslı prinsipləri nəzərə alınması (dövlət büdcəsinə sistematik metodoloji alət olan Gender Həssas Büdcələşdirmə (GRB) metodunun tətbiqi) |
| Aktivlərə, resusrlara çıxışın artırılması | • Fəlakət riskinin aradan qaldırılması sahəsində müxtəlif qurumların gender həssaslığının artırılması<br>• Qadınların əmlaklarının sığortalanması və qorunması sahəsində məlumatsızlıqlarının azaldılması üçün təlimlər təşkil edilməsi.<br>• Qadınların maliyyə təhlükəsizliyini gücləndirmək məqsədi ilə aktivlərə çıxış və sığorta xidmətləri haqqında məlumatlandırıcı regional seminarların keçirilməsi.<br>• Kapitala, təlimlərə, texniki yardıma, maliyyə xidmətlərinə və texnologiyalara çıxışın artırılması |
| Biznes və sahibkarlıq fəaliyyətlərində dəstək göstərilməsi | • Qadın sahibkarların “yaşıl biznes”ə daha çox cəlb olunması üçün vergi güzəştləri və xüsusi güzəştli kredit imkanlarının yaradılması.<br>• Gender həssas qayğı siyasətlərinin formalaşdırılması |

## Kənd təsərrüfatı və resurslara çıxış

| İstiqamət | Tövsiyə |
|---|---|
| Kənd təsərrüfatı sahəsində resursların idarə olunmasında qadınlara dəstək verilməsi | • Qadınların kənd təsərrüfatı fəaliyyətlərində dayanıqlı texnologiyaları (məsələn, ekoloji texnologiyalar və su səmərəliyi tədbirləri) haqqında məlumatlılığını artırmaq üçün xüsusi təlim proqramlarının keçirilməsi.<br>• Qadınların kənd təsərrüfatı resurslarına və torpaq mülkiyyətinə çıxışını artırmaq üçün hüquqi dəstək proqramlarının yaradılması. Keyfiyyət təhlilində vurğulanan qadınların torpaq mülkiyyəti ilə bağlı problemini nəzərə alaraq, bu təlimlər qadınların mülkiyyət hüquqlarını qorumağa və mövcud qanunvericilikdən daha çox yararlanmağa kömək edəcək |
| Su təchizatı və istifadəsi üzrə dəstək verilməsi | • Məişətdə su toplama və paylama sahəsində qadınların əsas yük daşıyıcıları olduğu nəzərə alınaraq, onların su təminatını optimallaşdıran texnologiya və üsullara çıxışını artırmaq üçün qrantlar və dəstək proqramlarının təmin edilməsi.<br>• Su ehtiyatlarının daha effektiv idarə olunması üçün kənd təsərrüfatında qadınlar üçün su yığma və suvarma texnologiyalarının əlçatan edilməsi. Araşdırmada su təminatının iqlim dəyişikliklərindən daha çox təsirləndiyi vurğulandığı üçün qadın fermerlərə suya qənaət texnologiyalarının istifadəsi öyrədilməlidir. |
| İqlimə dayanıqlı kənd təsərrüfatı təcrübələrinin təşviqində dəstək verilməsi | • Qadınlara iqlim dəyişikliyinin təsirlərinə uyğun dayanıqlı kənd təsərrüfatı təcrübələrini öyrətmək üçün ekoloji təlimlərin keçirilməsi. Təlimlər suya qənaət, torpaq eroziyasının qarşısının alınması və davamlı toxum istifadəsi kimi mövzuları əhatə edə bilər. |
| İcma qruplarının yaradılmasına dəstək göstərilməsi | • Qadın fermerlər üçün yerli icma qrupları yaradılmalı və bu qruplarda qarşılıqlı təcrübə mübadiləsinin aparılması.<br>• Bu yolla qadınlar həm öz təsərrüfatlarını daha dayanıqlı etmək, həm də kənd təsərrüfatında mövcud imkanlardan daha effektiv istifadə etmək üçün dəstək ala bilərlər. |

## Sosial dayanıqlılıq və sağlamlıq xidmətləri

| İstiqamət | Tövsiyə |
|---|---|
| Səhiyyə xidmətlərinə çıxışın təmin edilməsi | • Qadınların keyfiyyətli səhiyyə xidmətlərinə daha asan çıxışını təmin etmək üçün kənd və qəsəbələrdə səhiyyə xidmətlərinin əlçatanlığını artıran tədbirlərin həyata keçirilməsi.<br>• Əlavə olaraq, təcili tibbi yardım və zəruri dərman vasitələrinin bölgələrə çatdırılması üçün logistika imkanlarının gücləndirilməsi. |
| Psixoloji sağlamlıq dəstəyi verilməsi | • İqlim dəyişikliyinin yaratdığı stress və narahatçılığın qadınlara psixoloji təsirlərini azaltmaq məqsədilə kənd ərazilərində psixoloji məsləhət və dəstək xidmətlərinin qurulması. |

## İqlim dəyişikliyinə qarşı dayanıqlılıq və hazırlıq

| İstiqamət | Tövsiyə |
|---|---|
| İqlim dəyişikliyi üzrə məlumatlılığın artırılması | • Kənd yerlərində məskunlaşan qadınların iqlim dəyişikliyinin təsirlərinə uyğunlaşmasını təmin etmək üçün maarifləndirici proqramlara cəlb edilməsi. Həmçinin fəlakət riskinin idarə olunması mövzusunda qadınlar üçün maarifləndirici təlimlərin təşkil olunması və yerli icmalarda dəstək mexanizmlərinin gücləndirilməsi. |
| Resurslara çıxışın təmin edilməsi | • Qadınların kənd təsərrüfatı texnologiyalarına və dayanıqlı təcrübələrə çıxış imkanlarını artırmaq üçün onların resurslara bərabər çıxışını təmin edən proqramların hazırlanması və şəhər-kənd fərqini azaltmaq üçün dəstək mexanizmlərinin tətbiq edilməsi. |
| İqlim dəyişikliyi ilə mübarizə strategiyalarının hazırlanmasında dəstək göstərilməsi | • İqlim dəyişikliyinə bağlı baş verə biləcək fəlakətlər zamanı qadın və uşaqların təhlükəsizliyini təmin etmək üçün xüsusi təlimlərin keçirilməsi.<br>• İqlim dəyişikliyini yaradacağı potensial 'Fəlakət' risklərinin idarə edilməsi üzrə strategiyalarda gender həssas təlimatların hazırlanması və tətbiq olunması.<br>*Bu, fəlakətlər zamanı qadınların və uşaqların ehtiyaclarını nəzərə alan bir yanaşma təmin edər.* |

## Gender bərabərliyi və iştirakçılıq

| İstiqamət | Tövsiyə |
|---|---|
| Qərar qəbuletmə prosesində qadınların rolunun artırılması | • Qadınların yerli və regional səviyyədə iqlim dəyişikliyi ilə bağlı qərar qəbuletmə proseslərində daha çox iştirakını təmin etmək, və eyni zamanda onların təmsilçiliyini artırmaq məqsədilə gender balansını nəzərə alan tədbirlərin həyata keçirilməsi.<br>• Qadınların milli, regional və aşağı səviyyələrdə su ehtiyatlarının idarə edilməsində bərabər iştirakının təmin edilməsi |
| Zorakılıq halları və.s kimi gender əsaslı problemlərin həllində sosial yardım xidmətlərinə dəstəyin göstərilməsi | • İqlim dəyişikliyi səbəbilə zorakılıq riskinin artdığı nəzərə alınaraq, zorakılıq hallarının qarşısının alınması üçün qadınların müdafiəsi üzrə tədbirlər, məsləhət və yardım xidmətlərinin gücləndirilməsi.<br>• Məişət zorakılığının erkən aşkarlanmasını təmin etmək üçün zəruri potensialın gücləndirilməsi |
| Gender bərabərliyini təşviq edən maarifləndirmə kampaniyalarının həyata keçirilməsi | • Cəmiyyətdə qadınların rolunun və qərar qəbuletmədə iştirakının vacibliyini vurğulayan maarifləndirmə kampaniyaların həyata keçirilməsi.<br>*Bu, həm qadınların hüquqlarını qorumağa, həm də gender bərabərliyinə dair müsbət dəyişikliklər yaratmağa töhfə verə bilər.* |

# Tövsiyələr üzrə müxtəlif ölkələrin nümunələri

| Ölkə | İstiqamət | Nümunə |
|---|---|---|
| Hindistan  | Maliyyə dəstəyi və mikro-kredit | • Hindistanın **Self-Employed Women's Association (SEWA)** adlı qeyri-hökumət təşkilatı, qadınlara mikro-kredit dəstəyi verərək kiçik sahibkarlıq fəaliyyətlərini dəstəkləyir. SEWA vasitəsilə qadınlar öz təsərrüfatlarını qurmaq və ailələrinə dayanıqlı gəlir təmin etmək üçün maliyyə dəstəyi alırlar.[33] |
| Türkiyə  | Sosial dəstək və ailə rifahı | • Türkiyədə **KAGİDER – Women Entrepreneurs Association** qadınların biznesdə iştirakını artırmaq üçün sosial dəstək proqramları təşkil edir. Proqram qadınlara hüquqi, maliyyə, marketinq və idarəetmə üzrə təlim və dəstək təmin edir.[34] |
| BMT (Asiya və Sakit Okean)  | İqlim dəyişikliyi | • UN Women (**Women's Resilience to Disaster Program**) proqram qadınların və qızların fəlakət risklərini idarə etmək və iqlim dəyişikliyinə uyğunlaşma bacarıqlarını artırmaq üçün hazırlanmışdır.<br>• Proqram, qadınların icma səviyyəsində liderlik etmələrini, dayanıqlı kənd təsərrüfatı və su idarəetmə kimi sahələrdə bilik və təcrübələrini inkişaf etdirməyi hədəfləyir.[35] |
| CARE, Afrika ölkələri | İqlim dəyişikliyi | • **CARE** təşkilatının iqlim dəyişikliyi və dayanıqlılıq proqramı qadınların kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində iqlim dəyişikliyinə uyğunlaşmasını təmin edir.[36]<br>• Proqram qadınlara ekoloji təcrübələr, dayanıqlı kənd təsərrüfatı və gəlir mənbələrini şaxələndirmə kimi mövzularda dəstək verir. |

*Link 33*
*Link 34*
*Link 35*
*Link 36*

| | | |
|---|---|---|
| Müxtəlif ölkələr<br> | İqlim dəyişikliyi – liderlik və qərar qəbuletmə | • **Global Climate Justice Program** iqlim dəyişikliyi ilə mübarizədə qadınların liderlik imkanlarını gücləndirmək üçün maliyyə dəstəyi verir.[37]<br>• Proqram qadınlara iqlim dəyişikliklərinə uyğunlaşma, su resurslarının idarə olunması və qida istehsalında dayanıqlılıq yaratmaq üçün qrantlar təmin edir. |
| Gürcüstan<br> | İqlim dəyişikliyi – uyğunlaşma | • Gürcüstanda iqlim dəyişikliyinə uyğunlaşma və fəlakət riskinin azaldılması üçün 2019-cu ildə başlanan bu proqram, əsasən kənd yerlərində və qadın icmalarında fəlakət riskini idarəetmə və dayanıqlılıq tədbirlərini gücləndirməyi hədəfləyir.[38]<br>• Bu təşəbbüs, Gürcüstanın bir çox çay hövzəsində daşqınlardan qorunmaq üçün erkən xəbərdarlıq sistemləri, mühafizə infrastrukturunun qurulması və iqlim maarifləndirməsini gücləndirmək üçün təlim proqramlarını ehtiva edir. |
| Nepal<br> | İqlim Dəyişikliyi üzə Siyasət (2019) (2015-ci il Konstitusiyasına istinadən) | **İqlim Dəyişikliyi üzə Siyasət (2019) (2015-ci il Konstitusiyasına istinadən)**<br>• Bərabərlik, təmiz ətraf mühit, səhiyyə və yaşayış yeri kimi əsas hüquqların tanınması<br>• Sağlamlıq və səhiyyə xidmətlərinə çıxış hüquqlarının təmin olunması.<br>• Qadın hüquqlarınının müdafiəsi, o cümlədən, zorakılığa, cinsi ayrı-seçkiliyə qarşı çıxır və təhsil, səhiyyə və məşğulluq sahələrində pozitiv ayrı-seçkilik vasitəsilə bərabər imkanların təmin edilməsi kimi məsələlər qeyd olunan Siyasətdə əhatə olunmuşdur. |

*Link 37*
*Link 38*

| | | |
|---|---|---|
| Nepal<br> | Gender bərabərliyi, ətraf mühit | • Nepalın 2015-ci il Konstitusiyası inklüzivliyi ilə seçilir və ətraf mühit, sağlamlıq, kompensasiya hüquqları ilə yanaşı, ətraf mühitin qorunması ilə inkişaf arasında balansı vurğulayır.<br>• Konstitusiyanın 3-cü bölməsi bərabərlik, mülkiyyət, təmiz ətraf mühit, sağlamlıq, mənzil və qadın hüquqları daxil olmaqla 32 əsas hüququ əhatə edir.<br>  ○ Maddə 30: Sağlam və təmiz mühit hüququnu təmin edir, ətraf mühitə zərər yetirənlərdən kompensasiya tələb edir və ətraf mühitin qorunması ilə inkişaf arasında balans yaradılmasını nəzərdə tutur.<br>  ○ Maddə 38: Qadınların hüquqlarını vurğulayır, zorakılığı qadağan edir, dövlət qurumlarına çıxışı təmin edir, təhlükəsiz ana olma hüququ verir və əmlak və ailə məsələlərində bərabər hüquqlar təklif edir. |
| İspaniya<br> | Gender bərabərliyi | **2007-ci ildə qəbul olunmuş Gender Bərabərliyi üzrə Qanun**<br>• Siyasətlərin və büdcələrin hazırlanmasında gender aspektlərinin tətbiqinin bütün dövlət qurumlarında institusionallaşdırılması<br>• Bütün nazirliklərdə gender bərabərliyinin təşviq edilməsi, statistikanın aparılması və qanunun icrasını təmin etmək üçün bərabərliyin təmin edilməsi. |
| Şimali Makedoniya<br> | İqlim dəyişikliyi və gender | **İqlim Fəaliyyəti Qanunu (2021)**<br>• **Uzunmüddətli İqlim Fəaliyyəti Strategiyası və Fəaliyyət Planı** gender və gəncləri xüsusi olaraq əhatə edən fəsil və bölmə ilə təmin edilməsi<br>• Təhsil, tədqiqat, innovasiya, sosial inklüzivlik və gender bərabərliyi ilə bağlı milli strateji planlaşdırmaya iqlim dəyişikliyi aspektlərinin inteqrasiya edilməsi<br>• **Gender Bərabərliyi Strategiyası (2021–2026)** iqlim dəyişikliyini prioritet sahə kimi müəyyən edir və ekoloji mühafizə mexanizmlərinin gücləndirilməsi və genderə uyğun iqlim dəyişikliyi siyasətlərinin hazırlanmasını ehtiva edir. |

| | | |
|---|---|---|
| Monteneqro  | Gender bərabərliyi və iqlim dəyişikliyi | **Milli Gender Bərabərliyi Strategiyası (2021-2025)**<br>• Strategiyada çoxsektorlu yanaşma tətbiq edilməsi və gender bərabərliyi ilə iqlim dəyişikliyi tədbirlərinin müxtəlif sektorlarda daha geniş şəkildə müəyyənləşdirilməsi.<br>• İqlim dəyişikliyi siyasətləri ilə bağlı qərar qəbuletmə proseslərində qadınların iştirakı gücləndirilməsi.<br>• Gender-iqlim siyasətinin inkişafı və tətbiqi üçün institusional imkanların artırılması |

Azərbaycan qadınları kənd təsərrüfatında əhəmiyyətli töhfələr versələr də, rollar, imkanlar və tanınma baxımından sistemli bərabərsizliklərlə üzləşirlər. Qadınlar kənd təsərrüfatının demək olar ki, bütün sahələrində iştirak etsələr də, təsərrüfat rəhbərləri kimi az təmsil olunurlar və əsasən muzdlu işçi və ya mövsümi işçi kimi çalışırlar. Rəsmi statistika qadınların əsl iştirakını əks etdirmir, çünki bir çox qadın qeydiyyatsız şəkildə (müxtəlif sektorlarda) və ya kiçik ailə təsərrüfatlarında çalışır. Kənd əhalisi, xüsusən qadınlar, yoxsulluqdan qeyri-proporsional şəkildə təsirlənir, bu da onların resurslara və imkanlara çıxışını məhdudlaşdırır. Məsələn, Astaradan olan qadınlar Masallıda çiyələk və kartof yığımı zamanı mövsümi işçi kimi çalışırlar, ya da Siyəzən və Qobustan qadınları Qubada meyvə yığımında iştirak edirlər, yaxud Ağcabədinin Ərgi kəndində qadın muzdlu işçilər kimi soğan və pambıq yığırlar. 2023-cü ilin yanvarına aid rəsmi statistikaya əsasən, meşə təsərrüfatı, balıqçılıq və kənd təsərrüfatı sektorlarında çalışan işçilərin 23%-ni qadınlar, 77%-ni isə kişilər təşkil edir. Lakin bu rəqəmlər təsərrüfatlarda işləyən bütün qadın muzdlu işçilərin real sayını əks etdirmir, yalnız rəsmi qeydiyyata alınmış iqtisadi subyektlərdə çalışanları əhatə edir.

Dünya Bankının 2022-ci il üzrə məsələlər qeydi Azərbaycanın iqlim dəyişikliyinə məruz qalmasını vurğulayır və su idarəçiliyi, kənd təsərrüfatı və meşə təsərrüfatı kimi sektorların yaşıl inkişaf, iqlim təsirlərinin azaldılması və dayanıqlığın artırılmasında potensialını qeyd edir. Azərbaycanın son strategiyaları qlobal aşağı karbonlu inkişaf meyllərinə uyğun gəlir və 2021-ci ildə qəbul edilmiş “**Enerji Resurslarının Rasional İstifadəsi və Enerji Səmərəliliyi haqqında Qanun”** kimi qanunvericilik və siyasət islahatlarını prioritetləşdirir. Bu islahatlar, həmçinin, azad edilmiş ərazilərdə davamlı iqtisadi imkanlar yaratmaq və regional iqtisadi inteqrasiyaya töhfə verməyi hədəfləyir.

Bununla belə, Dünya Bankının tövsiyələrində gender perspektivi nəzərə alınmır. Məhsuldarlığı və insan kapitalının inkişafını artırmaq potensialına malik olan iqlimə uyğun kənd təsərrüfatı və yaşıl inkişaf sektorları qadınlar və kişilər üçün bərabər imkanları təmin etmək məsələsini əhatə etmir. Yaşıl keçidlərdə bərabər imkanları təmin etmək üçün daha inklüziv yanaşma vacibdir.

Azərbaycanın son strateji inkişaf planları qlobal aşağı karbonlu inkişaf trendlərini və neft iqtisadiyyatlarının uzunmüddətli çağırışlarını nəzərə alır. Hökumətin bir neçə sahədə qanunvericilik və siyasət islahatları apardığını vurğulayır. **"Enerji Resurslarının Rasional İstifadəsi və Enerji Səmərəliliyi haqqında Qanun"** 2021-ci ildə hazırlanmış və qəbul edilmişdir. Bundan əlavə, müvafiq azaldıcı tədbirləri nəzərdə tutan EU4Energy layihəsi çərçivəsində hazırlanan **"Enerji Səmərəliliyi üzrə Fəaliyyət Planı"**nın layihəsi də mövcuddur.[39]

Təmiz ətraf mühit və yaşıl inkişaf, 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinin prioritetləridir. Bu kontekstdə, Hökumət azad edilmiş ərazilərdə "yeni iqtisadi imkanlar yaratmağı" hədəfləyir. Bu baxımdan, azad edilmiş və münaqişədən təsirlənmiş ərazilərin davamlı şəkildə bərpası, yenidən qurulması və reinteqrasiyası qarşıdakı illərdə ölkənin əsas inkişaf prioritetlərindən biri olacaqdır. Azərbaycanın iqtisadi inkişafı və təbii resurslar kontekstini araşdıraraq hökumətin təmiz ətraf mühit və yaşıl inkişaf üzrə milli prioritetini həyata keçirməsinə dəstək vermək məqsədi daşıyır. Dünya Bankının qeydində yaşıl diversifikasiya ilə bağlı əsas məsələlər və mümkün müdaxilə intervensiya sahələri müzakirə olunur, analitik araşdırmalar və ayrı-ayrı hədəflər üzrə tədqiqatlar tələb edən mövzular vurğulanır. [40]

Azərbaycanın 2021-ci ildə hazırlanmış **Uzunmüddətli və Az Emissiyalı İnkişaf Strategiyası (LT-LEDS)** istixana qazlarının azaldılması vasitəsilə azaldıcı tədbirlər təqdim edir və kənd təsərrüfatı, enerji, nəqliyyat və tullantıların idarə edilməsi kimi **sektorlar (kənd təsərrüfatı, enerji, nəqliyyat və tullantıların idarə edilməsi) üzrə gender perspektivlərinə dair strateji planlaşdırma** kimi məsələri əhatə edir. Strategiya qadınların ehtiyacları və məhdudiyyətləri ilə bağlı ciddi məlumat çatışmazlığını müəyyən edir və bərabər qərar qəbuletmə prosesində gender təhlilinin əhəmiyyətini vurğulayır. Bu boşluqların aradan qaldırılması Azərbaycanın davamlı və bərabər inkişaf hədəflərinə çatması üçün vacibdir.

[39] *Azerbaijan: Towards Green Growth. Issues Note. September 2022. The World Bank Group*

[40] *Ibid*

# İcmal

## Yekun nəticələr

Aparılmış araşdırma iqlim dəyişikliyinin sosial, iqtisadi və gender aspektləri üzrə ciddi təsirlər yaratdığını göstərir. Respondentlər iqlim dəyişikliyini əsasən ekstremal hava hadisələri, ətraf mühitin deqradasiyası və sosial-iqtisadi vəziyyətə təsirlər kontekstində qiymətləndirmişdir. Kənd təsərrüfatı məhsuldarlığının azalması, iş yerlərinin itirilməsi və dolanışıq vasitələrinin məhdudlaşması kimi təsirlər kənd və şəhər icmalarında fərqli, lakin əhəmiyyətli şəkildə müşahidə olunur.

Kənd yerlərində qadınlar və kişilər arasında iqlim dəyişikliyinin təsiri fərqli olsa da, qadınların mövcud gender bərabərsizliyi fonunda daha həssas olduğu müşahidə olunur. Qadınların resurslara və qərar qəbuletmə proseslərinə çıxış imkanlarının məhdud olması onların uyğunlaşma qabiliyyətini azaldır. Bu, xüsusilə su resurslarının idarə edilməsi və məişət ehtiyacları üçün qadınların artan məsuliyyəti ilə əlaqədardır. Kişilər isə kənd təsərrüfatında iş itkisi və maliyyə qeyri-sabitliyi səbəbindən iqtisadi çətinliklərlə üzləşir.

Araşdırma göstərir ki, iqlim dəyişikliyinin təsirləri yalnız iqtisadi aspektlərlə məhdudlaşmır, həmçinin sosial nəticələr də doğurur. Gender əsaslı zorakılıq və psixo-sosial çətinliklər iqlim stressinin əlavə təsirlərindəndir. İqlim səbəbiylə miqrasiya, xüsusilə qadınlar və uşaqlar üçün ciddi sosial və sağlamlıq problemləri yaradır. Sığınacaqların qeyri-adekvatlığı və məhdud resurslar onların bu vəziyyətə uyğunlaşmasını daha da çətinləşdirir.

Genderə həssas yanaşmaların olmaması mövcud sosial bərabərsizliyi gücləndirir. Respondentlər gender spesifik ehtiyacları nəzərə alan tədbirlərin tətbiqinin vacibliyini vurğulayırlar. Qadınların liderliyi və qərar qəbuletmə proseslərində iştirakı, həmçinin gender bərabərliyini dəstəkləyən siyasətlərin hazırlanması, cəmiyyətin iqlim dəyişikliyinə qarşı dayanıqlığını artırmaq üçün mühüm addımlar kimi qiymətləndirilir.

## Yekun tövsiyələr

Bu tövsiyələr Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi üçün hazırlanmışdır və 5 əsas istiqaməti əhatə edir. Bunlar iqlim dəyişikliyi, sosial xidmətlər, gender bərabərliyi və iqtisadi dayanıqlılıq kimi sahələrdəki əsas problemlərin həllinə yönəlib.

İqlim dəyişikliyi ilə mübarizə sahəsində məlumatlılığın artırılması və problemlərin effektiv həlli üçün istilik xəritəsinin (heat map) hazırlanması tövsiyə olunur. Bu xəritə iqlim dəyişikliyinin bölgələr üzrə təsvirini təmin edərək, daha dəqiq strategiyaların hazırlanmasına imkan yaradacaqdır.

Araşdırma ilkin olaraq Azərbaycanın 6 bölgəsindəki məlumatlar əsasında hazırlanmışdır. Bununla belə, gələcəkdə digər bölgələr üçün də analoji araşdırmaların keçirilməsi və bu istiqamətdə işlərin genişləndirilməsi tövsiyə olunur.

İqtisadi dayanıqlılıq və məşğulluq sahəsində tövsiyələr siyasət strategiyalarının gender əsaslı büdcələşdirmə metodlarının tətbiqini, qadınların maliyyə resurslarına çıxışını artırmağı və yaşıl biznes təşəbbüslərinə dəstək verilməsini nəzərdə tutur. Bu sahədə qadınların təlim və seminarlarla maarifləndirilməsi də mühüm əhəmiyyət kəsb edir.

Kənd təsərrüfatı və resurslara çıxış istiqamətində qadınların dayanıqlı texnologiyalar və resurslardan istifadə imkanlarını artırmaq üçün hüquqi dəstək proqramlarının yaradılması təklif edilir. Su resurslarının idarə edilməsi və kənd təsərrüfatında qadın fermerlərə icma dəstəyi təşəbbüsləri də bu istiqamətin bir hissəsidir.

Sosial dayanıqlılıq və sağlamlıq xidmətləri üzrə qadınların keyfiyyətli səhiyyə xidmətlərinə daha asan çıxışını təmin etmək üçün kənd yerlərində xidmətlərin əlçatanlığının artırılması və təcili yardımın gücləndirilməsi tövsiyə olunur. Eyni zamanda, iqlim dəyişikliyinin yaratdığı stress və psixoloji təsirlərlə mübarizə üçün psixoloji dəstək xidmətlərinin qurulması da vacibdir.

İqlim dəyişikliyinə qarşı dayanıqlılıq sahəsində qadınların maarifləndirilməsi və onların resurslara bərabər olaraq çıxışını təmin edən proqramların tətbiqi ön plandadır. İqlim dəyişikliyinə qarşı mübarizə strategiyalarında qadınların ehtiyaclarını nəzərə alan həssas yanaşmaların hazırlanması və fəlakətlər zamanı xüsusi təlimlərin keçirilməsi də tövsiyələr sırasındadır.

Gender bərabərliyi və iştirakçılıq istiqamətində qadınların qərar qəbuletmə proseslərində daha geniş iştirakını təmin etmək, onların təmsilçiliyini artırmaq üçün tədbirlərin həyata keçirilməsi, məişət zorakılığı hallarının erkən aşkarlanması və gender bərabərliyini təşviq edən maarifləndirmə kampaniyalarının təşkili təklif olunur. Bu yanaşmalar həm qadınların hüquqlarını qorumağa, həm də gender bərabərliyi ilə bağlı müsbət dəyişikliklərə töhfə verəcəkdir.

# Qoşma

## Qoşma 1. Kəmiyyət araşdırmasının anket sorğusu

*Bölmə 1. Respondentlərin Demoqrafik Profili*

| No. | Sual | Cavab |
|---|---|---|
| 1 | Cinsiniz? | ☐ Kişi<br>☐ Qadın |
| 2 | Yaşınız? | ☐ 18 yaşdan aşağı<br>☐ 18-24<br>☐ 25-34<br>☐ 35-44<br>☐ 45-54<br>☐ 55-64<br>☐ 65 yaşdan yuxarı |
| 3 | Ailə vəziyyətiniz? | ☐ Subay<br>☐ Evli<br>☐ Dul<br>☐ Boşanmış<br>☐ İmtina |
| 4 | Ailə üzvlərinin sayı? | ☐ Yoxdur<br>☐ 1<br>☐ 2<br>☐ 3<br>☐ 4 və daha çox |
| 5 | Ev təsərrüfatının başçısı kimdir? | ☐ Qadın<br>☐ Kişi |
| 6 | Ev və ya torpaq sahənizin əsas rəsmi sahibi kimdir? | ☐ Qadın<br>☐ Kişi |
| 7 | Kənd təsərrüfatı təyinatlı torpaqlar üzərində mülkiyyət və ya təminat hüququ olan ümumi kənd təsərrüfatı torpaqlarınızın sahibi kimdir? | ☐ Qadın<br>☐ Kişi |
| 8 | Ailənizin əsasən kənd təsərrüfatı ilə bağlı olan resurslarının əsas mülkiyyətçisi kimdir? | ☐ Qadın<br>☐ Kişi |
| 9 | Ev təsərrüfatlarına su daşımağa məsul şəxs kimdir?<br>Binada su olmayan ev təsərrüfatları üçün su | ☐ Qadın<br>☐ Kişi<br><br>Orta Məsafə:<br>☐ 100 metrdən az<br>☐ 100-500 metr |

| | | |
|---|---|---|
| 10 | Təhsil səviyyəniz? | ☐ Təhsili yoxdur<br>☐ İbtidai təhsil<br>☐ Ümumi orta təhsil (9 sinif)<br>☐ Tam orta təhsil (11 sinif)<br>☐ Peşə təhsili<br>☐ Ali təhsil |
| 11 | Məşğuliyyət növünüz hansıdır? | ☐ Dövlət sektoru<br>☐ Özəl sektor<br>☐ Fərdi əmək fəaliyyəti<br>☐ İşsiz, hal-hazırda iş axtarır<br>☐ İşsiz, hal-hazırda iş axtarmır<br>☐ Evdar qadın<br>☐ Tələbə<br>☐ Təqaüdçü |
| 12 | Əsas məşğuliyyətinizlə yanaşı təsərrüfatınız varmı? Əgər varsa, həmin təsərrüfatla nə məqsədlə məşğul olursunuz? | ☐ Bəli<br>☐ Xeyr<br><br>Əgər "bəli" qeyd etmisinizsə, onda:<br>☐ Şəxsi istehlak (qida zənciri)<br>☐ Mənfəət üçün məhsul satmaq<br>☐ Heyvandarlıq<br>☐ Bağçılıq<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>______________________ |
| 13 | Maddi vəziyyətinizə görə ailənizin dolanışıq səviyyəsini necə qiymətləndirirsiniz? | ☐ Yoxsul<br>☐ Orta səviyyədən aşağı<br>☐ Orta<br>☐ Orta səviyyədən yuxarı<br>☐ Zəngin |
| 14 | Yaşayış yerinin növü? | ☐ Həyət evi<br>☐ Bina |
| 15 | Yaşayış məntəqəsinin növü? | ☐ Kənd<br>☐ Rayon (mərkəz)<br>☐ Şəhər<br>☐ Qəsəbə |
| 16 | Yaşadığınız iqtisadi rayon? | ☐ Bakı<br>☐ Abşeron-Xızı<br>☐ Qarabağ<br>☐ Şirvan-Salyan<br>☐ Lənkəran-Astara<br>☐ Gəncə-Daşkəsən |

*Bölmə 2. İqlim Dəyişikliyi və onun təsirləri*

| No. | Sual | Cavab |
|---|---|---|
| 17 | Sizin fikrinizcə "İqlim dəyişikliyi" nədir? Uyğun olan bütün variantları seçə bilərsiniz. | ☐ Ekstremal hava hadisələri (məs., q*asırğalar, daşqınlar, quraqlıqlar, istilik dalğaları*)<br>☐ Ətraf mühit dəyişiklikləri (məs., *buzlaqların əriməsi, dəniz səviyyəsinin qalxması, səhralaşma, meşələrin qırılması*)<br>☐ İnsan Sağlamlığına təsirlər (məs., a*rtan xəstəliklər, pis hava keyfiyyəti, qida və su qıtlığı, psixi sağlamlıq stressi*)<br>☐ İqtisadi nəticələr (məs., y*aşam səviyyəsinin itirilməsi, yaşayış xərclərinin artması, əmlaka dəyən ziyan, kənd təsərrüfatı məhsuldarlığının azalması*)<br>☐ Sosial təsirlər (məs., *köçkünlük və miqrasiya, yoxsulluğun artması, gender əsaslı zorakılıq*)<br>☐ Uyğunlaşma və dayanıqlılıq (məs., *dayanıqlı kənd təsərrüfatı, bərpa olunan enerji, icma dəstək sistemləri, hökumət siyasəti*)<br>☐ Şəxsi təcrübələr (məs., *yerli hava şəraitindəki dəyişikliklər, şəxsi və ya ailə sağlamlıq problemləri, gündəlik həyat fəaliyyətlərinə təsir, təbiətdə müşahidə edilən dəyişikliklər*)<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>______________________ |
| 18 | Son illərdə bölgənizdə hava şəraiti və iqlimlə əlaqəli hadisələr və ya hansısa digər dəyişikliklər müşahidə etmisinizmi? Bir neçə cavabı seçə bilərsiniz. | ☐ Bəli<br>☐ Xeyr<br>☐ Əmin deyiləm<br><br>Əgər "bəli" qeyd etmisinizsə, onda:<br>☐ Daha isti günlər<br>☐ Daha soyuq günlər<br>☐ Yağışlar artır<br>☐ Yağışlar azalır<br>☐ Yağışlar daha qeyri-sabitdir<br>☐ Daha uzun quraqlıq dövrləri<br>☐ Daha tez-tez baş verən quraqlıq<br>☐ Daha tez-tez baş verən daşqınlar<br>☐ Daha tez-tez baş verən istilik dalğaları<br>☐ Daha tez-tez baş verən fırtınalar |

| | | |
|---|---|---|
| 19 | Bu dəyişikliklərlə bağlı nə dərəcədə narahatsınız? | ☐ Qəti narahat deyiləm<br>☐ Az narahatam<br>☐ Orta dərəcədə<br>☐ Çox narahatam |
| 20 | İqlimlə əlaqəli təsirlər  sizin yaşayışınıza, xüsusən dolanışıq vasitənizə necə təsir edir? | ☐ Yaşayış xərclərinin artması<br>☐ Kənd təsərrüfatı məhsuldarlığının azalması<br>☐ İş yerinin itirilməsi<br>☐ Kənddən şəhərə miqrasiya<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>_______________________ |
| 21 | İqlim dəyisikliyinin nəticəsində infrastruktura, xüsusən su, sanitariya və səhiyyə kimi sahələrə hansı təsirləri ilə birbaşa qarşılaşmısınız? | ☐ Keyfiyyətli səhiyyə xidmətlərinə çıxışın məhdudlaşması<br>☐ Səhiyyə müəssisələrinin fiziki infrastrukturun dağılması və təchizat zəncirlərinin kəsilməsi<br>☐ Elektrik kəsilməsi səhiyyə xidmətinin göstərilməsində fasilələr yaratmışdır<br>☐ İçməli suya çıxışın məhdudlaşması İnfrastrukturun (yolların, müəssisələrin) zədələnməsi<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>_______________________ |
| 22 | İqlim dəyişikliyi təsirləri nəticəsində yaşadığınız yerdən köçə məruz qalmısınızmı ? Sizin təcrübənizdə əhalinin hansı qrupları köçə daha çox həssasdırlar?<br><br>Qadınlar və uşaqlar köç zamanı hansı təsirlərlə üz-üzə qalmışdılar? | ☐ Bəli<br>☐ Xeyr<br><br>Əgər “bəli” qeyd etmisinizsə, onda:<br>☐ Qadınlar<br>☐ Kişilər<br>☐ Yaşlılar<br>☐ Uşaqlar<br>☐ Fiziki məhdudiyyəti olan insanlar<br><br>☐ Əsas ehtiyaclara və resurslara məhdud çıxış<br>☐ Təhsil, məşğulluq, mənzil və səhiyyə xidmətlərindən məhrum olma<br>☐ Sığınacaqlarda olan məhdud imkanlar<br>☐ Eyni məkanda kişilərlə birlikdə yaşamaqdan yaranan narahatlıq<br>☐ Yalnız qadınlar üçün sanitar qovşağın və hamamın olmaması |

| | | |
|---|---|---|
| 23 | İqlim dəyişikliyi və ekstremal hava şəraiti təsərrüfatınıza birbaşa (məhsul hasilatı, su təminatı, heyvanların sağlamlığı) təsir edib? Edibsə necə? Bir neçə cavabı seçə bilərsiniz. | ☐ Məhsuldarlıq azaldı<br>☐ Su qıtlığı yarandı<br>☐ Daha çox torpaq eroziyası/daha az torpaq münbitliyi<br>☐ Mal-qaranın itkisi<br>☐ Gəlirdə azalma<br>☐ Məhsulları və ya əkinçilik təcrübələrini dəyişdirmək məcburiyyəti yarandı<br>☐ Daha çox zərərvericilər və xəstəliklər (bitki və heyvandarlıq)<br>☐ Daha çox su mövcudluğu<br>☐ Kənd təsərrüfatı üçün daha uzun mövsümlər |
| 24 | İqlim dəyişikliyi məişət və istehsal işləri üçün istifadə olunan suyun mövcudluğu və əlçatanlığına təsir edərək şirin su mənbələrinə əhəmiyyətli təsir göstərir. Hansı təsirlər sizi birbaşa əhatə etmişdir? | ☐ İçməli suya adekvat çıxışın olmaması<br>☐ Suvarma mənbəyində suyun mövcudluğunun azalması<br>☐ Suyun toplanması, saxlanması, mühafizəsi və paylanması üçün sərf olunan əməyin ümumi miqdarı artmışdır |
| 25 | Sizcə iqlim dəyişikliyi ailənizin iqtisadi və sosial həyatına (ailənin gələcək planlarına) necə təsir edə bilər? | ☐ Maliyyə qeyri-sabitliyi<br>☐ Əmək məhsuldarlığının azalması<br>☐ Kişilərinin aşağı məşğulluq səbəbindən böyük şəhərlərə miqrasiyasiyası<br>☐ Uşaq baxım mərkəzləri və uşaqların rifahı üçün vacib olan infrastrukturun fəaliyyətinin dayandırması<br>☐ Ailənin şəhər ərazilərinə məcburi köçü nəticəsində -uşaqların təhsildən kənar qalmasıvə yaxud təhsilində fasilələrin yaranması |

*Bölmə 3. İqlim Dəyişikliyi və Gender-Spesifik Təsirlər*

| No. | Sual | Cavab |
|---|---|---|
| 26 | İqlim dəyişikliyi nəticəsində yuxarıda sadalanan (**23 və 24 -cü suala baxın**) təsirlərin hansıları qadınların üzərində olan məsuliyyətin artmasına səbəb olmuşdur? Ən azı **iki** əsas səbəbi qeyd edin | Zəhmət olmasa qeyd edin: ______________________ |
| 27 | İqlim dəyişikliyinin yaratdığı sosial-iqtisadi çətinliklərin xüsusilə qadın və qızlara təsirləri fərqlidir. Sizin təcrübənizə görə bu çətinliklər qadın və qızlara hansı formada daha çox təsir edə bilər? Bir neçə cavabı seçə bilərsiniz. | ☐ Maliyyə və iqtisadi şoklara davamlılıq<br>☐ Qızların təhsil müəssisələrindən uzaqlaşdırılmasına<br>☐ Qızların ev işlərinin yerinə yetirilməsinə cəlb olunmasına<br>☐ Resurslara qeyri-bərabər çıxışına<br>☐ Artan iş yükünə, qayğı və uşaq baxımına sərf olunan vaxtın artmasına<br>☐ Ənənəvi dolanışıq vasitələrinin dayanıqlılığının sıradan çıxmasına<br>☐ Kişilərin ailə üzvlərini qazanc məqsədi ilə tərk etdikləri üçün qadınların üçlü iş yükünün artması<br>☐ Məşğulluqlarına təsiri ənənəvi işlərə çıxışın azalması ( mövsümi işlər, fərdi təsərrüfatlarda muzdlu işlər) |
| 28 | İqlim dəyişikliyi nəticəsində ailənizin qadın üzvləri aşağıdakı nəticələrdən hər hansı bir hal ilə rastlaşıbmı? | ☐ Su toplamaq üçün sərf olunan vaxtın artması<br>☐ Ailə üzvlərinə qayğı göstərmək üçün sərf olunan vaxtın artması ( fiziki qayğı, psixoloji dəstək daxil olmaqla)<br>☐ Ev işlərinə sərf olunan vaxt artımı (təmizlik, yemək hazırlamaq, ev üçün alış-veriş, )<br>☐ İki həftədən çox natəmiz bişirmə/isitmə/işıqlandırma yanacağına keçməli oldu (məsələn, elektrik enerjisi, maye qaz, təbii qaz **başqa** hər hansı yanacaq)<br>☐ Yanacaq və odun yığımına sərf olunan vaxtın artması<br>☐ Digər ev təsərrüfatları ilə sanitar qovşağı istifadə etməli oldu<br>☐ Təcrübəli həkimlərə baş çəkmək/tibbi yardım axtarmaq üçün gözləmə müddətinin artması<br>☐ Qadınların zorakılığa məruz qalma riski artır<br>☐ İqlim səbəbli miqrasiya və ya yerdəyişməyə məruz qalmaq<br>☐ Gigiyena məhsullarının əlçatanlığı azaldı |

| | | |
|---|---|---|
| 29 | İqlim dəyişikliyinin nəticəsi olaraq yaşadığınız yerdə, icmanızda qızların erkən nikah halları artmışdırmı? | ☐ Bəli<br>☐ Xeyr |
| 30 | İqlim dəyişikliyinin nəticəsi olaraq məişət zorakılığının hansı hallarda baş verdiyini müşahidə etmisiniz? Bir neçə cavab qeyd edə bilərsiniz. | ☐ Əmlak və yaşayış vasitələrinin itirilməsi;<br>☐ Hava ilə əlaqədar fəlakətlərdən sonra ərzaq və əsas təminatların qıtlığı nəticəsində<br>☐ Uşaqların məcburi əməyə cəlb edilməsi zamanı ailə münaqişəsi baş verərkən<br>☐ Məişət zorakılığı gündəlik su ilə bağlı tapşırıqların yerinə yetirilməməsi ilə bağlı baş verir<br>☐ Ailələri üçün dolanışıq vasitələrini təmin etməli olduqları üçün təhlükəli şəraitdə işləyən qadınların sayının artması<br>☐ Yoxsulluq içində yaşayan qadınlar daha çox zərər görür<br>☐ Müvəqqəti yaşayış yerlərində və sığınacaqlarda gender əsaslı zorakılıqla üzləşməsi halı<br>☐ Su və qida mənbələri üçün sığınacaqdan ayrılanda cinsi zorakılq halı ilə üzləşməsi (sataşma, söz atma və s.) |
| 31 | Yuxarıda sadalanan amillərin nəticəsi olaraq ən çox qadına qarşı ən çox hansı zorakılıq halının baş verdiyini müşahidə etmisiniz? | ☐ Psixoloji zorakılıq<br>☐ İqtisadi zorakılıq<br>☐ Fiziki zorakılıq<br>☐ Seksual zorakılıq |
| 32 | İqlim dəyişikliyi halları (havanın çirklənməsi və istiliyə məruz qalma) qadınların sağlamlığı ilə bağlı bəzi ağırlaşmalarla əlaqələndirilir. Bununla bağlı nə kimi təsirlərin şahidi olmusunuz? | ☐ Vaxtından əvvəl doğuş<br>☐ Uşağın aşağı doğum çəkisi ilə dünyaya gəlməsi<br>☐ Hamiləlikdə və doğuşdan sonra ananın sağlamlığında ağırlaşmalar<br>☐ Sonsuzluq<br>☐ Astma və digər tənəffüs problemləri<br>☐ Ürək-damar xəstəlikləri<br>☐ Narahatlıq, depressiya və posttravmatik stress pozğunluğunun yüksək səviyyəsi |

| | | |
|---|---|---|
| 33 | Əhalinin xüsusi ilə qadınların hər hansı fəlakət riski məlumatlarına çıxışı varmı və bu nə dərəcədə faydalıdır? | Məlumatlara çıxış:<br>☐ Bəli, geniş şəkildə əlçatandır<br>☐ Bəli, bir qədər əlçatandır<br>☐ Xeyr, əlçatan deyil<br>☐ Əmin deyiləm<br><br>Faydalılıq dərəcəsi:<br>☐ Çox faydalı<br>☐ Bir qədər faydalı<br>☐ Qətiyyən faydalı deyil<br>☐ Əmin deyiləm |
| 34 | İqlim dəyişikliyinin təsirləri ilə bağlı qadınların dolanışıq vasitələrinə dəyən zərərlər və şoklarla mübarizə aparmaq üçün hazırda dövlətin təqdim etdiyi dövlət proqramları ilə bağlı məlumatlısınızmı, və yaxud istifadə etmisinizmi? | ☐ Bəli<br>☐ Xeyr<br><br>Əgər "bəli" qeyd etmisinizsə, onda:<br>☐ Heyvandarlıq sahəsinin sığorta xidmətləri ilə təminatı<br>☐ Bioloji müxtəlifliyin qorunması, su bioresurslarının artırılması<br>☐ Heyvanların güzəştli şərtlərlə sığortalanması<br>☐ Əhaliyə göstərilən hidrometeoroloji xidmətin genişləndirilməsi<br>☐ Suyun keyfiyyətinə iqlim təsirlərinin əhatə dairəsini və bununla bağlı potensial sağlamlıq nəticələrini, xüsusən də həssas əhali qruplarının müəyyənləşdirilməsi<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>____________________ |
| 35 | Qadınlar fəlakətə hazırlıqla bağlı məlumatları hansı vasitələrlə əldə edirlər? | ☐ Radio-TV<br>☐ Internet<br>☐ Icma vasitəsi ilə<br>☐ Xüsusi risk qrupları vasitəsi ilə<br>☐ Erkən xəbərdarlıq sistemləri vasitəsi ilə<br>☐ Digər |

| | | |
|---|---|---|
| 36 | Qadınların iqlim dəyişikliyinə uyğunlaşmaq və fəlakətlərə hazırlıqla bağlı bilgi və bacarıqları əldə etməkdə hansı çətinlikləri var? | ☐ Qeyri-kafi maliyyə<br>☐ Fərdi bilik boşluqları<br>☐ Sosial-mədəni normaların yaratdığı əngəllər<br>☐ İnstitusional məhdudiyyətlər<br>☐ Texnologiya və resurslara çıxışın zəif olması |
| 37 | Dövlət qurumları, icmalar və ya digər maraqlı tərəflərə iqlim dəyişikliyi ilə bağlı problemlərin daha effektiv şəkildə həll edilməsi ilə bağlı hər hansı təklifləriniz varmı? | ☐ Aidiyyatı təşkilatların daxilində potensialın gücləndirilməsi<br>☐ Qadınların ehtiyaclarını və perspektivlərini nəzərə alan profilaktik yanaşmaların hazırlanması<br>☐ Yerli qadın qruplarının bacarıqlarını inkişaf etdirmək və onlar üçün platforma təmin etmək<br>☐ Qərar vermə proseslərinin bütün səviyyələrində qadınların iştirakını və təmsilçiliyini artırmaq<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>________________________ |

### *Bölmə 4. Cavab mexanizmləri və davamlılıq*

| No. | Sual | Cavab |
|---|---|---|
| 38 | İqlim dəyişikliyinin təsirləri ilə mübarizə aparmaq üçün siz və ailəniz müvafiq tədbir görmüsünüzmü? | ☐ Bəli<br>☐ Xeyr<br>☐ Əmin deyiləm<br><br>Əgər “bəli” qeyd etmisinizsə, onda:<br>☐ Suya qənaət etmək üçün tədbirlər (məsələn, damcı suvarma sistemləri)<br>☐ Ev təsərrüfatlarında iqlimə davamlı kənd təsərrüfatı təcrübələrindən istifadə<br>☐ Əkin üçün daha davamlı toxumlardan istifadə etmə<br>☐ Ekoloji cəhətdən zərərsiz olan davamlı kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı ilə bağlı torpaq, su və digər resursları qoruyan təcrübələrin tətbiq edilməsi<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>________________________ |

| | | |
|---|---|---|
| 39 | İş yerinizdə və ya ev təsərrüfatınızda qeyd olunan ekoloji texnologiya və təcrübələrin hansından istifadə etmisinizmi? | ☐ Bərpa olunan mənbələrdən enerji (fotovoltaik panellər, günəş panelləri və s.) quraşdırılması və təmiri daxildir.)<br>☐ Enerji və su səmərəliliyi (su sızmasının azaldılması, suyun təkrar emalı, yağış sularının yığılması]<br>☐ Resursların bərpası, təkrar istifadəsi və təkrar emalı və/və ya təbii ehtiyatların dəyişdirilməsi<br>☐ Ətraf mühitin mühafizəsi və təbii ehtiyatların mühafizəsi [bioloji müxtəlifliyin, suyun, landşaftların, meşələrin və s. mühafizəsi kimi]<br>☐ Daha əvvəl qeyd olunmayan digər ekoloji cəhətdən təmiz texnologiyalar və təcrübələr |
| 40 | İqlim dəyişikliyinin nəticəsində ailələr, xüsusilə də qadınlar əmlaklarını necə qoruyurlar? | ☐ Mülkiyyətində olan ev və torpaq sahəsi sığortalanıb<br>☐ Dövlət qurumlarından, QHT-lərdən və ya digər təşkilatlardan hər hansı dəstək<br>☐ Dəyən ziyanı şəxsi hesabına qarşılanması<br>☐ Digər, zəhmət olmasa qeyd edin:<br>________________________ |

# Qoşma 2. Keyfiyyət araşdırmasının müsahibə bələdçisi

| *Nömrə* | *Sual* |
|---|---|
| **1** | İqlim dəyişikliyinin təsirlərinin cəmiyyətin müxtəlif seqmentlərinə necə fərqli təsir etdiyini izah edin. İqlim dəyişikliyi ilə genderin əlaqəsi |
| **2** | Gender və iqlim dəyişikliyi ilə bağlı Pekin bəyannaməsindən sonra hansı əsas irəliləyişlər baş verdi? (bəzi boşluqlar) |
| **3** | İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri gender fərqlərini və qadınların xüsusi ehtiyaclarını nəzərə almadıqda hansı mənfi nəticələrə səbəb olur? |
| **4** | İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri gender fərqlərini və qadınların xüsusi ehtiyaclarını nəzərə aldıqda hansı müsbət nəticələr əldə edilir? |
| **5** | İqlim-ağıllı kənd təsərrüfatı təcrübələrinin qəbulunda gender boşluqları |
| **6** | İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri çərçivəsində genderin nəzərə alınmasını necə təmin edə bilərik? |
| **7** | İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri çərçivəsində genderin nəzərə alınması üçün bəzi giriş nöqtələrini qeyd edin. Genderə uyğun iqlim fəaliyyətinin faydalarını vurğulayaraq |
| **8** | Yerli və milli səviyyədə iqlim dəyişikliyi ilə bağlı qərarların qəbul edilməsində qadınların hazırkı iştirak səviyyələri hansılardır? |
| **9** | Qadın və kişilərin gender təsirləri, mübarizə strategiyaları və uyğunlaşma prioritetləri hansılardır? |
| **10** | İqlim dəyişikliyi ilə bağlı fəlakətlərə və yerdəyişmələrə gender həssas reaksiyalar üçün hansı ən yaxşı təcrübələr mövcuddur? |

Keyfiyyət araşdırması zamanı müsahibə sualları ümumilikdə aşağıdakı 4 mövzunu əhatə edir:

• İqlim dəyişikliyinin təsirləri və həssaslığın qiymətləndirilməsi

• Gender, iqlim dəyişikliyi və risklərin qiymətləndirilməsi

• İqlim dəyişikliyinin azaldılması və uyğunlaşma tədbirləri - gender aspektlərini nəzərə alan yanaşma

• İqlim dəyişikliyi ilə əlaqədar qlobal ən yaxşı təcrübələrə dayanan qərar qəbuletmə və mitiqasiya/ uyğunlaşma strategiyasının formalaşdırılması

# Mənbələr


1. Azərbaycan Respublikası Hökuməti. 2019. İkinci Könüllü Milli Hesabat. Bakı.
2. Food and Agriculture Organization of the United Nations. (2022). The State of the World's Forests 2022: Forest pathways for green recovery and building inclusive, resilient and sustainable economies. FAO.
*https://openknowledge.fao.org/server/api/core/bitstreams/8af783d3-0d89-43ca-a1bb-4b8411249402/content*

3. Food and Agriculture Organization of the United Nations. (2021). Transforming Food Systems for Affordable Healthy Diets: The State of Food Security and Nutrition in the World 2021. FAO.
*https://openknowledge.fao.org/items/df422741-9c04-4313-8598-7c15504e31b1*

4. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli İnformasiya Portalı Indicators availability status report
5. Beynəlxalq Ətraf Mühit və İnkişaf İnstitutu. (2012). Təcrübə ilə öyrənmə və fəaliyyət: İqlim dəyişikliyinə icma əsaslı adaptasiya. Alınıb:
*https://www.iied.org/sites/default/files/pdfs/migrate/10556IIED.pdf*

6. Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyası. (2022). 2022-ci ilin Dünya Fəlakətləri Hesabatı. Alınıb:
*https://www.ifrc.org/document/world-disasters-report-2022*

7. Birləşmiş Millətlər Təşkilatı. (1995). Pekin Bəyannaməsi və Fəaliyyət Platforması. Alınıb:
*https://www.un.org/womenwatch/daw/beijing/pdf/BDPfA%20E.pdf*

8. Birləşmiş Millətlər Təşkilatı. (2018). Gender bərabərliyi və iqlim dəyişikliyi haqqında hesabat. Alınıb:
*https://documents.un.org/doc/undoc/gen/g18/017/42/pdf/g1801742.pdf*

9. Birləşmiş Millətlər Təşkilatı. (n.d.). Dayanıqlı İnkişaf Məqsədi 13: İqlim Fəaliyyəti. Alınıb
*https://sdgs.un.org/goals/goal13#targets_and_indicators*

10. Birləşmiş Millətlər Təşkilatı. (n.d.). İqlim Dəyişikliyi Hesabatları. Alınıb:
*https://www.un.org/en/climatechange/reports*

11. BMT Azərbaycan. (n.d.). Dayanıqlı İnkişaf Məqsədi 5: Gender Bərabərliyi. Alınıb:
*https://azerbaijan.un.org/az/sdgs/5*

12. BMT Gürcüstan. (n.d.). İqlim dəyişikliyinə dəstək. Alınıb:
*https://georgia.un.org/en/180476-standing-climate-change*

13. BMT Qadınlar İzləyicisi. (n.d.). Qadınlara qarşı bütün ayrı-seçkilik formalarının ləğvi haqqında Konvensiya (CEDAW). Alınıb:
*https://www.un.org/womenwatch/daw/cedaw/cedaw.htm*

14. BMT Qadınlar. (n.d.). Fəlakətlərə Qarşı Qadınların Dayanıqlığı. Alınıb:
*https://wrd.unwomen.org/about/programme#:~:text=The%20Women's%20Resilience%20to%20Disasters*

15. BMT Qadınlar. (n.d.). SDG 13: İqlim dəyişikliyi ilə mübarizə üçün təcili tədbirlər görmək. Alınıb:

*https://www.unwomen.org/en/news/in-focus/women-and-the-sdgs/sdg-13-climate-action*

16. CARE. (n.d.). İqlim təhsili və dayanıqlıq üzrə müdafiə (CLAR). Alınıb:
*https://careclimatechange.org/climate-learning-and-advocacy-for-resilience-clar/*

17. Cutter, S. L., Boruff, B. J., & Shirley, W. L. (2003). Ətraf mühit təhlükələrinə sosial həssaslıq. Amerika Coğrafiyaçılar Assosiasiyasının İllikləri, 93(1), 1–12.
*https://doi.org/10.1111/j.1467-8306.2007.00563.x*

18. İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panel (IPCC). (2007). Dördüncü qiymətləndirmə hesabatı: Sintez hesabatı. Alınıb:

*https://www.ipcc.ch/site/assets/uploads/2018/02/ar4_syr_full_report.pdf*

19. IRENA. (2019). Bərpa olunan enerji üzrə gender perspektivi. Alınıb:
*https://www.irena.org/-/media/Files/IRENA/Agency/Publication/2019/Jan/IRENA_Gender_perspective_2019.pdf*

20. KAGIDER. (n.d.). Türkiyə Qadın Sahibkarlar Dərnəyi. Alınıb:

*https://kagider.org/*

21. OHCHR. (2018). Ümumi Tövsiyə No. 37 (2018): İqlim dəyişikliyi və fəlakətlərin riskinin azaldılması kontekstində genderlə bağlı ölçülər. Alınıb:

*https://www.ohchr.org/en/documents/general-comments-and-recommendations/general-recommendation-no37-2018-gender-related*

22. Pathfinder International. (n.d.). İqlim və sağlamlıq dayanıqlığı. Alınıb:

*https://www.pathfinder.org/focus-areas/climate-and-health-resilience/*

23. PubMed. (2006). Impact of climate change on public health. PubMed Central. Alınıb:

*https://pubmed.ncbi.nlm.nih.gov/17036844/*

24. Qadınlar arasında Həmrəylik" İctimai Birliyi. 2020. Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında Konvensiyanın həyata keçirilməsinə dair müstəqil hesabat. Bakı.

25. Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi Komitəsi. (2015). Azərbaycanın beşinci dövri hesabatı üzrə başa çatan müşahidələr (CEDAW/C/AZE/C).

26. Qadınların Ətraf Mühit və İnkişaf Təşkilatı (WEDO). (2011). Su ehtiyatlarının idarə edilməsi və gender haqqında əlavə məlumat. Alınıb:

*https://unfccc.int/files/adaptation/knowledge_resources/databases/partners_action_pledges/application/pdf/wedo_furtherinfo_water_190411.pdf*

27. SEWA. (n.d.). Öz-özünə Məşğul Qadınlar Assosiasiyası. Alınıb:
*https://www.sewa.org/*

28. The World Bank Group. (2022). Azərbaycan: Yaşıl inkişaf istiqamətində. Məsələlər qeydi. Sentyabr 2022

29. UN Women. (2024). Alınıb:
*https://wrd.unwomen.org/sites/default/files/2024-05/cc9680en.pdf*

30. UNDP. (n.d.). Gender analizi və NDC-lər: Hökumət tərəfdaşları üçün qısa təlimat. Alınıb:

*https://climatepromise.undp.org/research-and-reports/gender-analysis-and-ndcs-short-guidance-government-stakeholders*

31. UNFCCC. (n.d.). COP29: BMT İqlim Konfransı inkişaf etməkdə olan ölkələrə maliyyə dəstəyini üç dəfə artırmağa razılaşdı, həyatları qoruyur. Alınıb:

*https://unfccc.int/news/cop29-un-climate-conference-agrees-to-triple-finance-to-developing-countries-protecting-lives-and*

32. UNFCCC. (n.d.). Gender Fəaliyyət Planının qəbulu ilə bağlı mətbuat açıqlaması. Alınıb:

*https://unfccc.int/sites/default/files/resource/Press%20release%20GAP%20adoption.pdf*

33. UNFCCC. (n.d.). Gender üzrə Lima İş Proqramı. Alınıb:

*https://www4.unfccc.int/sites/NWPStaging/Pages/Lima-Work-Programme-on-Gender.aspx*

34. UNFCCC. (n.d.). Katovitse İqlim Paketi. Alınıb:

*https://unfccc.int/process-and-meetings/the-paris-agreement/katowice-climate-package*

35. UNFCCC. (n.d.). Paris Sazişi. Alınıb:

*https://unfccc.int/process-and-meetings/the-paris-agreement*

36. World Health Organization. (n.d.). Climate change and health. Alınıb:

*https://www.who.int/news-room/fact-sheets/detail/climate-change-and-health*

37. Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitə Azərbaycanın altıncı dövri hesabatı üzrə yekun müşahidələr, 2022, CEDAW/C/AZE/CO/6. Alınıb:

*https://azerbaijan.un.org/sites/default/files/2023-06/CEDAW%20CO.pdf*

38. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı. (2017). Ermənistanda Gender, Kənd təsərrüfatı və Kənd inkişafı. Alınıb:

*https://openknowledge.fao.org/server/api/core/bitstreams/8af783d3-0d89-43ca-a1bb-4b8411249402/content*

39. Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı. (2018). Gürcüstanda Gender, Kənd təsərrüfatı və Kənd inkişafı. Alınıb:

*https://openknowledge.fao.org/server/api/core/bitstreams/ad43affd-9e14-41ce-96c7-e9b84edf5709/content*

@aileqadinusaq

@aileqadinusaq

@AileQadinUsaqProblemleriUzreDovletKomitesi

@aileqadinusaq

https://family.gov.az/az

Telefon: (+994 12) 498 00 92
E-poçt: office@family.gov.az
Faks: (+994 12) 493 58 72
Ünvan: Ü.Hacıbəyli 80,Hökumət Evi, IV Qapı